Füruğ FƏRRUXZAD
tərcümə saatı
42

Qəşəm NƏCƏFZADƏ
hücrə
45

48
SEVİNC
debüt

Əli Şirin ŞÜKÜRLÜ
nəsr
50

Leyla NAMAZOVA
debüt
62

Elkin KƏRİMLİ
adsız
63

64
Dilarə ƏLİYEVA
məqam

Nəzakət
Ömrün qatarı
70

72
Cəmilə MƏMMƏDLİ
"Dəli"

76
Aysel KƏRİM
debüt

77
Əli HACILI
nəsr

78
Firuz ABDULLA
esse

79
Nostalji

81
Sərəstun GUR
Şəhidlik



82
Vaqif BAYATLI
dərgidə kitab



Təsisçilər:
Azərbaycan Yazıçılar Birliyi və «Ulduz» jurnalının kollektivi

Baş redaktor
Qulu Ağsəs

Redaksiya heyəti
Təranə Vahid
(Baş redaktor müavini)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Şəhər
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Nisəbəyim
Fərid Hüseyn
Məshəti Musa
Elşən Əzim
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Rusiya)

Bədii redaktor
Ədalət Həsən

Ünvanı: Az-1000, Bakı,
Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
dursul@mail.ru
www.ayb.az
Telefon: 498-72-43
Çapa imzalanıb: 17.01.2017
«Ulduz» jurnalı redaksiyasında yığılıb səhifələnib. «Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsində çap olunub.
Sifariş. №2, Tiraj: 300
Qiyməti: 2 man.

1967-ci ildən çıxır
Şəhadətnamə № 238

Nömrənin eksperti:
Jalə Əliyeva



«AZƏRMƏTBUATYAYIMI» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «Mətbuatyayımı» şöbələrinə müraciət etməyiniz kifayətdir.

«QAYA» MƏTBUAT YAYIMI

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «QAYA» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

«EKSPRESS» MƏTBUAT YAYIMI

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «EKSPRESS» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

Jurnalın

1 aylıq abunə qiyməti – 2.00 man.

6 aylıq abunə qiyməti – 12.00 man.

Bakı şəhərində abunə yazılmaq istəyənlər:

440 – 27 – 85
440 – 39 – 83
440 – 46 – 94

564 – 63 – 45
598 – 35 – 22
556 – 67 – 13
564 – 48 – 96

437 – 28 – 10
408 – 17 – 51

nömrəli telefonlara zəng edə bilərlər.

ISNN 0134-522 İNDEKS AZ 1000 2 AZN

Abid TAHİRLİ
filologiya elmləri doktoru

YENİ SƏSLİ, YENİ İMZALI ƏDƏBİ QÜVVƏLƏRİN SORAĞINDA...

("Ulduz"un dekabr sayına bir nəzər)

"Yeni ulduz doğulur. Ədəbiyyat və incəsənətimizin, siyasi və ictimai həyatımızın üfüqlərində yeni bir ulduz... Elə isə gəlin onun adını böyük hərflərlə yazaq: Ulduz! İlk baxışda səma ulduzları bir-birinə oxşar kimi nəzərə çarpır. Sanki onların hamısı körpə uşaqlartək eyni təbəssümlə gülümsəyir. Əslində isə ulduzlar arasında milyon, bəlkə də, daha çox yaş fərqi, birinin digərinə bənzəməyən tərcümeyi-halı, astronomik taleyi vardır... Jurnal N. Gəncəvi, M. Füzuli, M. F. Axundov, Ə.Sabir, C.Cabbarlı, Ü.Hacıbəyov, S.Vurğun ənənəli böyük ədəbiyyatımızın, incəsənətimizin yeni səsli, yeni imzalı ədəbi qüvvələrini üzə çıxaracaqdır. Jurnalın səhifələrində Siz müxtəlif məsələlərə dair müzakirələrin, disputların iştirakçısı olacaq, müasir poeziya və nəsrimizin problem məsələlərinə həsr edilmiş materiallar oxuyacaqsınız." Bu cümlələr düz 50 il bundan əvvəl- 1967-ci ilin yanvar ayında 15.000 tirajla ilk dəfə oxucularının görüşünə gələn "Ulduz" jurnalının "Redaksiyadan" adlı proqram məqaləsindən götürülmüşdür. Ötən illər ərzində "Ulduz" vədinə sadiq qalmış, ədəbi-mədəni irsimizin daha da zənginləşməsinə ləyaqətlə və fədakarlıqla xidmət etmiş, onlarca gənc şair və yazıçının, əgər belə demək mümkünsə, "əlindən tutub" böyük ədəbiyyata həvəsləndirmişdir. Və təsadüfi deyil ki, "Ulduz"da imzası olanların böyük əksəriyyəti ümidləri doğrultmuş, özlərini təsdiq etmiş və ədəbiyyat tariximizdə müəyyən izlər buraxmışlar...

Poeziya. Haqqında bəhs edəcəyim dekabr sayındakı müəlliflər barəsində də 50 il sonra

eyni sözlərin deyilməsi arzusu və ümidi ilə mətləbə Mətləb Ağa ilə başlayıram. Sözün düzü, onun "özüylə söbəti"ndə ədəbi düşüncələri, öz təbiri ilə desəm, "niyə yazdığı" barədə daha geniş, daha maraqlı mülahizə və fikirlərini gözləyirdim. O, isə iddiası böyük, imkanları məhdud olan "yaradıcı adamlardan", "Azərbaycan əlifbasında otuz iki hərf olduğundan qəti xəbəri olmayanlardan", "bir kitabı oxuyub başa çıxa bilməyənlərdən", amma ədəbiyyatdan moizə oxuyanlardan giley-güzar etməklə kifayətlənir. Fikrimcə, bu qəbildən şikayətlərdənsə,

...və bu sentyabr da
köçünü yığışdırır...
yenə bir külək düşüb
küçəni yığışdırır...

- kimi təsirli misraların sayını artırmaqla ədəbi meydandakı, Mətləbin sözləri ilə ifadə etsək, "zir-zibil"i, "makulatura"nı təmizləmək daha effektiv olardı. Mətləbin şeirlərinin ideya- bədii məziyyətləri barədə söz açmaq üçün kifayət qədər əsas olsa da, onu deməklə kifayətlənirəm ki, müəllifin sözün gücü ilə peşəkar rəssamların belə həsəd apara biləcəyi mənzərə yaratmaq məharəti diqqətəlayiqdir ki, bu, onun həm də dərin müşahidə qabiliyyətinə dəlalət edir.

Pərakəndəlik olmasın deyə, söhbətimizi saydakı poeziya nümunələri ilə davam etdirəcəyik. Furqanın şeirlərinə ilk dəfə, səhv etmirəmsə, "525-ci qəzet"də 2-3 il bundan əvvəl rast gəlmişdim və həmin nümunələr məndə böyük təəssürat yaratmışdı. Bir kəlmə ilə desəm, onun şeirləri fikrə daldıran, düşündürəndir. Elə bil sözlər sehrli, misralar

sirlidir, aralanmağa, ayrılmağa qoymur. Məncə, şair hamının gördüyü, bəlkə də, hətta bildiyi "işin içindən iş çıxardır", gördüklərini elə mənalandırır, yazır, yozur ki, təəccüblənməyə bilmirsən.

Məsələn,

bu ağac
öz kölgəsini qoruyur
günəşin istisindən...
...və biz də
yarpaq olmalıydıq, əslində...
olammadıq -
heyif...

Təqdirəlayiqdir ki, "Ulduz" ənənəsinə sadiq qalaraq dekabr sayında da "Debüt" rubrikasında özünün çoxsaylı müəlliflər siyahısına daha üçünü əlavə etmiş, gənc yazarlar Qərib Nicatın, Gülşən Mustafanın və Sevinc Məmmədlinin şeirlərini vermişdir. Qərib Nicat "taleyinin uşaq otağının divarından asdığı rəsmin" ("Uşaqlığımın rəsmi"), Gülşən Mustafa isə "xisləti, əməli ilə mərd, mətin insanlardan seçilməyən" aynabəndlərin ("Aynabənd") onlarda yaratdığı fərdi, fərqli ovqatı poetik deyim və lövhələrlə, bədii boyalarla ifadə etməyə, mənalandırmağa çalışmışlar.

Jurnalda Tural Adışirinin irili-xırdalı, adlı-adsız 13 şeiri dərc olunub. Sadə, səmimi, oynaq, axıcı və aydın dillə qələmə alınmış bu məhəbbət ətirli şeirlərdə gənc şairin ürək çırpıntıları, hiss və həyəcanı duyulur, hiss olunur. Məhəbbət, sevgi mövzusunda yazmaq, qələmi sınamaq, əlbəttə, heç kimə yasaq edilməyib, lakin ədəbi xəzinəmizin bu səpkidə bənzərsiz nümunələrinin olduğunu nəzərə alsaq, Tural Adışirinin cəsarətini təqdir etməliyik. Eyni zamanda şeirlərdə oxşar, təkrarı xatırladan poetik deyimlərin, səslərin, nəfəslərin oxucuları qayğılandırdığını da qeyd eyməliyik. Məs., harada və hansı missiyada işlənməsindən asılı olmayaraq, "sahilsiz dəniz" Nəbi Xəzri başda olmaqla bir neçə başqa şairi xatırladır. Yaxud, Osman Sarıvəllinin, Hüseyn Arifin, Musa Yaqubun təbiəti tərənnüm edən, metafora, epitet, təşbeh və s. kimi digər bədii təsvir və ifadə vasitələri ilə süslənmiş zəngin yaradıcılığı bu sənətkarları zirvəyə ucaltmışdır. Həmin nümunələrdən, poetik lövhələrdən sonra bu ifadələr caizsə, ətəklərdə, yaxud yamaclarda gəzişməkdir...

Aşağıdakı misralar Hikmət Məlikzadənin "Ulduz"un dekabr nömrəsindəki şeirlərindəndir.

...İtib elçi daşı mamırın altda,
Donub küçənizdə ayaq izləri...

* * *

Təkcə bu bulaqdı şahidim, o da
Kimsə yoxdu deyə, qaşını əyib.

* * *

Dünya bəzən məndən sənə
Adəmdən mənə qədərdi.

* * *

Dünyanın, bəlkə də, ən pis qızıdı
Dünyanın, bəlkə də, ən gözəl qızı...

Bu sətirlərin bədii yükü, sanbalı və sahmanı göz qabağındadır, inkaredilməzdir və şairin düşüncəsinin, zövqünün, sözdən uğurla və yerli-yerində istifadə etmək bacarığının, yeniliyə, axtarışa meylinin, marağının göstəricisidir.

Yaxşı haldır ki, "Ulduz" ənənəsinə sadiq qalaraq bu sayında da "Bölgələrdən soraqlar" rubrikası ilə ADPU Cəlilabad filialının müəllimi, filologiya üzrə fəlsəfə doktoru Bilal Alarlının təqdimatı ilə Cəlilabaddan Allahşükür Alaşarlının "Qəzəllər"ini dərc etmişdir. Bilal müəllim Allahşükürü oxuculara "öyrənməkdən yorulmayan, yeniliyə böyük ehtirasla can atan, həvəslə yazıb-yaradan" gənc şair kimi təqdim edir, əminliklə yazır ki, şeirlərində Füzulinin ruhu yaşadığı kimi, Aşıq Ələsgər havası da ürək sərinlədir.

Poeziyadan söz düşmüşkən, qeyd edək ki, jurnal ötən sayında şifahi ədəbi nümunələrə də yer ayırmışdır. İstedadlı şair- publisist, pedaqoq İslam Sadığın "Ulduz"un Baş re-

daktoru Qulu Ağsəsə ünvanlandığı məktubdan məlum olur ki, müəllim tələbələrinə bölgələrdən şifahi ədəbi nümunələri toplamaq tapşırığı vermiş və tələbə İlkin Elsevəroğlu da tətil zamanı Cəlilabadın Ləzran kəndindən atalar sözlərini, bayatıları və holavarları toplamışdır. Təqdirəlayiqdir ki, İslam Sadıq tələbəsinin həmin örnəkləri necə topladığı haqqında yazdığı məqaləsini şifahi ədəbi nümunələri ilə birlikdə jurnala təqdim etmişdir.

Qəhrəmanın məqsədi ətalət və cəhalət içərisində böyüyüb boya-başa çatdığı mühiti dəyişməkdir.

Murad Köhnəqala maraq dairəmdə olan müəlliflərdəndir, onun publisistik yazılarında toxunduğu mövzular diqqətimi çəkir. Yanılmıramsa, bir yazısında da uşaqların, məktəblilərin mütaliəsi məsələsini qaldırmışdı və xüsusi ilə dərsliklərdə ciddi problemlərin olduğunu vurğulamışdı. Yazını oxuyanda Azərbaycan Atatürk Mərkəzində Dilsuzun nağıl kitablarının təqdimatında (o, 70-dən çox nağılımızı yenidən işləmiş və hər bir nağılın ayrıca, illüstrasiyalı kitab şəklində nəşrinə nail olmuşdu) akademik Bəkir Nəbiyevin "Bəzi xəstəliklərdən qorunmaq üçün körpələrə peyvənd edilir. Onların mənəvi mərəzə məruz qalmaması, yad, zərərli, ziyanlı vərdişlərə düçar olmaması üçün valideynlər körpələrini Dilsuzun hekayələri ilə vaksin etməlidirlər" - fikrini xatırlamışdım. "Ulduz"da Murad Köhnəqalanın "Heyvanların söhbəti" proyektində" rubrikası altında verilmiş hekayələrinə rast gələndə yenə Bəkir müəllimin dedikləri yadıma düşdü və həqiqətən də məzmun, ideya, dil baxımından müasir tələblərə cavab verən əsərlərə çox ciddi ehtiyac olduğunu bir daha vurğulamağı lazım bildim.

"Ulduz"un təqdim etdiyi hekayələrdən Cavid Qədirin "Şahid adamların hekayəsi" oxucunu təkcə mövzunun ağırlığı, hadisələrin dramatizmi yox, həm də müstəntiq Rəhimov kimi tiplərlə eyni mühitdə, eyni cəmiyyətdə, eyni dövranda yaşamağın ağrı-acısı, nigarançılığı üzür. "Başı qarnına işləyən", əyri yollarla mənsəb-rütbə, vəzifə alan müstəntiq Rəhimovun istintaq zamanı şillə-yumruğuna tuş gələn və bu halı ilə kefli İsgəndərdən də çarəsiz dəli Səfərin "deməliyəm ki, çox iyrənc məxluqlarsınız. Geydiyiniz geyimlər, yediyiniz yeməklər, yaşadığınız evlər, həyatınız..."la başlayan ittihamları- monoloqu, əslində, müəllifin müstəqilliyimizə ləkə gətirən, inkişafımıza zərər vuran Rəhimovlara qarşı etirazın özünəməxsus ifadəsidir.

Tanınmış yazıçı- publisist, ssenarist Orxan Fikrətoğlu xalq dilində danışan, xalq dilində yazan, xalqı da düşünməyə vadar edən qələm əhlidir. Anlatmaq onun ən böyük missiyası, anlada bilmək ən böyük məharətidir. Ədibin "Ulduz"da verilmiş " Tülu" povestinin məzmunu, ideyası onu deməyə əsas verir ki, bu, fikir və intellektual əsəridir, ictimai və şəxsi həyatda təcavüzə məruz qalan milli və bəşəri dəyərlərin, mənəvi, əxlaqi amillərin xilasına, ailədaxili və insanlararası münasibətlərin təmizliyinə, cəmiyyətdə ədalət ölçülərinin itirilməməsinə xidmət edən bir yazıçı töhfəsi, müəllif mövqeyinin bədii ifadəsidir. Əsərin ideya və sənət dəyəri, bədii məziyyətləri, süjeti, kompozisiyası, obrazları, onların həyat və düşüncə tərzi irihəcmli və sanballı yazı üçün orijinal faktlarla zəngindir. Vətəndaş- sənətkar Orxan Fikrətoğlu bu əsəri ilə də sözün gücünə inanaraq həmvətəninə müraciət edir: "Papağını qarşına qoy, yaxşı-yaxşı fikirləş, "zəlzələ" baş verəndə gec olur. Təmənnasız yaxşılıq elə, mürəbbə qazanına istiot tökmə, şər atma, yalan danışma, zorlama, öldürmə, haqsızlıq etmə, pis vərdişlərdən əl çək, narkotik alverinə qurşanma, mürtəce, mürtəd və əclaf olma! Bir sözlə, tövbə et, haqqa tapın, yenidən başla! "

Zeynəb Əliqızının "Ən yaxşı it", Tural Sahabın "Yağışlı bir sentyabr gecəsində", Mənsur MATT-ın "Utanc" hekayələri təhkiyənin təbiiliyi, kədərli tərzi, emosionallığı, eyni zamanda səmimiliyi ilə yadda qalır.

Görkəmli türk yazıçısı, filosof və tərcüməçi Cəmil Meriçin üzümüzə gələn il anadan olmasının 100 ili tamam olur. Təqdirəlayiqdir ki, bu əlamətdar hadisə münasibəti ilə "Ulduz" jurnalı Cəlal Bəydilinin "Əsrin vicdanı Cəmil Meriçin 100 illik yubileyinə" adlı yazısını və böyük qələm və zəka sahibinin kəlamlarını vermişdir.

Tərcümə. Oxucular jurnalın dekabr nömrəsində XX əsrin və modern Alman ədəbiyyatının ən parlaq simalarından Frans Kafkanın "Hibrid" (tərcümə edən Taleh Həmidoğlu), tanınmış rus yazıçısı Valentina Yerofeyevanın "Vüsal" (tərcümə edən Knyaz Qaçaq), Başqırdıstanın gənc və istedadlı yazıçısı Ayqiz Baymuxametovun "Getmə, ana" (tərcümə edən Aygün Yaşar) hekayələri ilə də tanış olmuşlar.

Ədəbiyyatşünaslıq. Müasir Azərbaycan ədəbi tənqidində öz imzasını təsdiq etmiş Əsəd Cahangir yeni il ərəfəsində Arzu Hüseyn, Elşad Ərşadoğlu, Hədiyyə Şəfaqət, Dilqəm Əhməd, Ruslan Dost Əli, Aqşin Evrən, Leyla Əliyeva, Akif Ulucay, Xatirə Nurgül, Feyziyyə, Fəridə Məmmədova, Emin Piri, Ramil Əhməd, Fərid Hüseyn, Alik Əlioğlu, Nicat Məmmədov, Aysel Novruz, Elnaz Eyvazlı, Rəqibə Nazimqızı, Sevinc Elsevər, Əvəz Qurbanlı, Aysel Əlizadə, Nilufər Şıxlı, Könül Arif kimi gənc nəsil yazarların timsalında çağdaş şeirimizin ümumi mənzərəsinə lakonik, eyni zamanda peşəkar, operativ və obyektiv (yəqin, bayramqabağı olduğundan bir qədər də səxavətlə) nəzər salmış, onların yaradıcılığını mövzu, sənətkarlıq baxımından təhlil etməyə, müasir tələblər nöqteyi-nəzərindən dəyərləndirməyə çalışmışdır. Tənqidçi çağdaş şeirimizin nümayəndələrindən və nümunələrindən söz açarkən klassik poeziyanın yaradıcılarının irsi ilə paralellər aparır, nəsillərarası əlaqələrə, ənənələrə toxunur, ortaq və fərqli məqamlarla bağlı maraqlı mülahizələr irəli sürür.

Şair, tədqiqatçı Namiq Hacıheydərlinin qənaətinə görə "Əski türkün ... həyatının və yaradıcılığının elə bir tərəfi yoxdur ki, orada "at" sözü keçməsin" ("Əski türkün yaşamında və dünyagörüşündə at"). Müəllif fikirlərini türk xalqlarının yazılı və şifahi ədəbi nümunələrindən tutarlı misallar gətirməklə əsaslandırır.

Jurnalistika. Gənclik jurnalında əlamətdar günlərlə, tarixi hadisələrlə bağlı materialların dərc edilməsi müsbət haldır. Hər il noyabrın 6-da ölkəmizdə qeyd olunan "Azərbaycan televiziyası və radiosu günü" münasibəti ilə jurnalist Hicran Hüseynovanın "Mənim radiom" adlı məqaləsi və radio sahəsində xidməti olan insanların - Əməkdar jurnalist Gülbəniz Hüseynlinin, tanınmış radio jurnalistləri Aybəniz Məmmədəliyevanın, Təranə Vahidin, İntiqam Mehdizadənin və "Qobustan" jurnalının baş redaktoru Vaqif Əlixanlının ürək sözləri təsirli, mənalı və maraqlıdır. Azərbaycan radiosunu bənzərsiz yaradıcılıq məkanına bənzədən Gülbəniz xanım mədəniyyətimizin səs salnaməsinin yaradılmasında iştirakından qürur duyduğunu haqlı olaraq fəxrlə deyir. Həyatının 30 ilini Azərbaycan radiosuna həsr edən Aybəniz xanım radionu maarifçilik missiyasını yerinə yetirən müqəddəs məkan adlandırır. Təranə xanım əmindir ki, söz özünü heç yerdə radiodakı kimi rahat hiss etmir. İntiqam Mehdizadə: " Qızıl fonda düşmüş 300-dən çox hazır, istənilən vaxt efirdə səslənə biləcək verilişimizin lent yazıları qorunur ki, mən onları öz övladlarım qədər sevir, əzizləyirəm". Bu isə Vaqif Əlixanlının qəlbinin pıçıltılarıdır: "90 yaşlı Radio - öz taleyimi, ömürlüyümü etibar etdiyim həyatım qədər əziz insan deməkdir".

Bədii tərtibat, dizayn, rəssam işi və illüstrasiyalar. Bu cəhətləri ilə də indiki tələblərə tam cavab verən "Ulduz" öz ünvanına ən xoş sözləri haqq edir.

Bütün deyilənləri yekunlaşdıraraq bildirirəm ki, jurnaldakı materialların əksəriyyəti ideya-məzmun baxımından sanballı və zəngin, dil-üslub, sənətkarlıq nöqteyi-nəzərindən qənaətbəxş, janr cəhətdən rəngarəng, coğrafi yöndən əhatəlidir. Və fürsətdən istifadə edib, dərginin 50 yaşı münasibəti ilə bütün əməkdaşları ürəkdən təbrik edir və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

ÖZÜMLƏ SÖHBƏTİN MÜMKÜNSÜZLÜYÜ

(esse)

İkinci MAHMUD

Dekabrın çovğunlu bir bazar günü - rəhmətlik babam belə günlərdə əlini əlinə sürtüb deyərdi: "Eşik qar, içəri dar..." - kimçünsə, nə üçünsə yamanca darıxdığımı hiss edirəm. Düşünürəm: yəqin ki, darıxmaqlarn ən dəhşətlisi tanımadığın, bilmədiyin, heç vaxt üzünü görmədiyin, ola bilsin ki, ümumiyyətlə, hələ dünyaya gəlməmiş, bəlkə də, heç vaxt dünyaya gəlməyəcək bir adamçün və ya heç vaxt getmədiyin, heç vaxt getməyəcəyin, ola bilsin ki, ümumiyyətlə, mövcud olmayan yerçün darıxmaqdı.

Kimsə deyirdi: "Yağmurlu bir bazar günü günortadan sonra nə edəcəyinə qərar verə bilməyən insan oğlu hələ bir də əbədi həyat arzusundadır..."

Bizim - sosial şəbəkələr erası sakinlərinin işi, doğrudan da, çox çətindir. Görəsən, nə günah işləmişdik ki, harda, nəyi səhv etmişdik ki, Yaradan bizi 5000 (!) dostla cəzalandırır...

Ünsiyyət imkanı artıqca ünsiyyət imkanı azalır...

Seçim imkanı artdıqca seçim imkanı azalır...

Əslində, məsələni lap kökündən bu cür də həll etmək olardı: nəsə artdıqca nəsə azalır...

Acınacaqlı həqiqət bundan ibarətdir ki, Tanrının "Ol!" nidasından Tanrının "Öl!" nidasınadək hər şeyin çəkisi dəyişməz olaraq qalmaqda: sevincin də, kədərin də, sevginin də, nifrətin də, varlığın da, yoxluğun da... Gəlin yoxlayaq: varlıq azaldıqca yoxluq çoxalır və ya əksinə, yoxluq azaldıqca varlıq çoxalır. Demək, hər şey düz gəlir.

Qoxudan və daddan məhrum virtual aləmdən - yalançı dünyadan geri dönürəm. Dekabrın çovğunlu bir bazan günüdür və mən kimçünsə, nəyçünsə yamanca darıxıram.

Nəhayət, bütün cəsarətimi toplayıb özümlə söhbət etmək qərarına gəlirəm. Yəqin ki, bu fani dünyada insana onun özündən daha yaxın bir həmdəm yoxdur və məhz ona görə də biz bütün tanışların içindən özümüzə ən çox bənzəyən adamla dostluq edirik...

İnsanın özünə insanın özündən daha çox kim bənzəyə bilər ki?!

...Özümlə söhbətin mümkünsüzlüyünü anlayanadək xeyli vaxt və enerji sərf etməli oluram – yazıram, pozuram, yazıram, pozuram, yazıram, pozuram və nəhayət, başa düşürəm ki, əslində, bütün söhbətlər ikitərəfli monoloqdan başqa bir şey deyil. Adamlar görüşürlər, üzə-üzə otururlar və hərə öz monoloqunu söyləyib gedir...

* * *

Bəli, biz özümüzə daha çox bənzəyən adamla dostluq edirik.

Biz özümüzə daha çox bənzəyən adamları daha çox sevirik. Biz özümüzə daha az bənzəyən adamlara daha çox nifrət edirik...

Pişik siçanı qovur - tutsa, yeyəcək. Siçanlar pişiklərin qidasıdır. Təbiət belə buyurub.

İt isə pişiyi qovur - tutsa, yeyəcəkmi? Yeməyəcək. Bəs it pişiyi niyə qovur?

Bəzən absurd situasiyalar qururam beynimdə. Məsələn, görəsən, hansısa ilahı təsadüf (ilahi təsadüf?!) nəticəsində Afrika aborigenləri qaradərili olmasaydılar, taleləri belə faciəli olardımı? Yəni mənə elə gəlir ki, istismar edənlə istismar olunan arasındakı zahiri bənzərlik nə qədər çox olsa, istismar prosesi bir o qədər yumşaq olacaq.

Amma, görəsən, zalimlə məzlum bir-birinə bənzəyə bilərmi heç?!

Hər qövm öz allahına bənzəyir: allah qəzəblidirsə, bəndəsi də qəzəblidir, allah mehribandırsa, bəndəsi də mehribandır, allah nəyi sevirsə, bəndəsi də o şeyi sevir, allah nəyi sevmirsə, bəndəsi də o şeyi sevmir.

İşə bir bax ki, Cənub-şərqi Asiya bütlərinin gözü qıyıqdır, özləri kimi. Tanrı zahirən də bəndəsinə bənzəməkdə.

Bütpərəst Afrika qəbilələri də öz allahlarını qaradərili təsəvvür edirlər - Afrika bütləri qaradərilidir.

Əlbət ki, Adolf Hitlerin allahı Oskar Şindlerin allahına bənzəməz.

İsanın qövmü Məhəmmədin qövmünə bənzəmədiyi kimi, İsanın Allahı da Məhəmmədin Allahına bənzəməz; İsanın Allahı İsanın özünə, Məhəmmədin Allahı da Məhəmmədin özünə bənzəyər... Musa da yalnız öz Allahı ilə qurşaq tutub güləşə bilər.

"Kim məsumdursa, qoy birinci daşı o atsın!" - demişdi İsa və İsa da yaxşı bilirdi ki, birinci daşı atmağa mənəvi haqqı çatanlar heç vaxt, heç vaxt, heç vaxt heç kimə daş atmazlar... İsanın bütün fəlsəfəsi məhz bunda idi.

Məhəmməd bütləri təpikləyə-təpikləyə deyirdi: "Bir düşünün, bəlkə, ata-babalarımız səhv ediblər..." Məhəməddin də bütün fəlsəfəsi bunda idi.

* * *

Atı atın yanına bağlayanda həmrəng olmasa da, həmxasiyyət olar - qədim hikmətdir. Sən get-gedə yüz minlərlə nüsxədən birinə çevirilirsən, bütün həyatın, yaşantıların adicə statistikadan başqa bir şey ifadə edə bilməməyə başlayır...

Pişik siçanı həmişə qovacaq. Siçanları pişiklərin qidasıdır.

Amma it pişiyi həmişə qovmayacaq. Get-gedə pişik itə bənzəməyə başlayacaq və nəhayət, itlə pişik arasında radikal fərqlər aradan qalxanda onlar dostlaşacaqlar. Artıq 70 ildir ki, Avropada müharibə yoxdur, 70 ildir ki, Avropada itlə pişik dostluq edir.

Görəsən, insanların bir-birinə bənzəməsində ədəbiyyatın, geniş mənada sənətin, lap geniş mənada, mədəniyyətin rolu nədən ibarətdir... Bu suala cavab vermək həm də "Ədəbiyyat nə işə yarayır?" sualına cavab verməkdir...

Paradoksdan qaçmaq mümkün deyil: ədəbiyyat həm də insanları bir-birinə bənzəməkdən, daha doğrusu, yüz minlərlə nüsxədən birinə çevrilməkdən xilas edir.

* * *

Bəs mən niyə yazıram? - fərz edək ki, durduq yerə özümə belə bir təhlükəli sual verəsi oldum.

İçimdəki yazmaq-pozmaq (pozmaq yazmağın ən vacib elementlərindən biridir!) ehtirasının bircə qaynağı var: həyatı, həyat hadisələrini, doğma və yad yaşantıları, situasiya və insanları anlamaq, bütün bunların çılpaq halını görmək istəyi.

Bu istək də özü-özlüyündə daha mənasız şeyə xidmət edir: həyatın adicə illüziya olması ilə bağlı ehtimallarıma haqq qazandırmaq, isbat etmək, özümçün isbat etmək.

İndi - 30 yaşımda, hətta dekabrın çovğunlu bir bazar günü, günortadan sonra kimçünsə, nəyçünsə yamanca darıxdığımı hiss edərkən belə həyat mənə çox maraqlı və şirin, ölümsə çox qorxunc və arzuolmunmaz gəlir. Görünür, bütün məqsəd bu balansı dəyişməkdən ibarətdir.

Hər şey bu qədər sadədir...

“BƏKİR KOMPLEKSİ”

(hekayə)

“Həqiqətən, Allah insanlara zərrəcə zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər!” (“Yunis”, 44)

-1-

Bəkir, avtobus tərpənəndən arxa oturacağa qısılıb burnunu buxar bağlamış soyuq şüşəyə necə söykəmişdisə, bütün yol boyu da bax eləcənə, get-gedə böyüyən, qəbir daşları kimi cansız meqapolis göydələnlərinə tamaşa edə-edə, bir Allah bilir, nə qədər qarmaqarışıq fikir keçirmişdi beynindən. Şirkətin xidməti avtobusu hava qaralana yaxın şəhərə yetimişdi; işçiləri birbəbir düşürə-düşürə şəhəri dolanmış, əvvəlcə mühəndislərin, sonra fəhlələrin evlərinin yanında dayanmışdı və nəhayət, küçə işıqları şəhəri gecənin qaranlığından xilas edib qurtaranda bu xəstəxananın qabağına çatmışdı.

- Məllim, yenə burda düşəcəksiz, - soruşmuşdu sürücü, - yoxsa evə sürüm? - amma heç cavab da gözləmədən avtobsusu düz xəstəxananın qabağındaca saxlamışdı, sonra damağına bir siqaret qoyub güzgüdən Bəkiri seyr eləməyə başlamışdı.

-2-

Həmişə olduğu kimi, bu gün də Bəkirin canında qəribə bir narahatlıq vardı, bu nə narahatlıq idi, heç özü də baş açmırdı. Kim bilir, bəlkə də, qəlbinin dərinliklərində - lap, lap, lap dərinliklərində - bu narahatlığın səbəbini çox yaxşı bilirdi Bəkir, amma bir Allah bəndəsinə, heç özünə də etiraf eləməyə ürəyi gəlmirdi. Əvvəllər hər axşam işdən evə qayıdanbaş - Bəkir onda neftayırma zavodunun sıravi işçisi idi - həmin bu narahatlıq taxta bitiləri kimi canına daraşardı. Taxta bitilərinə ta uşaqlıqdan bələd idi Bəkir - kənddəki akasiya ağaclarından tikilmiş kasıb komalarını heç unutmamışdı. Hər axşam işdən evə qayıdanbaş taxta bitiləri kimi canına daraşan həmin bu narahatlıq da, tərs kimi, yenidən uşaqlığını yadına salardı. “O şeyi ki, unutmağa çalışırsan, deməli, o şeyi heç vaxt unuda bilməyəcəksən!” - deyərdi Bəkir.

Bu narahatlıqdan qurtulmaqçün hər şeyə razı idi. Bəlkə, məhz ona görə də düz iki il bundan qabaq dənizdəki neft buruğunda bir həftəlik növbə ilə işləmək məsələsi qalxanda canla-başla razı olmuşdu, Zəki müəllimin sözünü yerə salmamışdı; düşünmüşdü ki, hər axşam evə qayıtmaqdansa həftədə bir dəfə evə qayıtmaq daha yaxşıdır...

Hə, ağsaqqal, - nəhayət, Bəkir dilləndi - burda düşəcəm..

Hər dəfə bir həftəlik növbədən evə qayıdanda burda - bu xəstəxananın qabağındaca düşər, o saat da telefonunu çıxarıb evə zəng edərdi. Bəzən saatlarla ev telefonu cavab verməzdi, Bəkir də xəstəxanın geniş həyətinda sakitcə o baş- bu başa gəzişər, nəhayət, Uğur telefona cavab verəndə heç nə olmamış kimi soruşardı:

- Çatmışam, - deyərdi - evə qalxıram, nəsə lazımdı? - Nədənsə Bəkir həmişə “çatmışam” sözünü xüsusi vurğulayardı.

- Gəl, gəl, kişim, - Uğur da həmişə eyni cürə cavab verərdi - heç nə lazım deyil, bircə özün gəl!

Bəzən Bəkir bu “kişim” sözündə nəsə gizli, özgə bir məna sezərdi, amma tez də bu düşüncəni uşaqlıqdakı kimi - axşamlar qulağının dibində vız-vız vızıldayan sırtıq milçəkləri qovantək - qovardı beynindən. Uğurun cavabını eşitcək, nəhayət, canındakı o narahatlıq da yoxa çıxardı. Elə ki canındakı narahatlıq yoxa çıxdı, Bəkir evə tələsərdi. Bəzən heç özü də ayırd edə bilmirdi, niyə evə tələsir, Uğurçünmü daha çox darıxıb, yoxsa Fira üçünmü? Amma qapıdan içəri girən kimi tələm-tələsik Uğurla salamlaşıb özünü düz Firanın yanına verərdi; ovcuna alıb əzizləyərdi, burnunu burnuna tutub oxşayardı, tumarlardı, öpüb yerinə qoyardı. Bütün bunlardan sonra, nəhayət, Uğur süfrə açmağa məşğul olardı.

Həmin o sazaqlı payız axşamı da hər şey bax beləcənə olmuşdu: Bəkir xəstəxananın həyətində bir müddət o baş - bu başa var-gəl etdikdən sonra evin yolunu tutmuşdu. Qapıdan girər-girməz Firanı xəbər almışdı, amma heç Uğurun cavabını gözləmədən, tələm-tələsik cummuşdu qonaq otağına, sevimli tutuquşusunu doyunca sevib-əzizləyəndən sonra süfrə arxasına keçmişdi. Bir gözü Firanın, o biri gözü Uğurun üzündə iştahla girişmişdi yarpaq dolmasına. “Bizim arvadın yarpaq dolmasını - deyərdi Bəkir - ölünün ağzına töksən, dirilər..”

-3-

Düz on il bundan qabaq, Bəkir neftayırma zavodunda adıcə işçi olanda sevmişdi Uğuru - Uğur onda Zəki müəllimin katibəsiydi. Uzun zaman ürəyində gizli sevgi bəsləmişdi, amma dərdini bir kimsəyə açamamışdı. Əlinin qabarını, üstünün kirini, biləyinin xəmirçəyini bu nazlı-qəmzəli, dünya gözəli şəhər qızına yaraşdırmamışdı, qabağına çıxmağa cürəti çatmamışdı. Fəhlələrin pıçhapıçına, süpürgəçi Adilə xalanın qeybətlərinə də bir o qədər də fikir verməmişdi Bəkir. Guya Uğuru Zəki müəllimin boynunu ovuşduranda görüblər; guya kimsə Uğuru Zəki müəllimin qucağında görüb; guya kimsə Uğuru Zəki müəllimin villasından çıxan yerdə görüb; guya süpürgəçi Adilə öz qulaqları ilə eşidibmiş hər şeyi, guya ki, Uğur Zəki müəllimin yaxasından yapışıb: “Sən arvadından qorxursan, bəs mənin günahın nədi?” - deyib hönkür-hönkür ağlayırmış, guya Zəki müəllim də başını aşağı salıb dimməzcə dayanıbmış... Əlbəttə, Bəkir bu ara söhbətlərinə inanmamışdı. “İtin ağzı ətə çatmayanda adını iylənmiş qoyar” - demişdi öz-özünə.

Və günlərin bir günü Zəki müəllim Bəkiri kabinetinə çağırıb, təxminən, iki saat nala-mıxa vurandan sonra:

- Bacoğlu, səni özüm evləndirəcəm... Qızı da özüm tapacam... - demişdi, sonra da guya fikrə gedib və bir müddət sonra guya fikirdən ayılıb əlavə eləmişdi - Gör nə deyirəm, bu bizim Uğur da yaxşı qızdı ha! Yetim qızdı, yola gedərsiz... Evi də var...

Əlbəttə, Bəkir Zəki müəllimin - bu xeyirxah qohumun sözünü yerə sala bilməzdi. Zəki müəllim onu akasiya ağaclarından tikilmiş birəli komadan xilas etmişdi, kəndin palçığından çəkib çıxarmışdı, yanında işə qoymuşdu, lazım olanda cibinə pul basmışdı, lazım olanda fəhlələrin arasından çağırtdırıb maşınını yumağı tapşırmışdı, sonra kabinetində mürəbbəli çay süzmüşdü, bir sözlə, əsl dayılıq eləmişdi. Lap Bəkir Uğuru sevməsəydi də, Zəki müəllimə yox deyə bilməzdi, amma indi xoşbəxtlikdən iş elə gətirmişdi ki, Bəkir Uğuru sevirdi, özü də çox sevirdi. O gün Zəki müəllim onu kabinetinə çağırıb təxminən iki saat nala-mıxa vurandan sonra “Uğuru sənə alacam” deyəndə içində yamanca sevincək olmuşdu, amma yenə də özünü sındırmamışdı:

- Dayı, - demişdi - sən nə desən, mənimçün qanundu! - Zəki müəllim də Bəkirin cavabını eşitcək dərindən bir “oh” eləmişdi, elə həmin axşam Uğurla Bəkiri maşınına mindirib restorana aparmışdı, dünyanın naz-nemətini süfrəyə düzdürmüşdü, məclisin qızğın yerində guya birdən yadına düşmüşdü ki, bu axşam vacib bir görüşü var, tez-tələsik hesabı artıqlamasıyla ödəyib getmişdi.

Toydan sonra Bəkir şələ-süləsini yığıb köçmüşdü Uğurun evinə. Azdan az, çoxdan çox tapıb dolanmağa başlamışdılar. Zəki müəllim də gözünü çəkməmişdi üstlərindən: tez-tez qoltuğuna bir rus arağı vurub qonaq gələrdi Bəkirgilə, əvvəlcə Bəkir Zəki müəllimlə badə toqquşdurmağa çəkinərdi, arada pərdə saxlayardı, elə ki, Zəki müəllim “Bacoğlu, qorxma, vur getsin, sabah işə gəlməzsən, dayın ölməyib ki!” deyərdi, Bəkir ürəklənərdi. Amma ürəyinin dərinliklərində - lap, lap, lap dərinliklərində - Zəki mülləmin tez-tez qoltuğuna araq vurub qonaq gəlməyinə bir az əsəbiləşən kimi olardı. Bəzən ağlına xoş olmayan fikirlər gələrdi, amma tez də bu fikirləri uşaqlıqdakı kimi - axşamlar qulağının dibində vız-vız vızıldayan sırtıq milçəkləri qovantək qovardı beynindən.

-4-

Hər şeyin gözlədiyi kimi olmayacağını Bəkir elə toy axşamıca anlamışdı: nə illah eləmişdisə, Uğura yaxın düşə bilməmişdi. Gah yumşaq danışmışdı, dilə tutmuşdu, gah guya qəlbinin qırıldığını göstərməkçün çarpayının ayağında dinməzcə oturmuşdu, gah da guya əsəbdən yumruğunu divara çırpmışdı, amma bütün bu hoqqaların heç biri işə yaramamışdı: Uğur dediyindən dönməmişdi ki dönməmişdi. “Aybaşıyam, - demişdi - get, o xalana de ki,

boş yerə gözləməsin!" Amma Bəkir bir kimsəyə bir söz deməmişdi, eləcə suyu süzülə-süzülə gedib divana sərilmişdi, bəylik kostyumu da əynindəcə yatıb qalmışdı divanda...

Beş - altı gün sonra Uğurun ürəyi yumşalmışdı, gecənin bir yarısı Bəkiri səsləmişdi. "Şkafın dalından şıqqıltı gəlir, - demişdi - gəl, gör bu nə şıqqıltıdı?" Amma o gecə də Bəkir muradına çata bilməmişdi: şkafı divardan aralayıb dalına guya yaxşıca-yaxşıca baxmışdı, - Uğur da, Bəkir də yaxşı bilirdi ki, şkafın dalından şıqqıltı gəlmir - sonra şkafı yerinə itələyib belini tutmuşdu, Uğurun dümağ baldırlarına tamarzı-tamarzı baxa-baxa: "Divanda yatmaqdan belim qurudu" - dodağının altında mızıldanmışdı. Sonra da siçan qapmağa hazırlaşan pişik kimi sinə-sinə Uğurun yanına yanaşmışdı. "Tər iyi verirsən, - demişdi Uğur, amma bir az yumşaq demişdi - get, çim gəl." Bəkir cummuşdu hamama, di gəl ki, qayıdanbaş Uğuru yatan görmüşdü. Həmin gecə Uğurun şirin yuxusuna haram qatmaqdan qorxa-qorxa yorğanı qaldırıb altına girmişdi, amma səhərəcən gözünə yuxu getməmişdi. Ağlına xoş olmayan fikirlər gəlmişdi, amma tez də bu axmaq fikirləri uşaqlıqdakı kimi - axşamlar qulağının dibində vız-vızıldayan sırtıq milçəkləri qovantək – qovmuşdu beynindən...

Və nəhayət, günlərin bir günü arzusuna çatmışdı: Uğur dümağ baldırlarına, şiş məmələrinə qonaq etmişdi Bəkiri. Bəkir onda birdəfəlik başa düşmüşdü ki, Uğurun dümağ baldırlarına, şiş məmələrinə qonaq olmaq onun istəyindən yox, arvadının lütfündən asılıdır. Elə ki, Uğur aybaşı bezlərini yataq otağındakı güzgünün qabağına düzdü, Bəkir başa düşürdü ki, gözləmək lazımdı, ta o vaxta qədər ki, aybaşı bezləri güzgünün qabağından yığışsın. Amma nədənsə Uğurun aybaşı bezləri güzgünün qabağından heç əskik olmazdı.

Bəzən Bəkir bu işdə nəsə xoş olmayan bir məna duyardı, amma tez də bütün xoş olmayan mənaları beynindən uzaqlaşdırardı. Uğuru anlamağa çalışardı, gecələr yuxusu ərşə çəkiləndə və ya işdə, nahar vaxtı yeməkdən sonra bir kənara çəkilib siqaret tüstülədəndə, yaxud da bu həmin o sazaqlı payız günü olduğu kimi, bir həftəlik növbədən evə qayıdarkən burnunu buxar bağlamış soyuq şüşələrə söykəyib get-gedə böyüyən, qəbir



daşları kimi cansız meqapolis göydələnlərini seyr edəndə qara-qara düşüncələrə dalardı və hər dəfə də Uğur qalib çıxırdı bu xəyali mübahisədən. "Uğurda günah yoxdu, - deyərdi ürəyində - mən əli qabarlı, üstü kirli, biləyi xəmirçəkli bir kəndli babayam, oturub-durub Allahıma şükür etməliyəm ki, mənə ərə gəlib! - Bəkir bunları lap ürəkdən deyirdi - Hələ üstəlik, özüm də bilirəm ki, sonsuzam... Uşaq verə bilmirəm Uğura..."

-5-

Görünür, Bəkirin Firaya belə qeyri-adi və çoxları üçün anlaşılmaz bir sevgi ilə - ata sevgisinə yaxın bir sevgi ilə bağlanmasının da sirri məhz bunda idi - ata olmaq arzusunda. Belə baxanda, Fira adicə tutuquşu idi - başqa tutuquşulardan heç fərqlənmirdi də. Düzünə qalsa, Bəkir hər bir həftəlik növbədən sonra evə qayıdarkən, xəstəxananın həyətində bir müddət gəzişdikdən sonra, Uğur "Gəl, gəl, kişim" deyən kimi evə niyə tələsməyini və Uğurçünmü, yoxsa Fira üçünmü daha çox darıxdığını öz içində lap yaxşı ayırd edə bilirdi. Hələ iki il bundan qabaq o balaca ətcəbalanı evə gətirəndə hiss etmişdi ki, bu tutuquşu onların evini öz hənirtisilə isidəcək. Doğrudan da, hər şey Bəkir düşündüyü kimi olmuşdu: Uğur da meylini salmışdı bu quşa, bir az yumşalmışdı, sanki içindəki analıq hissləri baş qaldırmışdı.

Get-gedə daha da dərinləşmişdi bu sevgi və get-gedə Bəkirin ata olmaq istəyi də öləziməyə başlamışdı. Hələ o vaxt - iki il bundan qabaq Bəkir bu ətcəbalanı alıb evə gətirən axşamı nə qədər baş sındırmışdısa da, bir layiqli ad tapa bilməmişdi tutuquşusuna. Uğur da zarafatla - bəlkə də, gizli bir kinayə ilə - demişdi ki, çox da baş sındırma, rəhmətlik ananın adını qoy getsin. Amma Bəkir bu dəfə Uğurun sözündə heç bir xoş olmayan məna sezməmişdi. Heç düşünmədən anası Firəngiz qarının adını vermişdi tutuquşusuna. Hələ evlənməmişdən qabaq - Zəki müəllim onları maşınına mindirib restorana aparanda və guya birdən yadına nəsə vacib bir işi düşdüyü üçün yarımçıq çıxıb getdikdən sonra xeyli yarıgizli-yarıaçıq söhbət etmişdilər, elə onda Bəkir utana-utana, qorxa-qorxa demişdi ki, qızım olsa, anamın adını qoyacam. Görünür, bu söhbət Uğurun yadında yaxşı qalmışdı.

Amma get-gedə Uğurun həvəsi ölmüşdü Firaya, bəzən günlərlə qabağına su qoymaq, altının kağızını dəyişmək yadından çıxardı və bu da Bəkiri yaman narahat edərdi. Hər dəfə bir həftəlik növbəyə yollananda Firaya yaxşı baxmağı bərk-bərk tapşırardı.

Bu iki ildə Bəkir tutuquşular haqqında xeyli kitab oxumuşdu - 33 illik həyatında heç bu qədər kitab ağzı açmamışdı. Firanın dimdiyinin rəngindən, tüklərinin bitimindən onu anlamağa başlamışdı. Evdə olduğu bütün bir həftəni Firaya sərf edərdi - saatlarla qabağına qoyub danışmağı öyrədərdi. Amma nə illah edirdisə, Fira ağzını açıb bir kəlmə söz demirdi ki demirdi. Bəlkə də, indi bu işıqlı dünyada Bəkirin ən böyük arzusu Firanın danışmağını görmək idi – bunu Uğur da hiss etmişdi.

-6-

- Zəkiii... Zəkiii... Zəkiii... - həmin o sazaqlı payız axşamı Bəkir boşqabdakı sonuncu dolmanı ağzına qoyub ləzzətlə çeynəməyə hazırlaşırdı ki, Fira danışmağa başladı.

Loxma Bəkirin boğazında düyünləndi, bir xeyli müddət eləcənə donub qaldı, sonra özünü toxdaq tutmağa çalışdı, amma nə illah elədisə, tikə boğzından keçmədi və nəhayət, özüylə mübarizədən yorulub loxmanı aldığı kimi də qaytarıb yerinə qoydu - yaxşı ki, Uğur bu mənzərəni görmədi. Gəlib düz qəfəsin yanında dayandı - Uğur onda mətbəxtdə idi. Bir müddət beləcənə durdu. Firadan səs çıxmadı. Hətta bir anlıq Bəkirə elə gəldi ki, qulağı səsə düşüb. Baxmayaraq ki, Firanın dil açıb danışamağını çox arzulayırdı, amma nədənsə indi - ona elə gələndə ki, qulağı səsə düşüb, içində qəribə bir yüngüllük hiss etdi. Üzündə qeyri-ixtiyarı təbəssüm yarandı, başını bulaya-bulaya geri çevrildi ki, yerinə qayıtsın.

- Zəkiii... Zəkiii... Zəkiii - bu dəfə Fira daha bərkdən bağırmağa başladı, Bəkir yenidən çevrilib qəfəsin qabağında dayandı - Zəkiii... Zəkiii.. Zəkiii... - Fira Uğur qonaq otağına daxil olanadək bağırmağa davam etdi.

- Eşitdin?! - Bəkir qorxa-qorxa, ehtiyatla Uğurdan soruşdu - danışdı..

- Nəyi eşitdim? - Uğur həmişə olduğu kimi Bəkirin sualına sakit və bir az da laqeydliklə cavab verdi - Nə danışırsan sən?

- Necə yəni nəyi? Firanı deyirəm də! - Bəkir bu on ildə ilk dəfə səs tonunu qaldırdı.

- Yox, mən heç nə eşitmədim... - Uğur sakitliyini pozmadı - Sənin sevimli quşun danışan-zad deyil, əlini üz! - deyib yenidən mətbəxə qayıtdı.

- Zəkiii... Zəkii... Zəkiii - Fira yenidən bayaqkıtək bağırmağa başladı - Zəkiii... Zəkiii... Zəkiii... - Bəkir onun səsində nəsə gizli bir kinayə hiss elədi və bu dəfə nə qədər etdisə də, beynindən keçən şübhələri uşaqlıqdaki kimi - axşamlar qulağının dibində vız-vız vızıldayan sırtıq milçəkləri qovantək qovammadı - Zəkii... Zəkii... Zəkiii... - tutuquşu Uğur yenidən qonaq otağına qayıdanadək bax beləcə dayanmadan bağırdı...

...Həmin o sazaqlı payız gecəsi Uğur ərini inandırmağa çalışdı ki, heç bir səs yoxdur, sadəcə Bəkirin qulağı səsə düşüb. Düzünə qalsa, elə Bəkirin özü də buna inanmağı çox istərdi, odur ki, gecə saat 12-ni keçəndə yataq otağına yollandı - aybaşı bezləri həmişəki kimi güzgünün qabağında idi. O gecə nə illah elədisə, Bəkirin gözünə yuxu getmədi. Üstəlik, hər dəfə qonaq otağından Firanın səsi gəldikcə yuxusu bir az da ərşə çəkildi. Evdəki bütün işıqları söndürdü, hamam dəsmalını qəfəsin üstünə sərdi, amma Fira səsini kəsmədi ki kəsmədi. Əli hər şeydən üzüləndə qəfəsin qabağında dayanıb uşaq kimi yalvarmağa başladı Firaya: "Qurban olum, - dedi - kəs səsini! Məni dəli etmək istəyirsən?! Heç olmasa, başqa söz de, - dedi - mənə yazığın gəlsin! - dedi."

-7-

Həmin o sazaqlı payız axşamının səhəri hava işıqlaşar-işıqlaşmaz Bəkir evdən çıxdı, - onda Uğur hələ də yatırdı - Firanın səsindən mümkün qədər tez qurtulmaqçün ayaqqabılarını tərs-düz ayağına keçirib özünü küçəyə saldı, yolu keçib dayanacaqda oturdu, əyilib ayaqqabılarının ipini bağlaya-bağlaya axşam olanları ayıq başla yenidən götür-qoy etməyə başladı. Düşündükcə xoş olmayan fikirlər beyninə hücum çəkdi, amma nə illah elədisə də, bu xoş olmayan fikirlərdən yaxa qurtara bilmədi... Küçənin o başındakı xaşxanaya verdi özünü, sonra bazarda dolaşdı bir müddət - axşamadək özünə müxtəlif məşğulliyyət axtarıb tapmağa çalışdı, amma hara getdisə də, Firanın səsi gəldi qulağına.

...Hər dəfə Firanın səsi qulağına gələndə Bəkirin içindəki sübhələr bir az da böyüdü, şübhələr böyüyüb qorxuya çevrildi, qorxu da böyüyüb-böyüyüb nifrətə döndü və hər dəfə Bəkirin içindəki şübhə büyüyüb-böyüyüb niftərə çevriləndə mətbəxdəki ət baltası gəlib durdu gözünün qabağında...

Bəkir gecənin bir yarısı içindəki nifrətlə birgə evə qayıtdı. Zəki müəllimin maşını binanın qabağında idi. Həmişə olduğu kimi, telefonunu çıxarıb evə zəng etmək istədi, amma telefonu yox idi cibində. Bir xeyli binanın qabağında dayanıb Zəki müəllimin getməyini gözlədi. Zəki müəlliminsə, deyəsən, getmək fikri yox idi. Onda Bəkir, nəhayət, bütün kişiliyini toplayıb evə qalxmaq qərarına gəldi. Qapının ağzına çatıb dayandı, ona elə gəldi ki, bütün gələcək həyatı indi bu qapıdan içəri girib-girməməyindən asılıdır. Amma qəlbinin dərinliklərində - lap, lap, lap dərinlikdəlində - anlayırdı ki, indi bu qapıdan içəri girməklə həm də bu on illik narahatlığına son qoya bilər. Nəhayət, Bəkir içəri girməyə qərar verdi, amma tələsmədi, zəngi basıb dayandı. Qapının o tayından ayaq səsləri eşidildi, Uğur qapını açdı. Gözləri qıpqırımızı idi - deyəsən, çox ağlamışdı. Koridorun o başından Zəki müəllim göründü. Üçü də susmuşdu. Bəkir sakitcə gəlib divanda oturdu.

- Hardaydın, oğul?! - Zəki müəllim əsəbi idi - Yekə adamsan, adam belə iş tutar?! - mümkün qədər sakit danışmağa çalışdı - səhərdən bəri o yer qalmayıb ki, zəng etməyək! Telefonu da qoyub getmisən...

- Yuxum gəlir... - Bəkir bircə bunu deyə bildi, özü də çox sakitcə dedi.

Zəki müəllim əvvəlcə nəsə demək istədi, sonra fikrindən daşındı. Pencəyini götürüb qapıya getdi... Uğur qapını bağlayıb yataq otağına yollandı.

- Zəkiii... Zəkiii... Zəkiii... - Fira yenidən bağırmağa başladı.

-8-

Səhər o başdan Bəkir ət baltasını da götürüb evdən çıxdı - Uğur onda oyanmışdı. Birbaş bazara yollandı. Baltanı yaxşıca itilətdi. Sonra ucuz kafelərin birinə girib iki şiş kabab və bir litr araq sifariş etdi. Ət baltasını masanın üstünə qoyub sakitcə sifarişini gözləməyə başladı...

Araq şüşəsi dibinə enəndə günortaya bir şey qalmamışdı. Bəkir sonuncu badəni başına çəkib ayağa durdu. Cibindəki bütün pulları masanın üstünə səpələyib baltanı götürdü. Birdən ağlına nə yerləşdisə, gəlib düz kafenin ortasında dayandı:

- Zəkiii... Zəkiii... Zəkiii! - bağırmağa başladı - Hamınız peysərsiz! - baltanı havada yellədi - Hamınızın arvadı q...ədi! - səndələyib yıxıldı, amma baltanı əlindən buraxmadı, əksinə bərk-bərk qucaqladı. Sonra sürünə-sürünə qapıya tərəf getdi. Bəkirin xata-bəlasız qapıdan çıxdığına əmin olandan sonra hamı öz yerində oturdu...

-9-

Uğur qapını açanda Bəkiri - on illik ərini tanıya bilmədi, sanki indi onun qabağında başqa bir adam dayanmışdı, bu on ildə ilk dəfə idi ki, ərini bu cür dik və qətiyyətli - arağın təsirindən ayaq üstə zorla dursa da - görürdü. Hətta bir anlıq içində xoş bir həyəcan da hiss etdi - bu, həyəcan idi, ehtiras idi, hər nə idisə, Uğurun çox xoşuna gəldi.

Bəkir kirimişcə gəlib divanda əyləşdi, baltanı sakitcə yanına qoydu. Firaya tamaşa etməyə başladı. Uğur da bir müddət eləcənə susdu, nəsə deməyə cürət etmədi və nəhayət, uzun sükutdan sonra qəribə bir itaətkarlıqla:

- Kişim, - dedi və azca ara verib Bəkirin reaksiyasını gözlədi - yemək gətirim? - Bəkirin cavab vermədiyini görüb yataq otağına keçdi. Aybaşı paketlərini götürüb siyirməyə atdı...

- Zəkiii... Zəkiii... Zəkiii... - Uğur gözdən itən kimi Fira bağırmağa başladı – Zəkii... Zəkiii... Zəkiii..

Bəkir bayaqdan bunu gözləyirmiş kimi baltanı götürüb ayağa durdu, əvvəlcə yemək masasından başladı, sonra balta televizorun ekranını parçaladı, sonra qapılar, sonra divan... Uğur bir anlıq nə baş verdiyi anışdıra bilmədi, Bəkir divanı baltalaya-baltalaya qışqırırdı:

- Zəkiii... Zəkiii... Zəkiii...

Qaçıb özünü yenidən yataq otağına soxdu, telefonunda tələm-tələsik kiminsə nömrəsini yığıb qulağına tutudu...

-10-

Zəki müəllim içəri girib bir az duruxdu, sonra qorxa-qorxa, ata narahatlığı ilə Uğuru - illər boyu hamıdan gizlətdiyi, bəzən yetərincə qayğısını çəkə bilmədiyinə görə özünü söydüyü və uzun illərin boşluğunu doldurmaqçün (bəlkə də, vicdanını rahatlatmaqçün), mümkün qədər yaxınında olsun deyə min cürə fəndə əl atdığı, dostdoğmaca qızını səslədi:

- Uğur! Uğu-u-ur!

- Gəlirəm, - Uğur yataq otağından hay verdi - narahat olma! - Səsində nəsə xoş bir titrəmə var idi - Hər şey yaxşıdı... - Amma hələ bir müddət yataqdan qalxmağa tələsmədi, bir az əvvəl zorlanmaqdan aldığı o həzzi doya-doya yaşamaq istəyirdi, axı bu on ildə ilk dəfə idi ki, özünü əsl qadın kimi hiss etmişdi...

Bəkir bir küncdə sakitcənə oturub kürəyini divara söykəmişdi. Üst-başı tamam qanın içində idi: ağzının qırağındakı qan hələ tam qurumamışdı, bir cüt quş lələyi də çənəsinə yapışıb yellənməkdəydi. Zəki müəllim lələləkləri o dəqiqə tanıdı - Firanın lələləkləriydi bu. Qeyri-ixtiyarı gözü tutuquşunu axtardı, əvvəlcə Firanın başını gördü, - yerdə, zir-zibilin içində tullanmışdı - sonra həmin o qeyri-ixtiyari maraqla quşcuğazın bədənini gəzdi baxışları...

Amma nə o gecə, nə də ondan sonra, nə Zəki müəllim, nə Uğur, nə də başqa bir Allah bəndəsi Firanın bədənini gördü...

KEÇİR

Qış da bəzən üşüyür,
Xəyalından yaz keçir
Dar cığırlar böyüyür,
Yoldan adam az keçir

Qəlib-əyri adamlar.
Səlib-əyri adamlar.
Gəlib əyri adamlar
Yanımızdan düz keçir.

Ah, bu dadlı ağrılar,
Quşqanadlı ağrılar,
Ömür adlı ağrılar
Bir azca da döz, keçir.

Sazaq belə deyildi,
Ocaq belə deyildi,
Qabaq belə deyildi,
İndi illər tez keçir.

Eybi deyil toz gülün,
Yuxusunu yoz gülün.
Ağuşunda boz külün
Ocaq yanır, köz keçir.

Göz yaşımı çay doğub.
Yanağıma pay doğub.
Bu işığı ay doğub,
Sönməyəcək, yüz keçir.

Xəyalım sirrdi, qaçır.
Çox deyil, birdi, qaçır.
Qovuram dərdi, qaçır,
Yenə ələ söz keçir.

DÜNYANIN ƏN YAXŞI ŞAIRI HAQQINDA ƏN PIS ŞEIR

Vaqif Səmədoğluya ithaf...

Sağlığında sıxmamışdım əllərini,
Bir ovuc torpağını sıxdım.
Büründüyün ağa baxdım,
Ağlamadım...
Gözlərimin ağını sıxdım.
O dünyadan ərkyana,
Ölüm oğurlayan şair,
Ağır-ağır ağrıyan şair
Sənli torpağa düşdü,
Səndən ayrılan ağrı.
Nə dərman tapıldı, nə də təsəlli
Ürəyimin yarasını sıxdım torpağına.
Yer üzünün qaçdı rəngi,
Gözlərimin qarasını sıxdım torpağına.
Nə dəyişdi bu dünyada?
Örtdü məzarını qəbrinən çıxan torpaq.
Dağ oldu ürəyimə sinəndən baxan torpaq
Zaman kecdi,
Zaman keçir...
Indi səni hamı anır,
Mən anmıram.
Yoxluğuna hamı yanır,
Mən yanmıram.
Çünki hamı unudanda düşəcəksən yadıma
Bax, o zaman səndən ötrü tək yanacam
Yalan yox,
Gerçək yanacam...

* * *

Gündüzlər utanırsan,
Üzün gəlmir gəlməyə.
Bürünüb gecələrin,
çadrasına gəlirsən.
Yad bir evin toyundan ,
öz yasına gəlirsən.
Baxırsan uzanmışam,
yatağımın sağına
Əllərin sığal çəkir,
Saçımın qarasına,
yastığımın ağına.
Görürsən, fikirliyəm
Xəbərim belə yoxdu,
Gözlərimdən yayınıb,
qaçan göz yaşlarımdan.
Yanağımdan zülmətə,
uçan göz yaşlarımdan.
Ac, yalquzaq ruhunu,
doyurmaq istəyirsən
Bəlkə, qısqançlığından,
Canımdan ağrıları
ayırmaq istəyirsən
Uzanırsan soluma,
Alırsan ürəyimi,
özün ürək olursan.
Elə ki ayrılırıq,
Səhərədək qapımı
öpən külək olursan

TALEH MANSUR

Vaqif YUSİFLİ

GƏNC ŞAİRLƏR, SÖZÜM SİZƏDİR...

(III məqalə)

SEVGİDƏN ÖLMƏYƏN BİR QIZIN ETİRAFLARI

Həmişə müasir şairlərimizin, xüsusilə cavanların sevgi şeirlərini oxuyanda Ramiz Rövşənin bu misralarını xatırlayıram:

Bu sevgidi, mənim balam,
ömürlərdən uzun sevgi.
Bir əliylə
beşikləri yırğalayan,
Bir əliylə
qəbirləri qazan sevgi.
Bu sevgidi, mənim balam, -
bir dəlisov kəhər kimi
dalımızca çapan sevgi.
Harda olsaq, əcəl kimi
gəlib bizi tapan sevgi.

Bir anlığa dünyanın nağıllaşan, əfsanələşən məhəbbət fədailərini xatırlayırsan - Məcnunu, Leylini, Otellonu, Romeonu, Cülyettanı, Fərhadı… Sevgi dünyası başdan-ayağa qəribəliklərlə doludur. Ölüm də var bu yolda, xəstələnmək də, divanə olmaq da, tənhalığa qapılmaq da. Əsl sevgi insanı mənən, daxilən saflaşdırır. Faciə sevgisizlik yarananda başlayır. Amma əbədi yaşayan, ölümsüzlüyə aparan sevgilər var bu dünyada. Sevgini ömrün fəsillərinə də bənzədirlər - deyirlər ki, bahar fəsli gəncliyin sevgisidi, hisslərin, duyğuların coşduğu fəsil. Yaş gəlir otuza çatır. Sonra yay gəlir-hisslər daha da alovlanır, məcnunluq, divanəlik başlayır. Yaş qırxa çatır. Sonra payız - unudulmayan xatirələr xəzan yarpaqları kimi bircə-bircə ürəkdən baş alır. Yaş artıq qırxı, əllini keçir. Sevginin qışı olmur. Əlbəttə, ömrün fəsilləri və sevgi yaşı ilə bağlı bu fikirlə razılaşmamaq da olar. İnsan əlli, altmış, hətta yetmiş yaşında da gəncliyində olduğu kimi ehtirasla sevə bilər. Çünki sevgi üçün konkret bir yaş həddi, konkret bir «elmi metod» yoxdur.

Cavan şairlərimizirn, demək olar ki, hamısı sevgidən yazır: Oğlanlar qızların vəfasızlığından, qızlar da oğlanların onları atıb getməyindən, xəyanətindən. Ortada «sənsizlik» sindromu. Amma bu «ənənə» ilə yanaşı, yaşanılan, duyulan hisslərin ifadəsi olan sevgi şeirləri də az deyil.

Vəfa Mürsəlqızının «Qağayı gülüşü» kitabındakı şeirlərin hamısı sevgidəndir. Uğursuz sevgidənmi? Yox! Yaşanılan sevgidəndir. Bu sevginin bitmə nöqtəsi, son dayanacağı görünmür, çünki elə hissdir ki, gün-gündən şölələri artır, yanğına çevrilir. Müşfiqin ölməz misralarını xatırlayırsan: «Ah, bu uzun sevda yolu Vurulurmu başa, könül!». Belə başlanır sevgi etirafları:

Bu dünyaya gələn gündən
Sadəcə sevmək istədim.
Öz adımı bilən gündən
Sadəcə sevmək istədim.

Beləliklə, Vəfa Mürsəlqızı doğuldu və dünyaya sevgi üçün gəldiyini bəyan edir.

Sevdim, önümə nə çıxdı,
Sevən qəlbim kin bilmədi.
Birini gizlində sevdim,
Mən sevdim, lakin bilmədi.

Təbii ki, uşaqlıq və ilk gənclik illərinin sevdasıdır bu hisslər. Yoxsa deməzdi ki:

Böyüyüncə anladım ki,
Sevmək qələtmiş, İlahi!
Səni sevməyəni sevmək
Nə pis adətmiş, İlahi?

Sevginin onun həyatında və ümumən, sevənlərin həyatında (Vəfa xanımın şeirlərində tək özünün yox, ürəkdən sevənlərin də etirafları səslənir), mövcudluğa, mənəvi yaşam tərzinə çevrilməsi sonrakı iki bənddə belə ifadə edilir:

Bu da Allahın payıdır,
Sevdikcə dinə gəlirəm.
Dünyanın bu şər vaxtında
Yaxşı ki, sevə bilirəm.
Bir gün də ölüb görəcəm,
Ya otam, ya da çiçəyəm.
Qorxma, ölüm, həyat kimi,
Mən səni də sevəcəyəm.

Bu səmimi etirafdan sonra «sevgi oyunu»nun gizlinləri, yəni, əslində, bir sevən insanın bitib-tükənməyən digər etirafları səslənir. Bu etiraflardan məlum olur ki, «Duyğuların ən gözəlin, İçində boğmaq da varmış», «İkiyə bölünüb həyatım mənim, içimdə baharla qış gəzdirirəm», «Dünya gözlərimdə ağla qaradır, Yaşılı, mavisi, sarısı yoxdur» və s. Füzulinin Leylisi belə demirdi, bu əsrin sevdalısı daha cəsarətlidi, yəni fikrini heç nədən çəkinmədən bəyan edir. Amma onu da fikirləşirsən ki, Leyli bu əsrdə doğulsaydı, elə Vəfa Mürsəlqızı kimi gizli duyğularını belə açıb-ağardardı:

Dinirəm, dilim göynəyir,
Susuram, içim göynəyir.
Ürəyimi yer üzündən
Götürüm, qaçım, göynəyir!
Elə kəməndə düşmüşəm,
Dilimdən bəndə düşmüşəm,
O dərdə mən də düşmüşəm,
Dərdim-əlacım göynəyir.

Sevgi iki insanın münasibətindən doğur, anlaşma, könül birliyi varsa, vüsala gedən yol açıqdır. Ancaq dünya sevənlərinin qarşısında maneələr o qədər çoxdur ki, əsrlərdir şairlər bu maneələri dəf etməyə can atan aşiqlərin, məşuqların könül ahlarını qələmə almaqdan yorulmurlar. Cütlük arasında ya vəfa bağları qırılır, ya bir-birini anlamamaqdan doğan situasiya yaranır, ya da tərəddüd, şübhə məqamları başlayır. Qadın şairlərin sevgi şeirlərində tərəf-müqabil həmişə iztirab içindədir, kişi şairlərin şeirlərində isə tərəf-müqabil, əsasən, vəfasız yar obrazında təcəssüm edir. Bəs Vəfa Mürsəlqızının şeirlərində necə? Onun lirik qəhrəmanı «çətin bir adam» sevdiyini etiraf edir. Doğrudur, şeirlərində o «çətin adam»ın xarakteri, insani keyfiyyətləri lazımınca açıqlanmır, amma bir şeirində həmin o «çətin adam»ı bir azca tanıya bilirik. Sən demə, bu «çətin adam»ın Don-Juana oxşarlığı varmış: «Mən səni qadınlardan toplayıram hələ də, birindən gülüşünü, birindən baxışını». Bu «çətin adam»ın ən böyük günahı nədəymiş: «Mən hər şeyini tapdım, Hansı qadındaydısa, ürəyini tapmadım, ürəyini tapmadım!!!» Vəfa Mürsəlqızının lirik qəhrəmanına belə bir sual ismarıc edirik: O adamı sevməyə dəyərmi? Amma bütün bunlara baxmayaraq, biz o sevən qadının səmimi etiraflarını və sevən ürəyini alqışlayırıq. «Ümid» şeirindəki ÜMİDə qoşuluruq:

Bəlkə də, bəlkə də, ümid var hələ,
Hələ də qopmayan bağlarımız var.
Durna qatarına qoşulub gedək,
Bizim də hardasa baharımız var.

XATİRƏ NURGÜLÜN 11 şeiri

«Kaspi» qəzetinin 2015-ci il dekabr saylarının birində Xatirə Nurgül adlı cavan bir qızın 11 şeirini oxudum. Bu şeirlərdə sərbəst düşüncə tərzi, həyata, sevgiyə, dünyaya münasibətində yeni görünən mənalarla qarşılaşdım. Hər bir şeirin poetik enerjisini sözlərin öz adi mənasının sərhədlərini aşıb yeni deyimlər, təşbehlər, metaforalar yaratmaq müəyyənləşdirirsə, Xatirə Nurgül buna 11 şeirinin hər birində nail olmağa cəhd edib.

Yağış pıçıltı kimi
yağır havaya,
sirr kimi gizlənir torpaqda.

Ən uğurlu hesab etdiyim «Sirr» şeiri belə başlanır. «Yağış pıçıltı kimi yağır havaya» - yağışın yağmasıyla bağlı onlarla deyimlə tanışam, amma pıçıltı kimi yağmasını ilk dəfə Xatirə Nurgülün şeirində gördüm.

Torpaqsa buludlara bənzəyir
udanda yağış damcılarını.
Hər zaman yerlər gizləyir
göylərin acılarını.

Torpağın buludlara bənzədilməsi də təzədir. Bu bənzətmədə bir-birindən uzaq mənalar «calaq edilmişdir». Hər zaman yerlər gizləyir göylərin acısını» - deməli, yağış göyün acısıymış. Yağışın sonrakı taleyi:

Bir azdan yağış heykəlinə dönür
zülmətə uzanan işıq.
Navalçaların uclarında döyünür
evlərin ürəyi.

«Zülmətə uzanan işıq» yağışın yaratdığı romantikadı, bəlkə də, adi seyrçi bunu duya bilməz.

Və üzündə yağış damcısı
ağlamağı öyrənir çiçəklər.

Orijinal deyimdir. Metaforik düşüncə-çiçəyin ağlaması yağış mənzərəsini sanki tamamlayır. Amma yox:

Sirrini torpağa açır
yağışda ağlayan qadın.

Düz 54 il bundan əvvəl İsa İsmayılzadə «Yağış gölməçəsi» adlı bir şeir yazmışdı və o şeirə görə İsanı tənqid hələfinə çevirmişdilər.

Yağdı, tala-tala gölməçə yağdı,
göylərin dəlisov ilhamı yağdı,
sərçələrin soyuq «hamamı» yağdı.

Bax, bu «sərçələrin soyuq hamamı» bəzi şairləri və tənqidçiləri yaman əsəbiləşdirmişdi. Amma indi kimsə «yağış pıçıltı kimi yağır havaya», «torpaqsa buludlara bənzəyir» və s. təşbeh və metaforalara görə Xatirə Nurgülü tənqid edə bilməz. Şeirimizin söz və məna qatlarında o qədər üzə çıxarılmalı gizlinlər var ki…

Xatirə Nurgül XXI əsrin şairidir, doğrudur, poeziyamızda XX əsr hələ bitməyib şeirimizin yaşarı ənənələri davam edir, amma pis mənada «ənənəçilik» də yaşayır (nimdaş, rəngsiz-havasız, boz-bulanıq ifadələrdə, standart təşbehlərdə və ən əsası eyni mövzuya fərqli yox, fərqsiz baxışda). XXI əsrin şairi isə bitib-tükənməyən söz ehtiyatımızı bir kəşfiyyatçı kimi üzə çıxarmalıdı. Məsələn, belə: «Yoxluq külək kimidir..», «..Qovuşmaq darıxmaq qədər sonsuz deyil, təklik qədər zamansız», «Bu fevral gecəsinə qoşulub ölmək olar».

Arxamca susan əşyalara
ağlayan uşaqlara
baxa bilmirəm,
baxmıram
«əlvida» yerinə
göz vuran işıqlara.

Deyirlər ki, XXI əsrdə «qloballaşma ritmi», «kosmik tərəqqi havası» şeirimizin gözəlliyini, ülviliyini məhv edir. Belə hallar istisna deyil. Amma bu da XXI əsrin şeiridiir:

O qədər,
o qədər kədərliyəm ki,
əlimə keçən daşla vura bilərəm quşları,
həyətimizə gələn ikicanlı pişiyi qova bilərəm,
qonşu evin pəncərələri kimi,
uşaqların da qəlbini qıra bilərəm…
Və, çox kədərliyəm,
o qədər çox ki,
ağlamağa bəhanə də yox…
Zaman da keçmir,
quşlar da görünmür,
pişik də gəlmir,
qonşu evin pəncərələri taxtadandı,
uşaqlar günahsızdı.

Mən Xatirə Nurgülün bütün şeirlərindən söz açа bilmədim. Təbii ki, bu şeirlərin hamısı eyni səviyyədə deyil. Bu cavan qızın istedadlı bir şair olacağına indidən zamin olmaq niyyətim yox. Amma bu yolda axtarışlarını davam etdirsin. Əli Kərimin bir şeirində deyildiyi kimi:

Barışma kədərlə,
Hər şeyə biganə olarsan.
Barışma sevinclə,
Sərməst qalarsan.
Mübarizəylə barış.
Axtarış lazımdır,
Axtarış!
Fikirləş bir,
Şekspir var,
Şekspir!

«365 GÜN»ÜN ŞEİRLƏRİ

«Bəzən heç nəyə əl vurmadan baş götürüb getmək istəyir adam. Yaşamaq üçün çoxdur bu ömür, inanın mənə».

«Narahat olma, düzlər»ə qalır üç yüz altmış beş gün həyat. Hər addımda qarşına çıxan dolanbac yollar və it günündə yaşamaqdan başqa bir şey deyil dünya. Alatoranlıqda ümid gəzməkdi bir cib sıxıntıyla, əlləri boş, hədər yerə gün yandırmaqdı, mənəvi işgəncədi…»

Gənc şair-26 yaşlı Ruzbeh Məmmədin «365 gün» adlı ilk şeirlər kitabı müəllifin bu sözləriylə bitir. Gəlin, bu kitabı başdan oxuyaq.

Darıxmaq - insanın mənəvi sıxıntıya düçar olması, nədənsə bezməsi, təngə gəlməsi, narahatlıq içərisində yaşaması, bütün bunları ürək ağrısı ilə hiss etməsidir. İnsan kimin üçün darıxar? Qürbətdə olanda Vətən üçün darıxar… Arzularının həyata keçmədiyini görəndə yaman darıxar. Yaxın adamından, dostundan, sevgilisindən ötrü darıxmağı da təbiidir. Həyatında uğursuz anlar, bədbəxt hadisə baş verərsə, bir könül həmdəminə ehtiyac duyarsa, darıxar, üzülər. Bunlar insanın təbii yaşantılarıdır və zaman-zaman Azərbaycan şairlərinin şeirlərində də darıxmaq hissinin poetik çalarları ilə rastlaşmışıq.

Mərhum ədəbiyyatşünas Məsud Əlioğlunun belə bir kitabı var: «Darıxan adamlar» (iki cilddə, Bakı, «Təhsil» nəşriyyatı, 2009). Bu adı həmin kitaba kim seçib, deyə bilmərəm. Amma o kitabda Azərbaycan ədəbiyyatının klassiklərindən, onların yaradıcılığından söz açılır. Ümumən Azərbaycan ədəbiyyatının keçdiyi yolu (Nizamidən Cabbarlıya qədər) DARIXAN ADAMLARın həyat fəlsəfəsi, dünyaya baxışı kimi izah eləmək Məsud müəllimin metodoloji prinsipi idi. Bu kontekstdə darıxmaq öz adi, lokal mənasından sıyrılır, geniş bir məna kəsb edir, düşünmək, mövcud və real həyatla barışmamaq, gələcək haqqında xoş xəyallara dalmaq, daxili-mənəvi təkamül prosesi keçirmək yazıçıların təsvir etdiyi qəhrəmanların məramına çevrilmişdi. Ona görə də 24 yaşlı bir gəncin - cavan bir şairin darıxmaq hissini də təbii qəbul edək və görək onun şeirlərinə səpələdiyi bu sıxıntı, bu narahatlıq haradan doğur, bütün bunlar niyə mənəvi işgəncəyə aparıb çıxarır? Axı darıxmağın da bir sonu olmalıdır, insan bütün ömrü boyu sıxıntı içində yaşaya bilməz, həyatı ancaq darıxmaq haləsinə bürümək olmaz. Bu, bir insan ömrünün faciəsinə yol açar. Yox, əgər bu darıxmaq daha gözəl arzulara və işığa doğru can atmaqdırsa, onda darıxmağa dəyər.

Ruzbeh elə birinci şeirində öz darıxmaq «fəlsəfəsi»ni ortaya qoyur:

Uzaq düşəsən qəfil qohumundan, yadından,
Xəbər tutmaya kimsə olduğun ünvanından,
Qeybə çəkildiyini sənin öz qadınından
Bir başqa kəs duymaya, danışanın olmaya,
Öldürəsən özünü, qarışanın olmaya.

Qovmaya bir pişiyi küçənin azğın iti,
Oyatmaya südsatan, səni səhərlər qəti,
Ömür də çox olmaya, ola lap müvəqqəti,
Nə əlli, nə altmış, çox da yaşın olmaya,
Yatasan torpaq altda qəbir daşın olmaya.

Təbii ki, son dərəcə pessimist, dekadent bir «xülya». Hava çatışmır onun təsvir elədiyi lirik qəhrəmana. Sonra: «Birdən adam insafsızca darıxmağa başlayır, Elə darıxırsan ki, lap it kimi. Sıxılırsan dost-tanışdan, Küçədə cütləşən itlərin səsindən, Səhv düşən telefon zənglərindən».

Ruzbehin şeirlərini işığa doğru can atan, amma hələ o işığın harada olduğunu dərk etməyə cəhd edən bir gəncin qaranlıqdakı vurnuxması, çabalaması kimi yozmaq istəməzdik. Onun həyat məramı adilikdən, cansıxıcı həyatdan bezən və bu yaşayış tərzini qəbul etmək zorunda olmayan bir insanın-yeniyetmə bir gəncin etirazlarından, «daha belə yaşamaq olmaz» düşüncəsindən doğur. Hər şeydən bezmək, sevgidən usandırıcı bir tərzdə yorulmaq, ya da imtina etmək həddinə gəlib çatmaq, «hər gün ölümün gözünün içinə dik baxmaq», amma «vaxtın yoxdur ölməyə» deyib intihar haqda da fikirləşmək… göründüyü kimi, bizim pessimist gəncin daxili dünyası bu cür əndişələrlə sıx-sıx ilgilidir. Doğrusu, lirik qəhrəmanın «yaşayımmı, ölümmü?» dilemması qarşısında bu təhər çabalaması heç də qəribə görünmür. Bu, bir gəncin yaşantılarıdır. Deyir ki:

Atın boran, qışa məni,
Tutdurun qarğışa məni.
Vurun dağa, daşa məni,
Mənim canım çıxan deyil.

Nə qədər zillət görmüşəm,
Nə ağır dəhşət görmüşəm.
Ayrılıq, həsrət görmüşəm,
Ürəyim darıxan deyil.

Elə vurdu, əzdi məni,
Öz içimdə gəzdi məni.
O qədər ki, üzdü məni,
Taa üzümə baxan deyil.

Ümidlərim tabdı hələ,
Bağ bildiyim dağdı hələ.
Ruzbeh Məmməd sağdı hələ,
A dünya, yıxılan deyil.

Fikrimcə, «Deyil» adlı bu şeir Ruzbeh Məmmədin pessimist şeirlərindən seçilir və bu şeirdə sanki həyatdan, yaşadığı mühitdən bezən bir gəncin ona əzab verən düşüncələrdən qurtulmaq, xilas olmaq istəyi ifadə olunur.

Ruzbehin şeirlərində bir-birini inkar edən məqamlar diqqətdən yayınmır, bunu normal hal hesab etmək olarmı? Zənnimcə, yox! Təbii ki, insanın həyat yolu birbaşa düzxətli ola bilməz, yolu gedərkən maneələr, çətin anlar da yaşana bilər. Amma fikirləşirsən ki, sən o yolu getməlisən. Ruzbeh isə bir tərəfdən deyir ki:

Özüm də bilmirəm gedirəm hara,
Qaçıram, dərdimə çatıb gedirəm.
Ömürlük köçürəm lap uzaqlara,
Səni birdəfəlik atıb gedirəm.

Bu, 2013-cü ilin şeiridir. 2014-cü ildə isə Ruzbeh «…Sənin üçün yazılan şeir»də başqa bir ovqat aşılayır. Bu da sevgi şeiridir, amma ayrılıqdan, çıxıb getməkdən söhbət getmir.

Gülüşünə, baxışlarına sarılıram.
Mən hər şeyi sənlə ölçürəm,
Sən gözəlsən, hamı çirkindi,
Sən gül qoxulusan, güllərin ətri yoxdur…

Üzümdə saçlarının gül ətri,
Bağışla məni o iki kəlmə söz xatirinə,
Suçumu boynuma alıram!
Bağışla məni,
Bağışla ki, səni çox sevirəm…

Əlbəttə, kimsə etiraz edib deyə bilər ki, sevənlər arasında belə hallar: bir gün imtina, sabah yenidən qayıdış, başqa birisi gün yenə imtina mümkündür və ümumiyyətlə, bu hissi yaşayanlar üçün belə «çevrilmələr» təbiidir. Amma sevgi deyilən o duyğu, o müqəddəs və ali hiss başlanğıcdan sona qədər sabit, dəyişməz bir xassəyə malik olmalıdır. Məsələ heç də belə «çevrilmələr»də deyil, sevginin insana təsiri, ona aşıladığı və onu saflaşdıran, daxilən təmizləyən və yeniləşdirən nə varsa, odu sevgi. Ruzbehin bir «Sevgi» adlı şeiri də var və sanki o, lirik qəhrəmanın ikili düşüncələrinə xitam verir və fikrimcə, bu şeirdə Ruzbeh bütün ikili fikirlərinə son qoyur, öz anlamında əsl sevginin nə olduğunu açıqlayır. Amma bu şeirə iki yöndən münasibət bildirəcəyik.

Mənim üçün hər gün, hər gün
Tək səni sevməkdi sevgi.
Gözümə dolan ümidi,
Son damla qalan ümidi
Sevərək, xərcləməkdi sevgi.

Burada «ümidi xərcləmək» ifadəsi ilk baxışda etiraz doğura bilər, amma maraqlı ifadədir..

Biləm ömrümün hər anı,
Unuda kaş hamı, hamı.
Mən unudub hər insanı,
Bir səni görməkdi sevgi.

Bu misralar arasında səlislik zəifləyir, sözlər arasında dolaşıqlıq nəzərə çarpır, üç misrada ifadə olunan fikir şeir qiyafəsində deyil, amma «Bir səni görməkdi sevgi» misrası o üç misranın «günahını yuyur».

Hər şeyin daşını atıb,
Bütün işimi unudub,
Canımı dişimə tutub
Götürüb getməkdi sevgi.
Barmağının ucunacan
Dırnağından saçınacan,
Alt paltarından qıçınacan
Sənin; ətirlənməkdi sevgi.
Ürəyimin lap dibinə
Atam, bir düşmən sevinə.
Əlimi salıb cibimə
Gül ala bilməməkdi sevgi.
Qılıb namazın hər qızın,
Girib ürəyinə bir qızın
Qapı-qapı qışı, yazı
Döyüb dilənməkdi sevgi.

Bu misralarda da bəzi çatışmazlıqlar diqqətdən yayınmır «Ürəyimin lap dibinə Atam bir düşmən sevinə» misraları arasında kommunikasiya nəzərə çarpmır. Hər qızın namazını qılmaq nə deməkdir? (Qeyd edim ki, gələcək şeirlərində Ruzbeh şeir dilinə xüsusi diqqət yetirməlidir.) Ruzbehin «sevgi nədir?» sualına nisbətən doğru cavabı səslənsə də, o, bu şeiri yaxşı cilalamayıb. Amma onun ilk kitabında hər misrası, hər bəndi yerində olan nümunələr az deyil. Xüsusilə, ünlü şairəmiz Fərqanə Mehdiyevanın kitaba yazdığı ön sözdə sitat kimi seçilən nümunələr Ruzbehin ən yaxşı və səlis şeirləridir. Amma mən «Olmadı» şeirini şeir texnikası baxımından daha uğurlu hesab edirəm:

Qollarım qırıldı, düşdü,
Tutub bağlayan olmadı.
Öldüm mən, beləcə öldüm
Di gəl, ağlayan olmadı.

Atam oğlu, çap atını,
Aç həyatın iç qatını.
Bu dünyanın saatını
Tutub saxlayan olmadı.

Təbii ki, mən də Fərqanə xanım kimi ona İŞIQ, sözünün, sevginin işığını arzulayıram. Amma bir qədər fərqli. O işığı ki, dünyadan heç vaxt əskik deyil, hər an qarşına çıxır, səni pessimist olmaqdan, yalnız öz içində qıvrılmaqdan, boğulmaqdan xilas edir, o işığı ki, sənin içindədir, sən onu dünya işığına çıxarmalısan. Sənin ürəyinin işığı səni şair eləyib. O işığı yaşat!

Ay Bəniz ƏLİYAR

YOXMU

Bir dəli oynayır yolunun üstdə,
Gözləri çevrilib qan çanağına...
Baxıb öz-özünü tanımayırsan,
Deyirsən, ay Allah, ağıl ver buna!

Qəşş edir ürəkdən, güldüyü nədir?
Bütün ağrıları yığıb gözünə.
Qəlbini o ağrı elə göynədir,
Ağlamağın tutur özün-özünə.

Əllərin gəzirsən, əlləri yoxdur,
Üstünün tozunu kim silsin belə?
Bir yaz havasının tərs ovqatına
Sürtülmüş çomağın oynadır elə...

Atasın çağırır, atası yoxmu?
Anasın çağırır, anası yoxmu?
Bu dəli adamın özündən başqa,
Özünə bir özgə yanası yoxmu?!

AÇMA QAPINI

Səni oxşamağa gəlir əllərim,
Gəlir, sıx qapını, cəftəsini çək...
Mən gələ bilmədim, məni bağışla,
Səbəbin əllərim sənə deyəcək...

Onlar əl deyil ki, şeirdir, şeir!
Bir gör nə istəyir, bir gör nə deyir.
Nə vaxtdır dillənir əllərinə ac,
Bu dəfə susdurma, dur, qapını aç!

Nə yazda qonaqdır, nə qış köçəri,
O əllər səninki, burax içəri!..
Damında bir cüt ağ göyərçin olsun,
Evində nökərin, xidmətçin olsun.

Köynəyinə ütü elə ömürlük,
Göynəyinə ütü elə ömürlük.
Yemə əllərimin görüş haqqını!
Əgər istəməsən, sən də saxlama,

Sən də istəməsən, küsüb gedəcək.
Səni oxşamağa gəlir əllərim,
Gəlir, sıx qapını, cəftəsini çək...
Açma qapını!

AY GÜLÜR

Anlaya bilmirəm, nə olub mənə,
Geriyə boylanır saçlarımda dən.
Həyətə düşürəm, güllər açılır,
Açılır ovqatı sərçələrin də.

Ömrünə az qalıb kəpənəklərin,
Hələ yarpaq altda məskənləri var.
Bir gün gedişimdən xəbərsiz kimi,
Hər gün gəlişimə sevinir yollar.

Od tutub alışır yenə bu şəhər,
Eşqə bələmişəm bütün yolları.
Yetişən payızdan versə də xəbər,
Yaşıl yarpaqların sarı xalları.

Bəxti açılıbdır qızılgüllərin,
İkinci baharın şövqünü yaşar.
Ay göydə bəxtəvər bir qadın kimi,
Əsl sevilməyin zövqünü yaşar.

Bir qadın doğulur təzə, təptəzə,
Bu Aylı gecədə, bu Aylı gündə.
Hələ beş gün qalıb görüşümüzə,
Bəzənib durmuşam güzgü önündə.

GECƏNİZ XEYRƏ

Deyirlər, gecə keçib,
eh, bundan mənə nə var?
Gözümdən yuxum qaçıb,
bir mənəm, bir dörd divar.

Həə, bir də o divarda
asılan bir şəkildi.
Dayanıb baxdım ona,
yuxularım çəkildi.

Hər sabah necə olur,
gecədən sağ çıxıram?
O şəkildə gedənin
arxasınca baxıram...

Nə sevməyi bacardım,
nə unuda bilirəm.
Nə o gedən qayıdır,
nə mən yata bilirəm.

Yenə sabah açılmır,
yaman axsayır gecə.
Bu qədər baxmaq olmaz,
gedənin arxasınca.

DAĞ BAŞI

Çıxıb dağ başına özün olasan,
Nəfəsin kəsilə dumanda, çəndə.
Minib göyqurşağın, çapasan göyü,
Ümidin bitməyə yolun bitəndə.

Güllər toplayasan dağın döşündən,
Güllərdən süd dola döşünə dağın...
Ağ gəlinlik geyən ağ şəfəq kimi
Ağ duman olasan başına dağın.

Qəlbinin atəşi sara dünyanı,
Qalxıb qayaların gözün oyasan.
Doldurub ovcunu şəlalələrdən,
Gözündə lillənən qəmi yuyasan.

Baharın ən gözəl çiçəkləriylə
Bəzənə ormanın hər yaşıl layı.
Sıyrıla daşların yapıncısından,
Daşa köpük-köpük dağların çayı.

Əllərin toxuna, ləpirin dəyə,
Sular sığal çəkən qayaya, daşa.
Alıb qucağına ən böyük daşı,
Qaldıra biləsən yuxarı başa.

Çıxıb dağ başına özün olasan,
Dönüb qayıdasan körpəliyinə.
Çaylar elə daşa, elə daşa ki,
Körpülər sığmaya körpülüyünə.

ŞİMŞƏK

Şimşək çaxıb səhərəcən bu gecə,
Çox istəyir, göy üzünə çat düşə...
Bu amansız şimşəklərin gücündən
Qorxuram ki, hər tərəfə od düşə.

İldırımlar əjdahatək püskürür,
Bu alovu hansı qübbə qaynadır?
Buludlardan at düzəldir özünə,
Qırmancını göy üzündə oynadır.

Deyən yoxdur, içindəki bu od nə?
Buludlara lap mat qalıb göy özü.
Çaxan şimşək dönüb odlu köhlənə,
İşıqlanır gündüz kimi göy üzü.

Dayanmadan od tökülür yenə də
Göy üzünə sancılmış bu "çıraq"dan.
Uzanmışam yatağımın içində,
Bu "döyüşü" seyr edirəm bayaqdan.

ƏMBİL GÖLÜ

Mamır tutub ağaclarda payızlar...
Ləçək-ləçək ətri solur baharın.

Al meşəydi səpələnmiş ətəkdə,
Dağ zirvəsi bircə əlçim qar idi.
Üzü üstə yerə düşmüş kötükdə
Papaq-papaq göbələklər var idi.

Ovsunlanıb min çalarlı yaşıldan,
Gözəlliyin göstərirdi təbiət.
Köçürməkçün bu sehiri anbaan
Rəssam olmaq edərdimi kifayət?

Bal gəzirdi hər çiçəkdə təzə-tər,
Budaqlarda sancaq asmış hər arı.
Canlı idi keçənilki xəzəllər,
Torpaq hələ udmamışdı onları.

Meşəydimi, anlamadım, hər izə
Döşənmişdi xalı kimi gül, çiçək.
Boylanırdı xınalanmış payıza,
Əmbil gölü bir dumduru aynatək.

QURAN

Şəhla ASLAN

"Şükür Allaha, axır ki, qurtardı!" düşünərək həyətdə dərindən nəfəs aldı. Simpozium iştirakçıları dəstə-dəstə onun yanından ötüb bahalı maşınlarına yaxınlaşdılar. Onun isə nəinki maşını, heç şəhərdə düz-əməlli bir qohumu da yox idi. Yox idi deyəndə, bir az düz çıxmır, çünki bacısı uşaqları lap yaxında yaşayırdılar. Özü də dayılarının yolunda canlarını da əsirgəməzdilər, imkanları da yaxşı idi. Di gəl ki, ibadət eləmirdilər. Ona görə də Hacı onlara tərəf çox meyil eləmirdi. Elə indi də bacıoğlanlarına zəng etməkdən vaz keçdi. Fikirləşdi ki, bilsələr, qır-saqqız olub yapışacaqlar ondan. Çoxdan görüşmədiyi dostunu görmək istədi. Ziyalı, ibadətkar və sədaqətli adamdır. Klassik poeziyanı, fəlsəfəni də çox sevir, bu barədə kitabları var. Telefonunu çıxarıb onun nömrəsini yığdı:

- Əssəlamunəleykum! Necəsən, müəllim?

- Ay salamunəleykum! Ürəyim elə səni istəyirdi, onsuz da zəng çalacaqdım, yaxşı oldu, səsini eşitdim. Hardasan, ay Hacı?

- Üç gündür şəhərdəyəm, bir yığıncağımız var idi, məni də nümayəndə göndərmişdilər rayondan. "Təriqətlərarası dialoq və tolerantlıq" adında bir simpozium idi. İndicə qurtardı, düşmüşəm, həyətdəyəm. Dedim, evə qayıtmamış bir sənınlə danışım.

- Bəs, sənə qurban, orda niyə qalmısan, qoy gəlim, səni də götürüm, evdə rahatca söhbət edərik.

- Yox, müəllim, bu dəfə evə gəlməyə imkan yoxdur. Yoldaşımın xəstəliyi lap şiddət edib, narahatam. Elə burdan da düz kəndə qayıdacağam. Vaxtın varsa, bir yerdə gedərik bizə. Yazın gözəl çağıdı, indi bizim yerlər gəl-gəl deyir. Sən də oralardan çoxdan ayrılmısan, sənincün yaxşı olar. Mənim qanım bir az qaradır. İstərdim ki, bir neçə gün bir yerdə olaq, fikrim dağılsın.

- Oldu, Hacı. Özümlə nə götürüm?

- Heç nə. Sənin o tir tüfəngin qalırsa, onu, bir də Füzulinin kitabını götür, gəl yanıma. Yadındadırsa, keçən dəfə sənınlə dükandan mənimçün əba aldıq ha, onun qabağında səni gözləyəcəyəm.

- Yarım saata ordayam. Xudahafiz!

Hacı əl çantasını açıb pasportunu axtardı. Bilirdi ki, metroda onu geyiminə görə çək-çevirə salacaqlar. Çantada xeyli disk, vizit vərəqələri, fotoşəkillər var idi. Bunların hamısını yığıncaq iştirakçıları onun çıxışından sonra təqdim etmişdilər. Hamısı fasilə vaxtı yaxınlaşıb təşəkkürlərini bildirmiş, əməkdaşlıq etməyə dəvət etmişdilər. Di gəl ki, dediklərində də israr edirdilər. Hacı Qurandakı hansısa ayənin üstünə barmağın qoyub mənasını soruşanda özü də təəccüb içində qalırdı. "Bunlar belə təhrif olunmuş mənaları harada öyrənirlər, İlahi? Bir məktəbi, müəllimi yoxdur bunların?"

Hacı gördü ki, bayaq mübahisə etdiyi uzunsaqqal cavan özünə oxşayan bir yaşlı kişi ilə ona yaxınlaşır. Gedib görüşdülər. Məlum oldu ki, təzə gələnin elmi dərəcəsi lap böyük imiş. Düşündü ki, bunların saqqallarının uzunluğu, deyəsən, dərəcələrindən asılıdır və özü öz fikrinə güldü.

- Buyurun bizim maşına, oteldə sizinlə bir neçə gün mükalimə edərik. Siz Quranı, doğrudan da, bizdən yaxşı bilirsiniz. Amma təfsir barədə sizinlə razı olmadığımız yerlər var. Biz bilməzdik ki, burada belə savadlı alimlər ola bilər. Təhsilinizi haralarda almısınız?

- Elə öz kəndimizdə, bir axunddan səkkiz il dərs almışam, onun vəfatından sonra da kitablarını oxuyuram. Sizinlə isə getmək imkanım yoxdur, evə qayıtmalıyam.

- Onda bu diski alın, baxarsınız. Növbəti dəfə Məkkəyə gələndə bizə zəng eləyin, görüşək.

Elə bu vaxt dostu da gəlib çıxdı:

- Ay Hacı, narahat oldum, maşını düz bura sürdürdüm. Axı sənin bunlarla nə əlaqən var? Bunlar çox xatalı adamlardı ha!

- Narahat olma, kaş onlar bir yerə yığışanda gedib ora düşə biləydim. Azğınlıq içindədirlər. Amma məni bura göndərənlər də sənin kimi tapşırırdılar ki, çox dərinə getməyim, hamı ilə ortaq dil tapım. Axı necə dil tapım ki, Quranın ayələrini səhv yozurlar? Nə isə, yolda söhbət elərik. İndi isə elə bir maşın tap ki, namaz vaxtı çatanda yolda saxlasın.

- Ay Hacı, nə danışırsan? Bəs biz müsəlman deyilik? Bu da qardaşımdır. İbadət əhlidir. Sənin sorağını eşidən kimi dedi ki, öz maşınımla sizi aparacam.

- Lap yaxşı. Onda, bismillah, oturaq, gedək. Amma əvvəlcə bir şeyi məsləhətləşək. İş belədir ki, o Frankfurtdakı dostum var idi ha, sən onun barəsində bilirsən də, o, mənimçün pul göndərib. Onu götürək, sonra yola düşərik.

- Nə pul? Bir şey lazımsa, özümüz elərik də!

- Yox e, müəllim, məsələ dərindir. Üzr istəyirəm, evdə xanımım xəstədir, böyrəyində daş var. Həm də hamilədir. Allahın lütfü ilə, axır ki, bizə övlad payı vermişdir. Azad olmağına az vaxt qalır. Amma böyrəyindəki daşın "pristup"u hər tutanda day həkimə qaçmaqdan bezmişik. Çox əziyyət çəkir. Mütləq əməliyyat olunmalıdır. Əməliyyat isə risklidir. Həkimlər deyirlər ki, uşaq tələf ola bilər. Yoldaşım bunu biləndən sonra əməliyyata razı deyil. Deyir ki, ölsəm ölmüşəm, ölməsəm övladını sağ-salamat dünyaya gətirəcəyəm. Həmin dostum da bu əhvalatı bildi, əlli beş min dollar pul göndərib ki, onu xaricə aparıb rahatca əməliyyat etdirim.

- Yox, pulu niyə götürürük ki? Yola düşəndə lazım olan qədər çıxaraq, qalanını da yeri gəldikcə harda olsan, çıxara bilərsən.

- Hə, onda, ya Allah, yola düşək.

- Sən Allah, müəllim, aç, Füzulidən oxu. Quranı nə qədər öyrənsək də, ondan qat-qat artıq məqamlar var onun qəzəllərində. Molla Məhəmməd Füzuli elə Quranı xalqa çatdırmağa çalışır. Oxu və təfsir elə, görüm sizin alimlər necə izahat vermişlər.

"Mən əhatə elmükəl-əşyayə külləha,

Nə ibtida sənə mütəsvvür, nə intəha? -Yəni ey elmi bütün şeyləri əhatə edən, sənin nə əvvəlini, nə də sonunu təsəvvür etmək olmaz.

- Əhsən, amma "mütəsəvvür" kəlməsi ismifaildir, şəxs bildirir. Ona görə də "xaliqi məxluq dərk edə bilməz" mənasına gəlir.

"Səndən bulubdur Əhmədi-mürsəl məqamı-qürb

Təhsini "Ya" vu "sin" ilə təşrifi "Ta" vu "ha" - Yəni gözəlliyi Yasin, şərəfi Taha olan Əhmədi-Mürsəl sənə yaxın məqam bulubdur.

"Bulmazdı qəhrin açmasa xani-siyasətin,

"Həl min məzid" löqməsinə duzəx iştəha" - Yəni qəhrin cəza ... süfrəsi açmasa, "yenə varmı?" loğmasına cəhənnəm iştaha salmazdı.

- O "yenə varmı?" sualını kim kimə verir ki?

- Qiyamət günü Əzrayıl bütün yaranmışları öldürəndən sonra Allah ondan soruşur ki, yenə qalan varmı?

- Bağışla, amma elə deyildir. Qiyamətdən sonra Cəhənnəm günahkarları udacaq, getdikcə iştaha gəlib zəbanə çəkəcək, "Yenə varmı?" deyə soracaq. Ağzına qədər kafirlərlə dolu olan cəhənnəm yeni-yeni qurbanları necə qəbul edəcək sualı isə çox dərin mətləblərə bağlıdır və alimlər bu məsələdə cürbəcür qənaətlər yürüdürlər.

- Hacı, bu qədər elmi haradan öyrənmisən axı?

- Heç hardan, elə axundun yanında səkkiz il dərs almışam, fars, ərəb dillərinin qrammatikasını, Quranı, ərəb ədəbiyyatını ondan öyrənmişəm. Sonra da onun kitablarından indiyə qədər oxuyuram. Elm öyrənməyin ən düzgün yolu Qurandan keçməlidir. Bax, biri elə səni götürək. Çox oxumusan, savadlı, istedadlı adamsan. Əgər "Qurani Kərim"ə də bələdliyin olsa, tayınbərabərin olmaz. Gəl sənə Quranı öyrədim.

- Hacı, daha mənim əlli yaşım var. Bundan sonra sənə çatmaq üçün nə qədər oxumalıyam? Buna nə imkanım yoxdu, nə də ömrüm çatmaz.

- Yox, sən o qədər oxumayacaqsan. Cəmi iki il məndən dərs alsan, bəs eləyər. Axı özünün də ehtiyatın çoxdur. Gəlib-getməyə çətinlik çəkirsənsə, ayda iki-üç dəfə mən sənin yanına gəlim.

- Hacı, hələ görək nə olur. Mən o qədər şeylərlə məşğulam ki, indi dərs almağa imkanım yoxdur.

- Müəllim, incimə, sən bütün məşğuliyyətini at bir qırağa, gəl sənə Quran öyrədim. Allah sənə ruzini də bol-bol yetirəcək, elmin də kamil olacaq. Mən də istəyirəm ki, ustadım məni yetişdirdiyi kimi, mənim də özümdən sonra arxayın ola biləcəyim bir ardıcılım olsun. Mənim dövranım da artıq keçir. Hiss edirəm ki, əvvəlki ağlım, huşum qalmayıb. Zatında şər olanlar imkan düşən kimi mənə şər, böhtan atır, dinə,

İslama, Qurana zərər yetirməyə çalışırlar. Düzdür, Allah-təala özü əmin etmişdir ki, Qiyamətə qədər Quranı bir hərf belə dəyişmədən hifz edəcəkdir. Amma biz də daim onu təbliğ etməliyik, insanlara haqq yolunu göstərməliyik. - Hacı, heç olubmu ki, sənə verilən suala cavab verməkdə çətinlik çəkəsən?

- O qədər olub... Özümün özümə verdiyim sualların heç birini bilmirəm. Quranı tam dərk etmək bəşərin hünəri deyil. Bir dəfə məclisdə çoxlu suallar verildi, mən də hamısına cavab verdim. Başqalarından üstünlüyümü zənn edərək bir anlıq təkəbbür girdabına yuvarlandım. Dərhal da Allah tərəfindən cəzalandım. Belə ki, məclisdə oturan bir cığal adam soruşdu:

- Molla əmi, deyirsən ki, Quranda hər şeyin cavabı vardır, eləmi?

- Bəli. Bu kitab hələ mövcud olmamış vaxtda belə Quran var idi, amma başqa şəkildə idi. Məsələn, Kainat elə Quranın başqa cür yazılmış şəklidir. Məgər Allah öz yaratdığına yol göstərən bir dəlil göndərməzmi? Adəmdən ta Qiyamətə qədər insanları düşündürən bütün suallara orada cavab vardır. Əsas məsələ odur ki, onu başa düşə bilərsən.

- Molla əmi, deyilənə görə, sən bu kitabı ən yaxşı bilənlərdənsən. Mənə de görüm, bir kisə undan neçə çörək çıxır? Həm də bu cavabın Quranın harasında yazıldığını göstər. Göstərməsən, deməli, yalan deyirmişsən.

Düzü, çaşıb qalmışdım. Nə qədər fikirləşsəm də, müvafiq ayəni yada sala bilmədim. Dedim: - Əlbəttə ki, sualına cavab Quranda vardır. Çünki elə o müqəddəs kitabda ayə vardır ki, insana lazım olacaq bütün məsələlərin cavabı bu İlahi kitabdadır. Mənə möhlət ver, oxuyub deyərəm. Vaxt ötürdü, kitabı bir neçə dəfə oxusam da, çıxış yolu tapılmırdı.Təkəbbürə yuvarlanmayacağım barədə tövbə etdim, bağışlanmağımı istədim və yenidən Quranı oxumağa başladım. Bir ayəni oxuyanda sanki zehnim işıqlandı: "Bir şeyi bilmirsinizsə, zikr əhlindən soruşun". Səhər tezdən idi. Çölə çıxıb dərindən nəfəs aldım. Kəndin yuxarı başından gələn bir dəstə adam rayona gedirdi. Əşrəf də orada idi. Rayonda çörək mağazasında işləyirdi. Səslədim:

- Əşrəf, yolunu burdan sal, söz soruşacağam.

- Molla əmi, de də, bunlardan gizlindir?

- Yox, gizlin deyil, amma qayıdanda cavabını mənə deyərsən. Sexdən öyrən, gör bir kisə undan neçə çörək çıxır?

- Daha onun nəyini öyrənəcəyəm ki? Bir kisə undan 123 çörək çıxır. Nə az, nə çox! İnanmırsan, zəng eləyim, çörəkxanadakı ustadan soruşum...

Əşrəf telefonu çıxarıb kiminləsə danışdı, bir daha məni arxayın elədi ki, elə o qədərdir. Daha durmayıb getdim mənə sual verənin həyətinə. Çağırıb Quranı açdım, oxuyub tərcümə elədim: - Görürsən, burada yazılıb ki, bilmədiyini zikr əhlindən, yəni bu işi bilənlərdən soruş. Mən də sənin sualını çörəkçiyə verdim, o da cavab verdi ki, bir kisə undan 123 dənə çörək çıxır. İndi gördünmü, Quranda hər şeyə cavab vardır?!

Maşın yoxuşu dırmaşıb Hacının evinə çatdı. İsti bir gün idi. Ağacın altında xalça sərib üstündə oturduq. Çay-çörəkdən sonra xəstənin əhvalını soruşduq. Hacı bildirdi ki, indi ağrıkəsici vurublar, bir az sakitləşdi. Amma xəstəliyə etibar yoxdur. Hər an "pristup" tuta bilər. Vəziyyət çox ağırdır, Allah özü kömək eləsin.

Onu qayğılardan bir az uzaqlaşdırmaq üçün yenə də dini məsələlərdən söhbət saldıq. Gözəl, tutarlı cavablara heyran qalmamaq mümkün deyildi. Sonda Hacı dedi:

- Təklif edirəm ki, durub kəndin ətrafını gəzək, sizə maraqlı yerlər göstərəcəyəm. Söhbət qurtaran deyil. Əslində verdiyim cavablar mənim hünərim deyil. Quranın bir məşhur təfsiri var - "Əl-Mizan" adında. Nə öyrənmişəmsə, oradan öyrənmişəm. Ruhani çoxdur. Onların əksəriyyəti dili kamil bilmədiyi üçün kitabı yaxşı qavramırlar. Dili bilənlərin isə çoxusunun bu təfsir kitabı yoxdur. Qırx neçə cild, hərəsi də filan qədər. Xeyli pul eləyir. Kaş imkanım olaydı, elə adamların hərəsinə bütöv cildləri bağışlardım. Gör onda ölkəmizdə İslamın inkişafına nə boyda töhfə olardı. Alimlər Qurana daha dərindən aşina olardılar, müsəlman qardaşlara ayələrin mənası, təfsiri daha dolğun çatdırılardı.

Onlar kəndin üstündəki təpədə, kolların arasında durmuşdular. Hacı əli ilə dərənin o tayındakı hündür ağaclar olan rahat yeri göstərdi:

- Bax, ora keçmiş Sərdov kəndinin yeridir. Hamı oradan köçüb gedəndən sonra kənddə bir qoca kişi qalmışdı. Quran oxuyan, ibadət eləyən bir kişi idi. 5 yaşımda olanda atam məni onun yanma apardı. İki ilə ondan əlifbanı, Quran oxumağı öyrəndim. Sonra isə bax o hündür təpədəki kənddə yaşayan axundun yanına getdim. Sonralar məlum oldu ki, axund müctəhid dərəcəsi alsa da, Sovet hökumətinin sərt qanunlarından qorxduğu üçün səsini çıxara bilmirmiş.

- Elə demə, Hacı, onun əsəri sizsiniz. Özünə bərabər bir alim yetişdirdiyi üçün cənnəti bu dünyada qazanmışdır.

- Nə danışırsan, müəllim, o bir dərya idi, mən isə bir damlayam. Əstəğfürullah, yenə də günah elədim. Axı damla da dəryadandır. Mən hara, o hara?! Onun oxuduğu kitabların cüzi bir hissəsini oxuya bilirəm. Sən başqalarının sözünə fikir vermə, savadlı adamsan. Bu elm qurtaran deyil. Ziyarətdə olanda oranın alimləri ilə xeyli bəhs elədim, nəticədə ölkənin dini şurası mənə "Höccətullah" rütbəsini təqdim etdi. Arada fikirləşirəm ki, mən, doğrudanmı, Allah hökmlərini zahirə çıxartmaqda səlahiyyətliyəm, ya yox? Hələ özümü çox savadsız görürəm. Alıram bu Quranı qabağına, oxuyub "Əl-Mizan"a baxıram. Mənaların ağırlığı altında əzilirəm. Məclislərdə savadsız mollaların ixtiyarını mənə versəydilər, hamısını yığıb mədrəsələrdə oxumağa göndərərdim. Savadlı alimlərə isə, bayaq dediyim kimi, lazım olan ədəbiyyatı pulsuz paylayardım. İxtiyar məndə olsaydı, bütün məktəb və universitetlərdə ''Qurani-Kərim"i əsas dərs kimi tədris etdirərdim. Quransız nə elm?

- Bəlkə, gedək qəbiristanlıqda ustadın qəbrini ziyarət edək?

- Mən tez-tez onun qəbri üstə gedirəm. İndi də əziyyət vermək istəmirdim, yaxşı oldu, elə özün dedin. Axundun qəbri qəbiristanlıqda yox, elə öz həyətlərindədir. Öz vəsiyyətinə görə həyətində dəfn etdik. Səbəbini tapmaq üçün düşünəndə ürəyimə yüz şey gəlir, amma əsl səbəbini o böyük insan özü ilə qəbrə apardı.

- Yavaş-yavaş qalxaq oraya, sən də onun sözlərindən bizim üçün xırdala. Bu da bir qismətdir, ay Hacı.

- Mənim savadım çatmaz onun sözlərini şərh eləməyə, çünki elə şeylər deyirdi ki, indiki kitablarda ona rast gəlmək, müasir dilçi və təfsir alimlərindən eşitmək mümkün deyildir. İndi gör o kimlərdən dərs almışdır ha! Onun müəllimləri də elə "Əl-Mizan"ın müəllifi kimi alimlər olmuşlar. Belə ucqar yerdə o boyda alim ola, onun qədrini bilməyələr, çox böyük günahdır. Təsəvvür elə ki, onu kolxoz işinə çağırır, ən çətin işlərə buyururdular. Gizlicə dərs dediyi tələbələr də birtəhər "Yasin" - Quranı çıxan kimi daha davam eləmir, müstəqil şəkildə mollalıq edirdilər. Mən və daha iki yoldaşım onun vəfatına qədər elmdən ayrılmadıq. Heyf ki, ömrü az oldu. Düzdür, Quranı heç kəs axıradək açа bilməz, sadəcə, hər kəs öz elminə görə dərinliyinə gedə bilər. Axundun dedikləri isə bir ayrı aləm idi...

- Hacı, sən danışdıqca nə qədər qatil olduğumuzu düşünürəm. Allah qoysa, gəlib səndən dərs alacağam. İndi isə qayıdaq evə. Narahatam, şəhərdə işlərim tökülüb üst-üstə. Səni də çox məşğul etməyək.

Hacı evə tez-tez zəng vurub xəbər tutsa da, xəstəyə görə çox narahat idi. Ona görə də evə qayıtmaq fikri ürəyindən oldu. Söhbət edə-edə kəndə girdilər. Evə yaxınlaşanda qəribə bir mənzərənin şahidi oldular; evin xanımı həyəti süpürürdü. Hacı yerişini sürətləndirib onun yanına getdi. Öz aralarında nəsə danışıb geriyə döndü. Gülə-gülə dedi:

- Şükür Allaha, çətinlikdən qurtardıq. Xanımın böyrəyindəki daş özü xaric olub.

- Gözün aydın, Hacı. Biz də rahatca şəhərə yola düşə bilərik.

- Əlbəttə ki! Bu Allahın bir lütfüdür mənə. Frankfurtdakı dostuma bunu deyim, sonra gedərsiniz. O, nömrəni yığıb dedi: "Qardaş, xəstəm o bəladan öz-özünə qurtuldu. Pulu özünə yollayacağam".

Sonra bir az telefonda qulaq asdı, təşəkkür edib sözünü qurtardı.

- Pulu qəbul etmir. Deyir, onu sizə vermişəm. Nə cür istəyirsənsə, elə də xərclə. İndi bir məsələ qalır. Fondun sədri şəhərdə simpoziumda olanda mənimlə görüşüb, telefon nömrəsini verib bir şey lazım olarsa, zəng etməyimi tapşırmışdı. Qoy ona bir məsələdən ötrü zəng eləyim.

O, kənara çəkilib telefonda xeyli danışandan sonra yenidən geri qayıtdı:

- Sağ olsun. Böyük kömək elədi. Mən ona dedim ki, 80-100 ədəd "Əl-Mizan" təfsiri alıb məscidlərə pulsuz paylamaq istəyirəm, qiymətini də hesablamışam. Bu cildlərin xaricdən gətirilməsini xahiş elədim. O da dedi ki, təşkil elərik, özü də əlli faiz güzəştlə gətirərik. Məndə qalan artıq pulu da tələbələrə, Quran öyrənənlərə hədiyyə edəcəyəm. Bu işləri Allah özü Quranın hörmətinə eləmişdir.

Qucaqlaşıb ayrıldılar. Gələnləri yola salıb geri qayıtdı. Həyətdəki oturacaqda oturub maşının arxasınca xeyli baxdı. Ürəyindən keçirtdi ki, Allah onun ən böyük arzusunun gerçəkləşməsi üçün şərait yaratmışdır. İçəri keçdi. Quranı götürüb öpdü. Bayaq yola saldığı müəllim dostunun öz əli ilə düzəldib hədiyyə verdiyi rəhili rəfdən götürüb açdı. Quranı onun üstünə qoyub bardaş qurdu. Qəlblərə sirayət edən bir avaz ətrafa yayıldı...

Günay HƏSƏNLİ

AYAĞIM BAŞIMI...

Bilmirəm hardayam, hara gedirəm,
Ayağım başımı çəkib aparır.
Yollar ərşə çıxır ayağım altdan,
Bir ucu göylərə çəkilib gedir.
Biri də cismimdən oğurluq edib
Canımı ağzımdan dartıb çıxarır.
Yollar uzandıqca ömür qısalır -
Uzanan yolların yolunu kəsək.
Hərdən ilan olub çalır bu yollar -
Amansız yolların qolunu kəsək.
Əyrilir, qıvrılır, sürünüb gedir,
Əyrilər yolçusu olur bu yolun.
Əyilən yolların yolunu kəsək.
Bilmirəm hardayam, hara gedirəm,
Ayağım başımı çəkib aparır.
Bir sual yaranır beynimdə bu an:
Başım bədənimi aparmalıykən
Ayağım başımı çəkib aparır?

DÜNYA

Söylə, sənə neynəmişəm?
Mənsiz olan, mənli dünya.
Çoxlarına kef-damaqsan,
Mənə niyə qəmli, dünya?
Haqqımı yedirdib,
Nadanları gəl az güldür!
Dəfələrlə göynətdiyin
O həminki yazıq mənəm.
Daha bəsdi, gəl göynətmə,
Birdəfəlik öldür, öldür!
Öldür məni, tezcə öldür!
Öldürməsən, gözlərimdən axan yaşı
Bir dərəyə
Damla-damla toplayacam.
Dünya...
Səni su basacaq.
Diri-diri yandırırsan,
Yandır hələ.
Rəhmin gəlmir mənə sənin,
Mənim sənə gələcəkmi?
Mən də səni göz yaşımdan yaratdığım,
Səndən böyük bir dəryada boğacağam.
Sənlə olan bu savaşın
Qalibi mən olacağam.
"Qalibi mən olacağam!.."

MƏNƏM QATİL!..

Yolun üstə dilsiz daşam,
Gah sağımdan, gah solumdan keçirsən.
İlişmirəm ayağına,
Ərimişəm, bapbalaca qalmışam
Hərdən gəlib gah başımdan,
Gah qolumdan keçirsən.
Bir daş altda,
Bir daş üstdə qoyursan.
Qoz qırırsan başımda.
Altındakı o daş mənəm
Qanım axır, canım çıxır.
Düşünmürsən,
Bir canı var bu ağızsız daşın da?
Mən ki dinib-danışmıram
Lal adamın ağzındakı dili kimi,
Pas atmışam yolun üstə.
Nə küsmürəm, barışmıram,
Bir dəlinin beyni kimi qurumuşam yolun üstə.
Sənə dəyib-dolaşmıram,
Əməlim yox,
Kor gözündə diyirlənən bəbək kimi,
Mat qalmışam yolun üstə.
İlan başı əzən kimi,
Ayağının altda qoyub əzirsən.
Sinəbəndim kiçikdimi?
Sapa muncuq düzən kimi,
Yaraları sinəm üstə düzürsən.
Qəddar fələk, qatil fələk,
İnsanları qırmaq üçün bir zəlzələ qopart görək.
Tərpət yeri, tərpət göyü,
Qaya qopsun, daş oynasın burda gərək,
Hey əzdiyin, saymadığın o balaca daşcığaz,
Zərbə ilə gəlib dəyər gicgahına.
Bax bu da son!...
Mənəm qatil!!!
Sənsə keçdin tapdanmışlar,
Əzilmişlər,
Boğulmuşlar,
Nəhayət ki,
Doğulmuşların ahına.

AXTARIR

Dənizə atılan daşa dönmüşəm,
Bir ömür axtarsan, tapa bilməzsən.
Tapsan da, sən məni neyləyəcəksən?
Mən özüm özümü tapa bilmirəm.
Dilim qıfıl vurub lal hisslərimə
Bir "açar" sözünü tapa bilmirəm.
Tapsan da, sən məni neyləyəcəksən?
Dili lal,
Gözü kor,
Ağılı dəm-dəm.
Söylə, beləsini neyləyəcəksən?
Dərddən manqurtlaşıb,
Xəyalı hərdəm.
Elə hey itirir,
Axtarır hərdən.
O nəyi axtarır, niyə axtarır?
O kimi axtarır, nədən axtarır?
Əbədi dünyaya gedən axtarır
Bir tabut salamı göndərmək üçün.
Söylə, beləsini neyləyəcəksən?
Yerin göbəyini tapıb kəsəcək,
Vaxtsız anasından ayırmaq üçün.
Qarınqulu olub ürək yeyəcək,
Ürəyinin dərdi azdı, deyəsən,
Dərdinin qarnını doyurmaq üçün.
O ki dərdlərinin yurd anasıdı,
İstəməz balası acından ölə.
Axtarır, axtarır,
O, dərd axtarır,
Dərdinin qarnını doyurmaq üçün.
Söylə, beləsini neyləyəcəksən?
O ki sevincini yellərə verib,
Bəzəkli-düzəkli dərdi axtarır,
Dərdinin gözünü doyurmaq üçün.

Vüsal OĞUZ

NİSYƏ

Çayxanadan çıxanda havanın soyuduğunu hiss edib tələsik köhnə gödəkçəsinin düymələrini bağladı. Boynuna düşən damcıları görüb üzünü göyə tutanda asta-asta qar yağdığının fərqinə vardı. Gödəkçənin boyunluğunu qaldırdı. İçəridəki siqaret tüstüsündən sonra çöldəki təmiz havanı bir - iki dəfə ciyərlərinə çəkdi.

Çayxananın qapısı yenidən açıldı. Bayaq içəridə çay içdiyi məhlə uşaqlarıydı, bir-bir küçəyə çıxdılar. Dirsəyi ilə Şahinə toxunan qonşu İlham:

- Getmək fikrin yoxdu?- deyə soruşdu.

Şahin:

- Siz gedin. Mənim işim var, - cavab verdi.

İlham:

- Gözləyimmi?

- Yox, yolundan qalma, - Şahin dedi.

Çox da böyük olmayan kəndləri rayon mərkəzindən aralıda - dağın lap ətəyində idi. Kənddə iki əsas böyük ərzaq dükanı vardı və kənd camaatının çoxu bazarlığını əsasən bu dükanlardan edərdi. Maşını və imkanı olan adamlar rayondan və ya topdansatış mərkəzlərindən bazarlıq edərdilər.

Hərdən Şahinin də yolu düşərdi rayon mərkəzinə. Kənddəki dükanla qiymət fərqini dərhal anlayırdı. Yazıq kəndçi neynəsin? Əlinə pul dəyirdi ki? Kənd dükanlarından nisyə almağa məcbur idilər. Bir-iki kiçik dükanlar da vardı. Lakin onlarda bir o qədər alver getməzdi. Ümumiyyətlə, dükan işlədənlər pis dolanmırdılar. Onlar camaatı, camaat da onları başa düşürdü. Amma son bir ayda dükanlarda vəziyyət dəyişmişdi. Səbəb hamıya bəlliydi. Dollar yenidən qalxmışdı. Qiymətlərlə bərabər sankı dükan sahiblərinin də insafı qeybə çəkilmişdi. Buna görə də dünən günün günorta çağı İlyas hamıya eşitdirə - eşitdirə "nisyə söhbəti qurtardı" deyərək yekə bir elan da yapışdırdı dükanın saralmış aynasına: "Nisyələri ödəyin". Amma İlyasa da, yan-yörədə bu elanı görənlərə də aydın idi ki, bu elan, əsasən, nisyələri gecikdirənlərə və uzun müddət verməyənlərə aiddi. Daimi və etibarlı müştəri hesab edilən müəllimlərə, təqaüdçülərə aid deyildi.

Şahin fikirli-fikirli dükanın qapısına nə vaxt çatdığını belə bilmədi. Tərs kimi gözünə ilk sataşan da elan oldu. Əhvalı pozuldu. Bəlkə də, İlyas ona aid eləmirdi bunu, nə qədər olmasaydı da, məhlə uşağı idilər. Bir məktəbdə oxumuşdular, bir yerdə böyümüşdülər. Kənddə hamı Şahini etibarlı, sözünə düz insan kimi tanıyırdı. Amma son günlər İlyasın onun da olduğu yerlərdə elədiyi söhbətlər kürkünə birə salmışdı. Bilirdi ki, İlyas ona da eşitdirir. Elə srağa gün bir neçə adamı dükandan əliboş qaytardığının şahidi olmuşdu. Həmin adamların dükandan aralanan kimi arxasınca dediyi sözləri Şahin özünə də aid etmişdi ürəyində. Ağzı qızan İlyas hərdən nalayiq sözyüşlərə keçəndə iradını bildirmək istəsə də, nədənsə susmuşdu. Hiss etmişdi ki, İlyas əvvəlki İlyas deyil. Çünki bir ilə yaxın idi ki, özünün də nisyəsi durmadan artırdı. Hər ay azaltmaq istəsə də, imkan tapa bilmirdi. Əksinə, dəftərdəki məbləğ daha da şişirdi.

Əvvəllər kənddə dolanışıq babat idi. Kəndin əksər cavanları kimi Şahin də gah dağda odun doğrayar, gah da hansısa ustanın yanında fəhlə kimi işləyərdi. Ələlxüsus, kənddə hansısa dövlət səviyyəli tikinti işləri olanda uzun müddət daimi iş olurdu. Evə əliboş getdiyi gün olmazdı Şahinin. Uşaqlıqdan yetim qaldığından hər işə, zəhmətə öyrəncəli idi. Heç bir iş gözünü qorxutmazdı. Həm fiziki cəhətdən güclü, həm də meşə işində təcrübəli olduğundan maşınlar onunla dağa odun üçün getməyə həvəsli idilər. Yağışlı günlərdə - dağa qalxmaq mümkün olmayanda da dinc durmazdı. Kömür basdırardı. Əziyyətli və zərərli olsa da pis pul qazanmırdı. Elə buna görə də dükandan nadir hallarda nisyə bazarlıq edərdi. Hətta imkan edib bir qədər pul da yığa bilmişdi. Planında atasından qalma evin damını dəyişmək vardı. Əgər pul artıq qalsa, ucuzvarı bir yük maşını da almaq keçirdi ürəyindən. Amma son iki ildə hər şey dəyişdı qəfildən. Tək onun üçün deyil, bütün kənd üçün ağırlaşdı vəziyyət. Əvvəlcə meşələri qoruq elədilər. Xəlvət meşəyə girənləri tutanda elə cərimələdilər ki, başqalarının də gözü qorxdu. Kənddəki ailələrin bir çoxu Rusiyadakı yaxınlarının göndərdiyi pulla dolanırdı. Tezliklə şimaldan da narahat xəbərlər gəlməyə başladı. Az keçməmiş əvvəl paytaxda, sonra rayonda gedən tikinti işləri də dayandığından işsiz insanların sayı artmağa başladı kənddə.Yeganə gəlir yeri kömür idi. Sonra bu işin də zayı çıxdı. Əvvəllər kömür üstündə dava edən yük maşınları indi heç kənd tərəfə üzükmürdülər. Hamısı sözləşibmiş kimi kafelərin, restoranların kömürə yaxın durmadıqlarını deyirdilər. Alanda da elə qiymət deyirdilər ki, əziyyətinə belə dəymirdi. Ya da nisyə alıb bir aydan sonraya söz verirdilər. Məcbur qalanda buna da razılaşırdı Şahin.

Yığdığı pulla evin damını dəyişmək istəmişdi keçən il yaz çıxdıqdan sonra. O qış hər qar, yağış yağanda damın su daman yerlərinə qab-qacaq düzməkdən bezdilər. Amma qəfildən yoldaşının xəstələnməsi hər şeyi alt-üst elədi. Ay yarımdan artıq xəstəxana yollarında qaldı. Sonda həkimlər əməliyyat olunmağı vacib saydılar. Amma buna qədər onunku ona dəydi. Hər gün həkimlər ona bir siyahı verdi: gündə bir analız, gündə bir müayinə, illərdi yığdığı pulları göyə sovurdu. Əməliyyat üçün pul qalmadığından borc aldı. Lakin bu da yetmədi. Məcbur olub tövlədəki inəkləri dəyər dəyməzinə satdı. Sonra qoyunlar da yoxa çıxdı.

Nəhayət, hər şey başa çatdı. Kəndə qayıtdıqdan sonra boşalan tövləyə baxanda az qalırdı dəli olsun. İllərdir əziyyət çəkib doldurduğu tövlə tamam boşalmışdı. Bir inək və dana qalmışdı o boyda mal-qaradan. Amma buna da şükür edirdi. Tökdüyü pulları fikirləşəndə sıxılsa da, sonra hər şeyin yaxşı qurtardığını düşünərək şükür edirdi. Amma Şahini ən çox sıxan işləmədiyi bu iki ayda dükana və aptekə yığılan borcları idi. Yaz ayları olduğundan hələ mer-meyvənin yetişməyinə çox vardı. Heç yandan da işıq yeri görsənmirdi. Kənddə də nə tikinti vardı, nə də fəhlə axtaran. Hər işə hazır idi. Hərdən günlərlə cibində bir manatı belə olmurdu. Elə bu səbəbdən də borcu gündən-günə artırdı. Bir ara çıxıb Rusiyaya getməyi düşündü. Amma ordan gələnlərin dediyindən məlum olurdu ki, oradakılar özləri qayıtmaq istəyirlər, sadəcə, üzləri yoxdu. Bir də hara getsin? Kimin yanına? Tutaq ki, yer tapdı getməyə, bəs ailəni kimə tapşırsın?

Son vaxtlar uşaqların istəklərini müxtəlif bəhanələrlə yubadırdı. Gah dükan bağlı olurdu, gah da dükanda həmən şeyin qurtardığını bəhanə gətirərdi. Bu illər ərzində ailəsini heç nədən qıtlıq çəkməyə qoymamışdı Şahin. İndi adi şeyləri ala bilməməsi onu yaman sıxırdı. Evdəkilərin üzünə baxmaq istəmirdi.

Qəfildən kürəyində sancı hiss etdi. Dükanın yaxınlığında dəmir mühəccərə söykəndi.

Ürəyində qüsur olduğunu əsgərlikdə demişdilər.

Xidməti bitirdikdən sonra həkimi də, onun dediyini də unutmuşdu. Ağıra, yüngülə baxmamışdı. Əlinə keçən işin qulpundan yapışmışdı. Camaat iş tapanda sevinirdi. Təki pul olsun.Ailədəki uşaqlar nə anlayırdı var, ya yox. Amma iki il bundan əvvəl meşədə baş qaldırmışdı həmin ağrılar. Dərin xəndəkdə batan maşını çıxartmağa çalışırdılar. Qəfildən kürəyindən başlayan sancı onu yerə oturmağa məcbur etmişdi. Hərbi həkimin dediyi illər sonra yenidən yadına düşdü.

İyirmi dəqiqəydi ki, məhəccərə söykənmişdi. Bayaqdan asta-asta yağan qar artıq hər tərəfi ağartmışdı. Ağrıları azalanda kürəyinin buza döndüyünü hiss etdi. "Soyuqda çox dayandım" deyə düşündü. Dükanın qarşısında duran ağ rəngli xarici maşının işıqları gözünə düşdüyündən gözlərini qıyaraq əlini dükanın qapısına atdı. İçəridən çölə işıqla bərabər İlyasın iyrənc səsi axdı. Hiss olunurdu ki, kefi kökdür. "Ya babat vurub, ya da həmişəki kimi, qonşu kənddəki sevgilisinin yanında olub bu gün" deyə fikirləşdi Şahin. Həmişə yemək yediyi restorandan, verdiyi hesabdan, bəzən də gəzdiyi qadından danışardı. Bunu dəfələrlə ona irad tutsalar da, başqa söhbət tapmazdı. Tez-tez "o kişi nə kişidir ki, ayda biir-iki dəfə bazlıq etmir" deyib hırıldayardı. Zəmanə onun kimilərinin zəmanəsiydi. Qılıncının dalı da kəsirdi, qabağı da. Hamıya məlum idi İlyasın "kişi"liyi. Rusiyada işlədiyi üç il ərzində arvadı İradə min oyundan çıxmışdı. Qonşu kənddən olan İradə hələ məktəbin sonuncu sinfində oxuduğu, yüz oyundan çıxdığı vaxtlarda İlyasla sevgili oldu. Günlərin birində iş-işdən keçdiyini görəndə İlyasın qızı qaçırmaqdan başqa əlacı qalmadı. Əvvəl tay-tuşlarına toydan bir-iki ay sonra boşayacağını desə də gücü çatmadı. İkinci uşaqdan sonra, ümumiyyətlə, evdə İradə deyən qanun oldu. Pul qazanmaq üçün İlyası Rusiyaya yola salan İradənin üç ildə bazarı xod getdi.Tezliklə ərzaq dükanını paltar dükanına çevirdi. Bir ayağı Sədərəkdə, bir ayağı sərhəddə oldu. Hərtərəfli "alver" etdi. İlyas karlı pulla qayıdandan sonra dükanı yenidən ərzaq dükanına çevirdilər. Tədricən İradənin də ayağı yığıldı ev-eşiyə. Bunları yaxşı bildiyindən Şahin fikirləşirdi ki, İlyas gərək bu cür söhbətlər etməsin. Amma bunu İlyasa deməyin xeyri yox idi. Bir də ki, istəmirdi onunla münasibətləri korlansın. Günü-gündən artan nisyəsi gecə-gündüz beynindən çıxmırdı. Onun da dili bu cür gödək idi.

Axır vaxtlar İlyasın onunla candərdi danışdığının fərqinə varmışdı. Bilirdi qarnının ağrısını. Get-gedə artan rəqəm İlyası narahat edirdi.Tikanlı atmacalardan, Şahinin yanında gecikən nisyə sahiblərinin dalınca yağdırdığı söyüşlərdən hiss etmişdi ki, geci-tezi onun üçün də ağzı açılacaq. Bəlkə də açılmışdı Şahin olmayan vaxtlarda. Hərdən tövlədəki yeganə inəyini sataraq onun borcunu vermək istəsə də, dörd uşağı səhər-axşam necə sakit edəcəyini fikirləşib vaz keçmişdi bu fikirdən. "Uşaqların səsini ancaq ağartı kəsər" demişdi yoldaşı. Yoldaşının yanında aciz görünmək istəmir, tezliklə vəziyyətin düzələcəyini deyirdi. Amma hiss edirdi ki, nə özü, nə də yoldaşı inanmır bu vəziyyətin düzələcəyinə. Pay torpağını satmaq istəsə də, almaq istəyənlər elə qiymət demişdilər ki, bu qiymət dəftərdəki borcun heç üçdən biri belə eləmirdi.

Ayağını qapının kandarına qoyanda bir anlıq geri qayıtmaq istədi. İçəridə kənar adam olduğunu hiss etdi. İstəmirdi ki, başqası onun adi şeyləri də nisyə aldığını bilsin. Qapının arasında İlyası görcək diksindi. Əlindəki siqaretin kötüyünü açıq qapıdan çölə atan İlyas onu görcək bayaqdan gülən sifətini turşutsa da, geriyə yol yox idi. Yoldaşının kiçik kağız parçasına yazaraq cibinə qoyduğu siyahını axtardı. Günorta evdən çıxanda yoldaşı israrla tapşırmışdı. Almalı idi, başqa əlac yox idi.

Şahinin salamını ağızucu alan İlyas gözünü onun əlinə dikmişdi. Şahin cibindəki kağızı axtardığı zaman dükanın küncündə peçin yanında oturan adamı tanıya bildi. Fərman idi - briqadir Lətifin oğlu. Onunla paralel sinifdə oxumuşdu. Məktəbi qurtarar-qurtarmaz qaçmışdı Rusiyadakı dayılarının yanına. Uzun illər kəndə-kəsəyə qayıtmamışdı.

Odun sobasının kənarına düzülmüş pivə şüşələrindən hiss etdi ki, bayaqdan iki qohum babat vurublar burda. Şahin doqquz il bir yerdə oxuduğu sinif yoldaşını görcək bir anlıq hər şeyi unutdu, sevincək oldu. Piştaxtanın arxasına keçərək Fərmanla görüşməyə tələsdi. Amma Fərman yerindən belə tərpənmədən laqeydcəsinə ona əl uzatdı. Əvvəlcə bunu içkili olması ilə bağlasa da, sonra fikrində yanıldığını gördü. Şahinin istiqanlılıqla hal-əhval tutmasına Fərmanın yalnızca başını tərpətməklə kifayətlənməsi onu əməlli-başlı pərt elədi.

Sükutu İlyas pozdu:

- Xeyirdimi?

Şahinin cibindən çıxartdığı siyahını ona uzadaraq nəsə demək istədiyini görcək İlyas çəmkirdi:

- Qonşu, pulun var?

Hər şeyi başa düşən Şahin özünü o yerə qoymadı.

- Nəyə görə soruşursan, ay qonşu?

- Rəhmətliyin oğlu, niyə soruşacağam ki? Özünü qanmazlığa qoyma. Borc istəməyəcəm ki? (İlyasın hərdən belə qaba danışmağı bacarırdı.) Qapıdakı yazını görmədin?

- Gördüm.

- Vəssalam da. Sənə də aiddir.

- Mənə də?

- Sən göydən zənbillə düşməmisən ki?

- Bilirsən ki mən nisyə gecikdirən adam deyiləm.

- Pahhh. - İlyas az qala çığırdı. - Məni başa sal görüm, nisyə saxlamaq nəyə deyirsən? Səkkiz aydır borcu üst-üstə yığırsan. Günügündən də şişir. Heç vermək haqqında da fikirləşənə oxşamırsan.

- Bu həftə kömürün pulunu göndərməlidirlər. Narahat olma, çatdıracam.

- Ə, bura bax, o pulla hansı borcunu verəcəksən? Dolamısan məni? Borcundan xəbərin var? Bilirsən hara qalxıb?

İlyasın səsi get-gedə qalxırdı. Şahin fikirləşdi ki, ya doğrudan da, İlyası hirsləndirib, ya da o özünü Fərmana görsədir...

-Yox. Nə qədərdir ki?

Bu dəfə səsinin aşağıdan çıxması özünə də qəribə gəldi.

- Bilməzsən də. Kisə-kisə aparıb yeyəndə heç soruşmurdun.

Qəfildən Şahinin biləyindən tutaraq əlindəki qara flomastrla ovcunun içinə məbləği yazdı və Şahinin reaksiyasını gözləmədən dedi :

- Hardan verəcəksən, ay yetim?

Ovcunun içindəki yazıya baxanda bir anlıq bayaqkı sancıların yenidən kürəyində gəzişdiyini hiss etdi.

Küncdə oturan Fərmanın qəfil gülüşü İlyasın şit-şit hırıldamağına qarışdı. Şahinin gözünün önünə bir anlıq meşədə çaqqalların ulamağı gəldi. Boğulduğunu hiss etdi. Çölə çıxmağa tələsdi. Artıq alacağı kimi deyəcəyi də qalmamışdı.Qapını açaraq özünü çölə atdı.

Qəfil aralı qalan qapıdan çölə süzülən sözlər beynini qarışdırdı. İlyas arxasınca deyinirdi:

- Ac köpəkuşağı. Elə bil buna mən demişdim, dörd uşaq ək. İmkanı olsa, arvadının paltarlarını da mənə aldırar.

Sanki dünya bir anlıq Şahinin gözündə qaraldı. İçəri girməyi ilə İlyasın üstünə şığımağı bir oldu. İlyas özünü tərpətməyə macal tapmamış boğazı Şahinin dəmir kimi barmaqlarının arasında qaldı. Nəfəsinin kəsildiyini hiss etsə də, nəsə deməyə heyi qalmamışdı. Küncdən dostunun köməyinə yetişən Fərman üçün də yaxşı qurtarmadı bu müdaxilə. Şahin İlyasın boğazını buraxmadan sağ əli ilə Fərmana necə tutuzdurdusa, o, küncdəki ərzaq taylarının üstünə sərildi. İlyası küncə sıxışdıran Şahin sanki nərə çəkirdi:

- Kişi olub, adam olub ortalığa çıxıb! Sizinvar yoxunuzu... Onun, bunun artığını saxlayan nakişi.

- Sonuncu cümlənin ona aid olduğunu yaxşı bilsə də, İlyas qorxusundan səsini çıxartmadı.

Küçəyə haçan çıxdığını hiss etmədi. Bədəni od tutub yandığından ona elə gəlirdi ki, bayaqkı soyuqdan əsər-əlamət qalmayıb. Bir az da güclənmiş qar dənələri açıq yaxasından sinəsinə dolurdu. Kürəyindəki ağrılar onu dayandırdı.

Az qaldı elə yolun ortasında, qarın üstündə otursun. Bir neçə dəqiqə toxtadı.

Yol boyu İlyasın qarasınca o ki var döşədi. Arada Fərmanı da qatdı: "Fərari kopəyoğlu. Mən Qarabağda vuruşanda, can qoyanda harda gizlənmişdin? Alçaqlar indi adam olublar, pulun hesabına".

Qapıya çatanda hiss etdi ki, o boyda yolu birnəfəsə gəlib. Yalnız darvazanın önündə dayananda qan-tərə batdığını hiss etdi. Dəmir qapıdakı yumruq boyda qıfılı görəndə yadına düşdü ki, axşam böyük qaynı qonaq çağırıb onları. Çox güman, evdəkilər onu gözləməkdən yorulub getmişdilər. Əvvəlcə zəng etmədiklərinə görə qınamaq istədisə də, yadına düşdü ki, evdəki telefonun konturu, bəlkə, bir ay əvvəl qurtarıb.

Çəpərdən içəri adlamaqdan başqa əlacı qalmadı. Onsuz da qarın ağırlığından böyrü üstə yatmış çəpərdən içəri- həyətə tullandı.Bağın ayağındakı it hənirti eşitdiyindən üstünə yüyürdü. Bir-iki addım qalmış sankı, tanımayıb sahibinin üstünə yüyürməyindən utanırmış kimi başını qabaq ayaqlarının arsına soxdu. Başqa vaxt olsaydı, heyvanı tumarlamamış, danışdırmamış keçməzdi. Amma indi dünya gözünə görsənmirdi. Deyəsən, heyvan da hiss etmişdi vəziyyəti. Başını yana əyərək matdım-matdım baxırdı Şahinə.

Bütün fikri dükandakı hadisədə ilişib qalmışdı. Yenidən gicgahında damar atmağa başladı. Az keçməmiş kürəyində bayaqkı ağrılar peyda oldu. Çağırılmamış qonaq bu dəfə daha üzlü idi. Getmək bilmirdi. Nəfəsinin çatmadığını hiss etdi. Əvvəlcə yaxasını açdı, yerdən götürdüyü qarla alnını, boynunu ovxaladı. Bir anlıq canına sərinlik yayıldı. Evə çıxıb əynini dəyişmək lazım idi. Pilləkəndə yenidən sancı başladı. Bu dəfə dözülməz idi. Bağırmaqdan güclə saxladı özünü. Çox da hündür olmayan beton pilləkəndə oturmağa çalışdı. Qəfildən gözləri qaraldı. Əlini məhəccərə atdı. Birtəhər məhəccərdən tutub çöməldi. Heç belə olmamışdı. Cibindən telefonu çıxartmağa tələsdi. Zəng edib gələ bilməyəcəyini demək istəyirdi. Telefonu ciblərindən axtardığı bir-iki saniyə ona bir saat kimi keçdi sanki. Amma tapdığı telefonu əlində saxlaya bilmirdi indi. Əlindən yerə düşən telefonun işığını qaranlıqda görürdü. Qəribə idi, nə illah edirdisə əyilib götürə bilmirdi.

Bayaqdan sahibinə diqqətlə baxan alabaş ondan həmişəki nəvazişi gözləyirdi. Qəfildən üzünü göyə tutub ulayan heyvan sahibinin hələ də isti olan ovcunu yalamağa başladı. Sahibi isə etinasız idi bu dəfə.

* * *

İri kötüklərdən qalanmış ocağın ətrafına toplaşan kişilərin sükutunu kimsə pozdu:

- Meyidi yuyat yerinə düşürmək lazımdı. Bir-iki nəfər gəlsin.

Dərhal bir neçə nəfər evə tərəf yönəldi. Gecə yağan qar əməlli-başlı hər yanı ağ rəngə bürümüşdü. Özündən asılı olmayaraq hamı kimi qabağa duran İlyas, sonradan fikrindən daşındı. Hələ uşaqlıqdan meyitdən, qəbiristanlıqdan qorxardı. Bu dəfə qorxudan yox, axşamkı olanlara görə qoşulmadı meyidi düşürənlərə. Qulağı ocaq başındakı söhbətdə qalmışdı. Görəsən, hadisəni bilən varmı? Səhər tezdən Şahinin ölüm xəbərini eşidən kimi Fərmana kənddən çıxmağı məsləhət bilmiş, özü isə dükanı bağlayaraq bura tələsmişdi. İçindəki narahatlığı özü də başa düşmürdü. Əslində, onun narahatlığı axşam olanların kiminsə bilib - bilmədiyinə görə idi.

Meyidi müayinə edən kənd həkimin "infakt" diaqnozundan sonra kənd sahə müvəkkili də Rayon Polis Şöbəsi ilə əlaqə saxladı. Məsələni olduğu kimi danışdıqdan sonra İlyasın içi bir qədər rahatladı.

* * *

Yuyat yerinə Şahinin dostları girmişdilər. El qaydasına görə, meyit yuyulub kəfənlənəndən sonra ağlaşma üçün qadınlara təhvil veriləcəkdi. Çətin oldu Şahinin sol əlini açmaq. Birtəhər, qaynar su dəydikdən sonra boşaldı. Barmaqlarını güclə araladılar. Ovcundakı kağız parçası islandığından tikə-tikə olmuşdu. Əslində, heç buna fikir verən də olmadı. Şahinin ovcundakı qara rənglə yazılmış yazını nə oxumaq oldu, nə də ki, təmizləmək...

Roma XOSROV

SƏNƏ YAZDIĞIM ŞEİR

Ürəyinə yatmadım,
Görüm harda yatıram.
Sən də yoxsan, bu şeiri,
Baxım kimə satıram.

Tanrı, məni gəl apar,
İtsəm, məni dərd tapar,
Sənə bir can borcum var,
Borc içində batıram.

Unudar hər gün biri
Cibləri boş şairi,
Sənə yazdığım şeiri,
Qışda peçə atıram.

MƏNİ ALLAHDI GÖZLƏYƏN

Bu dünyadan o dünyaya,
Bir ömrün yolun gedirəm.
Qarşıma çıxan yolları
Ayağı yalın gedirəm.

Mənə açılan qolların,
Çoxdu bağlayan yolların,
Anam, yığdığım pulların
Hamısın alın, gedirəm.

Kimsən, ay məni gizləyən,
Gözü yaşlı əzizləyən,
Məni Allahdı gözləyən,
Tez yola salın, gedirəm.

QOCA BİR SƏNSİZLİK KEÇƏR İÇİMDƏN

Qoca bir sənsizlik keçər içimdən,
Üzüm tanışlara heç tanış gəlməz.
Kimdir o qəlbinin qapısın örtən,
Kimdir o adam, o körpə, dilbilməz.

İşıqlı adamlar günəşdən sonra,
İşıqlı adamlar gecə seçilir.
Daha mənim dərdim özümdən keçib,
Daha mənim dərdim dağla ölçülür.

Səni unudaram, unudularsan,
Sataram yerini, yerin boş qalmaz.
Mən səni sevmərəm, özündən özgə -
Dərdindən ölənin, sevənin olmaz.

QARA GÜNÜN SƏHƏRİYƏM

Sənin qəlbin bir dünyadır,
Mən də onun şəhəriyəm.
Misra-misra, sətir-sətir,
Öz ömrümün əsəriyəm.

Harda idin, sənsiz təkdim,
Ürəyimə dərdlər əkdim,
Bu həsrətə hasar çəkdim,
Ayrılığın çəpəriyəm.

Tut qibləyə ağ üzünü,
Unutma özün özünü,
Qara gözlüm, aç gözünü,
Qara günün səhəriyəm.

ÖZÜNƏ ÖZGƏ QADIN

Al ömrümü, Tanrı, ver o
Üstümdə kölgə qadına.
Əli qabar, qəlbi qübar,
Saçı süpürgə qadına.

Ümidini göydən üzən,
O göydən, bu yerdən bezən,
Xoş günündən ayrı gəzən,
Dərdimlə birgə qadına.

Tale yazan yazıb qəliz,
Alnı açıq, qəlbi təmiz,
Hər bir kəsə doğma, əziz,
Özünə özgə qadına.

BİR KİŞİ SEVGİSİ ÖLDÜYÜ YERDƏ

Böyüyür... böyüyür xırdaca bir söz,
Bir sözün içində boğulur adam.
Nə qədər dartılsa, yenə yay kimi,
Qayıdıb özünə yığılır adam.

Hərə bir ürəyin içində imiş,
Ürək sıxıldıqca sıxılır adam.
Bu qısa ömürdə bu uzun yollar
Dolaşır ayağa, yıxılır adam.

Birinin üstünə kölgəsin salır,
Birinin dalında dağ olur adam.
Bir kişi sevgisi öldüyü yerdə,
Bir qadın bətnində doğulur adam.

Ayişə NƏBİ

ƏRİYƏN DURNA BƏYAZLIĞINDA

Türkiyənin tanınmış şairi, yazarı Əhməd Həmdi Tanpınar ədəbiyyata xidmət etdiyi kimi, ictimaiyyətə də xidmət etmiş, ali məktəb müəllimi işləmiş, millət vəkili belə olmuşdur. İctimai motivlər daşıyan şeirləri olsa da, əsasən, təbiət və öz daxili aləmi ilə səsləşən mövzulara müraciət etmişdir. Onu bütün ədəbi yazılarını, roman və hekayələrini bir kənara qoyub təkcə şeirləri ilə tanımaq mümkündür. Hətta beş-on şeiri ilə onun bütün daxili aləmini anlaya və görə bilərsən. Bəzi şeirlərində sadə və bəsit fikirlər kimi görünən hiss və duyğuların bir az dərinə gedəndə məna yükü ilə dolğun ifadə olduğunu anlayırsan. Bir az fəlsəfi, bir az zaman, bir az mərhəmət, bir az kədər motivləri görürük şeirlərində. "Nə içindəyəm zamanın", "Bir gün İcadiyədə", "Həsrət", "Yağış", "Bir adın qalmalı..." şeirləri realist, eyni zamanda həm də sürrealist izlər daşıyır. O bir şeirdə eyni zamanda iki cərəyanı birləşdirən ustalığa sahib bir şairdir. Roman və hekayələrində də maraqlı gedişlər edərək insanı, kitabından ayrılmayaraq oxumağa sövq edir. İlk romanı "Mahur bəstə"də Osmanlı dövlətinin son zamanlarında bəzi təbəqələrin yaşayışını təsvir edir. Digər avto-bioqrafik "Huzur" romanında İstanbul sevdasının təzahürü, yuxu ilə həqiqət arasında böhran keçirən baş qəhrəmanın qorxuları, fikir və yuxuları təsvir olunur."Səhnədən kənardakılar", "Saatları düzəltmə institutu", "Aynadakı qadın" romanlarında günün reallıqlarını təsvir edərkən yuxuya da çox önəm vermiş, reallıqla metafizikadan da istifadə etmişdir.

Nəsrdə özünü təsdiqləmiş yazarı bir neçə şeiri ilə tanımaq üçün "Olqun axşamların ağırlığında" durub baxırsan, gözləyirsən üfüqdən sənə bir mesaj gələcək və "dərin sularında bu ayna hər an sizdən bir parıltı əks etdirəcək". Bu misraları götürüb hansı cərəyana aid etsən, yerinə düşəcək, elə misralar var ki, onlar konkret bir cərəyanın deyil, bütün cərəyanların malıdır. Şairin ustalığı odur ki, o yazdığı zaman bir cərəyana aid olub o cərəyanın prinsiplərinə əməl edərək o prinsiplərdən kənara rahatlıqla çıxa bilir. Əslində, şair yazarkən mən filan cərəyana aidəm, mən filan cərəyanda yazıram deyirsə, o zaman şairin şeiri cılız alınar və bu, o deməkdir ki, şair artıq dar bir çərçivədə rəqs edir.Tanpınarın bütün yaradıcılığını bir kənara qoyub onu sadəcə şeirlərindən tanımaq istəyiriksə, bu bizə kifayətdir.

Onun sürrealist şeirlərində belə alt qatda realist hisslər yatmaqdadır. "Gah çılpaq bir çiyin səssiz düşəcək əriyən bir durna bəyazlığından". Burada bir tək bu iki misranı götürərək baxaq. Çılpaq bir çiyin səssiz düşərsə, bunun fərqli mənaları var-həm realist, həm də sürrealist. Realist olsam, deyərəm ki, bu, adi bir mənzərədir, bu adi bir dərd çəkən, yorğun, bezgin insanın halıdır. Digər səmtdən baxanda bu mücərrəd bir duyğunun fəzada səssizliyə toxunaraq bəyazlığını itirməsi, bu, əriyən

bəyazlıqda ümidlərin boşluğunda heçliyə soyunmuş bir çiyinin - bir duyğunun, bir dünyanın, bir istinad yerinin, bəlkə də, bir kimsəsiz çölün insan ömrünün - həyatının, bəlkə, yaşadığı - ona aid zamanın, bəlkə bir sadə sözün, bir ümidin, bəlkə, bir həsrətin, bəlkə, də bir sevincin əriyib yoxluğa qarışmasıdır.

"Tutuşmuş mərcandır bəzən bir təbəssüm", "qızılı güllər röyasında saçlarını" eləcə "ümidsiz bir halda küləyə verir", olqun axşamlara dağılan, "olqun axşamlarda ümidsiz üzən saçlar bir çiçəyin röyası olur.Bu həm realist, həm də sürrealist bir yanaşmadır.Ustalıq da elə budur.Şeiri oxuyan hər kəs o şeirdə öz hisslərini tapır, öz düşüncəsinə görə yoza bilir.

Kasıblıq var bir də şairin həyatında, təkcə şairin deyil, şairliyin həyatında kasıblıq var, bu kasıblıq bir hüzn kimi çökər şairin duyğularına, uşaq vaxtlarının həsrəti, uşaqlıqda yaşadığı əlçatmazlıq hissləri, istədiyi bir şeyə qarşı içində boğduğu hisslərin yaratdığı ağrı və hüzn qarışaraq şeirə doğma bir həzinlik qatır və şeirlər bu həzinliyin dağınıq hisslərini daşıyır.

Axşam var Tanpınarın şeirlərində bir də. Canlı, diri, bu saat üstünə yürüyən şər vaxtlarının ağır hüznü var sözlərinin canında, Tanpınarın axşamlarında göy üzündən yer üzünə yollanan qaranlıqda bir insanın sanki "işıqdan ayrılmaq", qaranlığa qarışmaq qorxusu dilə gəlib "evlərin eşiklərində ayaq saxlayıb" durur və içəridən bir səs gəlib "Basma, bu eşikdə mənim qəlbim var"deyir. "Hər axşam bir çarmıx olur ruhuma". Kimin ruhuna axşamlar çarmıx olmur ki, axşamlar hər kəsin qəlbinə bir hüzn, bir kədər çökdürmürmü, axşamlar evlərin eşiklərinə çıxıb hüznü, bu kədəri dağıtmağa çalışmırıqmı. Əlbəttə. Şair bu hüznü şeirin içində əridib sevgiyə qatır, "saatlar işgəncə, günlər cəllad" olsa da, nə o, "yalnızlığa bir an aldandı", nə də "yalnızlıq ondan usandı". "Taxtanı qurd oydu, daş yosun bağladı, divarları yabani otlar örtdü, mərmər hovuzlarda sular köpükləndi, qamaşan günə bir ayna oldu", bağrım bütün hüznə, kədərə açıldı...

Və axşamlar... şairdə bəlli olur, axşamlar şairdə yaşayır, şeirdə dirilir, canlanır və axşamları şairdən soruşun, Tanpınardan soruşun, Tanpınardan soruşulur bu axşamlar və "bu axşamlardakı boş yolların sirləri". Nə qərib və nə qəribə həzin mənzərə - axşamlar yolların boş qalması...

Tanpınardan dinlə axşamları..."Məndən soruş və məndən dinlə axşamları"....Bu bir misra qəlbindəki həzin kədər, axşam üfüqündəki qızartının sabaha oyatdığı inamla sirlənir. Bu mənzərə insanın içini tərpədən, qəlbinə Tanpınar hüznünü dolduran həzin duyğu yükü - boş yolların sirrini bilir, amma yenə də gözünü dikir o boş yollara və dinləyir axşamı. Burda hissləri ifadə etməkdə söz yorulur...

Yat, yat, gözlərində rəngsiz bir pərdə...
Bir azca uzaqlaş kədərlərindən...

Yuxunun bir pərdə kimi enib gözləri qapadığını, yuxunun hər şeyi örtüb gizlədiyini incə bir dillə, bir kəlmə ilə deyir, hər şeyi örtən yuxunun insanın kədərini də örtüb insanı kədərdən uzaqlaşdırdığını göstərir.Yuxu yaddaşımızı da örtür."Dərinlərdən bir ruh gülümsəyir", "pəncərə önündə xəyala dalan gözlərinlə" başqa bir aləmdən gəlmiş kimisən.Daha bir mənzərə açılır gözlərimizin qabağında, sanki bir rəssam çəkib bu mənzərəni gözlərimizin qabağına qoyur. Eyni vaxtda da bu sürreal bir biçimdə xəyal aləmini göstərir bizə. "Torpağa incə-incə sinən yağışın", "bağçalarda gəzişən küləyin" fonunda yox yerdən gözünün önündə peyda olur.

"Sonra salam olsun bizdən gözəl dünyaya", "bağçalarda güllər hələ açarmı, işıqlar, kölgələr suda oynarmı". Hamısı gözəldir. Bəli, məncə də, gözəldir və sadə, olduqca sadə bir dillə gözəl də ifadə edilmişdir. Gözəldir və ustalıqla deyilmişdir. Gözəlliyi gözəl ifadə etmək, gözəlliyi real və sürreal ifadə etmək. "Uzaq, çox uzağıq indi işıqdan" bədbinliyi, "dönməyən gəmilər olduq dənizdə" ümidsizliyi və bunun ardından da "adınızı soruşan, axtaran varmı?" deyə ümid etmək, inanmaq, arzulanmaq istəyi baş qaldırır. Şair bədbinliyə və ümidsizliyə qapılmır, hər ümidsizliyin yanında həmin anda bir ümid işığı yandırır.

Şair dünyasına "bir kainat açılır, geniş, sonsuz, ecazkar" və "bir başqa gözlə baxırsan ömür deyilən yuxuya". "Meşələrdə budaqların şəfəq səltənəti"səni heyran edir, "hər üfüqü təkbaşına gözləyən-qoruyan qədim şam" ağacları sənin bütün varlığını alt-üst edir, özünə baxırsan, sən gözünün önündəki kölgəndən xəbərsiz, sən əlinə-qoluna gözətçi ola bilməzkən o qədim şamlar üfüqə gözətçi olur. Ey şair xəyalı, sən nələri görürsən!Sən axşamlara nə böyük məna yükləyirsən, "Bir sirr kimi ömrümdən sızdırılmış axşamlar". Bunu demək zərrənin içinə girib oradakı sirdən xəbərdar olmaq həssaslığı istər. Yoxsa axşamın bir sirr kimi ömürdən oğurlanması hər gözlə görünməz, hər ağılda təsəvvür edilməz.

Şairin duyğu sferasında qığılcımlar ən dərinlərə enir, zərrənin içinə. Anlayır ki, "anlarsan, ölüm yoxdur keçən zamandan başqa". "Kimə toxunsam, sənsən", çünki "bir dəniz dərinli"yində "yorğun qəlbimlə nağıl söyləyən nənəni axtarır". Soruşur, "eşq dediyin nədir ki?" cavab verir, "uşaqların içindəki hayqırtı"dır, "ümidsizlik içində qaranlığa son haray". Hər şeydən sonra bütün yaşananların sonunda "bir adın qalmalıdır geriyə", "bir damla qan kimi içimin arxlarına hopacaq" adın qalmalıdır.

Başqa bir həyat, başqa bir insan açılır daha sonra Tanpınar şeirlərində, "küçə dolusu bir adamın yalnızlığı"nı daşıyır, o yalnızlıqdan "dağlar sonra oynadı yerindən" və "aynaların ardında sirr" qalmadı, açıldı şairə, ancaq bütün bu yalnızlığın əvəzinə "bir adın qalmalı geriyə", çünki "itirmək üçün erkən, sevmək üçün çox gecdir". Niyə, şair? Yoxsa, "Bursada zaman" "yaşayır sehrini keçmiş zamanın", bəlkə də, "göyərçin baxışlı səssizlik əksləda verir bu sonsuz davam qorxusu ilə".

Şair həyat dolu, ümid dolu, "üfüqümüzü doldursun bu ziya, bu rəng" deyə nikbin əhvalla bitirir şeiri.

"Masmavi bir işığın ortasında üzməkdə" olan şair, sükutu dinləyərək hədəfinin zirvəsinə varır, "içim muradına çatmış əbasız-çuxasız bir dərviş" olub "nə zamanın tam içində, nə də çölündədir". Mənim gəlmək istədiyim nöqtə də bu idi, budur əsl şair dünyası, şair obrazı-çalxantılı, qarmaqarışıq, anlaşılmayan, sehrli-sirli, hər qatında bir dünya, "rüzgarda uçan tükdən belə yüngül" olan.

Bir də şairin zaman anlayışı fərqlidir, nə zamanın içindədir şair, nə də çölündə, bəs harasındadır? Şair ləməkandırmı, yoxsa Tanrı zərrəciyi kimi? Bəli, şair Tanrı zərrəciyidir və bir Tanrı zərrəciyi kimi ruhunun yeri-yurdu bilinmir. Ancaq bir insan kimi mərhəməti bilinir, "ağlama, gözləri qızarmış uşaq, tək damla göz yaşın düşməsin yerə" deyərək özünün bütün kədərinə baxmayaraq, bir körpənin gözündə yaş görmək istəmir, "ağlayana kimsə boyun əyməz" deyərək realistcəsinə uşağın göz yaşını sözü-öyüdü ilə silir.

Sözləri nişan verir şairin yerini. Şairin yeri sözün içi, sözün yeri isə sevənlərinin könlüdür...

Füruğ FƏRRUXZAD
(1935-1967)

DƏRD NƏĞMƏSİ

Məndəsən, amma ki, uzaqsan məndən,
gözlərin zillənib özgə gözünə.
Daha nə deyim ki, qarışıb başın
özgə söhbətinə, özgə sözünə.

Qüssəylə döyünür köksümdə ürək,
həm sənli, həm sənsiz yoxdur qərarı.
Vay o zamandan ki, məndən xəbərsiz
tərk edib gedəsən sən bu diyarı.

Mən sənin kölgənəm, hayana getsən,
başımı qoymuşam qədəmlərinə.
Sən tək birisinə rast gəlməmişəm,
axı kimi qoyum sənin yerinə?

Mənim sevincim də, qəmim də sənsən,
səndən sənə istəyirəm sığınmaq.
Coşğun bir dalğayam, özüm bilmədən
ayın təsirinə olmuşam dustaq.

Dedin ki, qırılıb qoparam səndən,
aşiq vəfa bağın, de, qırarmı heç?
Özümdən qopsam da, səndən qopmaram,
sevən də əhdini sındırarmı heç?

Görərək məst oldum səni yuxuda,
kaş elə hər gecə görüm mən səni.
Qönçə deyilsən ki, sərxoşcasına
qalxıb, budaqlardan dərim mən səni.

Sənin gözlərinin mavi oduyla
qaranlıq gecəmə çıraq yaxaram.
Bağlama yolları, ola ki, sənin
gizli qəm evinə gedib çıxaram.

POZĞUN

Get daha qarşımdan, incitmə məni,
mənəm süst, davamsız, gücsüz, günahkar.
Sinəmin küncündə dəli bir könül,
könlümün küncündə min bir həvəs var.

Ürəyin təmizdir, ətəyim çirkli,
özgə xəlvətinin cananıyam mən.
Mənim öpüşümdən sən məst olmusan,
mən isə sərxoşam meydən, badədən.

Mənim gözlərimin min bir dili var,
saqiyəm məstlərin məclisində mən.
Öpüş istəyirsən, gəl öp sən məni,
gəl daha danışma eşqin qəmindən.

Bir ay işığıdır sənin bu eşqin,
düşübdür köksümün bataqlığına.
Rəhmət yağışıtək yağmaqdadır o,
günahkar qəlbimin quraqlığına.

Mən heçəm, əbədi bir qaranlığam,
sənsə ümid dolu parlaq günəşsən.
Ey mənə səadət bəxş edən işıq,
heyif ki, qəlbimə gec parladın sən.

Gec gəldin, ləkəyə bulaşdı adım,
gec gəldin, qərq oldum günahlara mən.
Solaraq, şam kimi söndüm mən artıq,
söndüm bədnamlığın sərt küləyindən.

GÜNAH

Bir günah işlədim, ləzzətlə dolu,
qaynar bir qucaqda isindi bu tən.
Bir günah işlədim o qızğın, o sərt,
o dəmir qolların arasında mən.

O səssiz, qaranlıq, xəlvət otaqda
sirr dolu gözünə baxdım hürkərək.
O istək, yalvarış dolu gözünü
görüb də titrədi köksümdə ürək.

O səssiz, qaranlıq, xəlvət otaqda
oturdum yanında, titrədi bədən.
Qurtuldum qəmindən dəli könlümün,
ləbimə ehtiras axdı ləbindən.

Dedim qulağına eşq qissəsini:
"Səni istəyirəm mən, ey sevgili!
O can bəxş eləyən qucağını aç,
ey olan eşqimdən divanə, dəli!"

Rəqs etdi qədəhdə qırmızı şərab,
gözündə ehtiras çırağı yandı.
O yumşaq yataqda, onun qoynunda
bədənim titrədi, həm xumarlandı.

Bir günah işlədim, ləzzətlə dolu,
atəşli, titrəyən, məst bir qucaqda.
Xudaya, nə etdim heç bilmirəm mən,
o səssiz, qaranlıq, xəlvət otaqda.

GÖZƏLLİK NƏĞMƏSİ

Sənin çiyinlərin –
qayalartək məğrur və bərk.
Saçlarımın dalğası
axır bu uçurumdan
parlaq şəlalətək.

Sənin çiyinlərin
qala hasarıtək əzəmətlidir.
Saçımın telləri bu hasarda
küləkdən yellənən söyüd budaqlarıtək
rəqs edir.

Sənin çiyinlərin –
dəmir bürclər.
Qanın və həyatın bənzərsiz cilvəsi,
rəngi mis manqal rənginə bənzər.

Ehtiras məbədinin sükutunda
uzanmışıq qərarsızca, təkbətək.
Çiyinlərindəki öpüş yerlərim yanır
ilan sancmıştək.

Sənin çiyinlərin
isti və parlaq tər dənələrinə olur qərq,
Günəşin qızmar və əzəmətli hayqırtısında
dağ zirvəsitək vurur bərq.

Sənin çiyinlərin
qibləgahıdır
mənim istək dolu gözlərimin.
Sənin çiyinlərin
daş möhürüdür
namazımın, duamın, ürək sözlərimin.

BAĞIN FƏTHİ

Başımızın üstündən uçaraq,
avara bir buludun dağınıq düşüncəsinə dalan
və səsi qısa bir nizətək üfüqün genişliyini qət
edən
o qarğa
xəbərimizi şəhərə aparacaq özüylə.

Hamı bilir,
hamı bilir ki,
mənlə sən o soyuq və qaşqabaqlı bacadan
bağı gördük.
Və əlimizin çatmadığı o oynaq budaqdan
alma dərdik.

Hamı qorxur,
hamı qorxur, amma mənlə sən
çırağa, suya və güzgüyə qoşulduq
və qorxmadıq.

Nə iki ad arasındakı incə bağdan,
nə də bir dəftərin köhnə vərəqlərindəki
qucaqlaşmadan gedir söhbət.
Söhbət xoşbəxt saçlarımdan gedir –
öpüşünün yanmış lalələrinə qərq olan
saçlarımdan.
Və bədənlərimizin oğrunluqdakı
səmimiyyətindən.
Və çılpaqlığımızın
sudakı balıq pulcuqlarıtək parlamasından.
Kiçik fəvvarənin səhərlər oxuduğu bir
nəğmənin
gümüşü həyatından gedir söhbət.

Bir gecə biz o yaşıl və axıcı ormandakı
vəhşi dovşanlardan,
o ağrılı və sakit dənizdəki
mirvari dolu sədəflərdən
və o qərib, o fateh dağdakı
cavan qartallardan soruşduq
nə etməli olduğumuzu.

Hamı bilir,
hamı bilir ki,
simurqların soyuq və səssiz yuxusuna yol
tapmışıq biz.
Biz bağda tapdıq həqiqəti -
adsız bir gülün utancaq baxışında.
Və əbədiyyəti tapdıq
iki günəşin bir-biriylə baxışdığı hüdudsuz bir
anda.

Söhbət qaranlıqdakı ürkək bir pıçıldaşmadan
getmir.
Söhbət gündüzdən və açıq pəncərələrdən gedir.
Və təmiz havadan.
Gərəksiz əşyaların yandırıldığı ocaqdan,
başqalarından daha məhsuldar torpaqdan,
doğumdan, təkamüldən, qürurdan gedir
söhbət.
Söhbət ətir, işıq və meh müjdəsiylə
gecələrin üstündə körpü qurmuş
aşiq əllərimizdən gedir.

Çəmənliyə gəl –
böyük çəmənliyə.
Və ibrişim gülləri nəfəs alan kimi
səslə məni.
Tayını səsləyən bir ceyran kimi.

Pərdələr gizli bir qəhərlə dolu.
Və suçsuz göyərçinlər
yerə baxmaqdadırlar
öz ağ bürclərinin yüksəkliklərindən.

MƏNİM SEVGİLİM

Mənim sevgilim
o çılpaq və arsız bədəniylə
ölüm kimi dayandı
güclü baldırlarının üzərində.

Qərarsız, əyri xətlər
onun asi bədən üzvlərini
izləməkdədir
bədəninin silinməz eskizi boyu.

Mənim sevgilim
unudulmuş nəsillərdəndir sanki.
Sanki gözlərinin dibində
daima pusquda dayanıb
atlı bir tatar.
Sanki dişlərinin təravət dolu parıltısında
gizlənib
şikarın isti qanıyla cəzb olunmuş
bir barbar.

Mənim sevgilim
təbiət kimi
qaçılmaz və açıq-aşkar anlama malikdir.
O, mənim məğlubiyyətimlə
təsdiq edir
gücün dəyişməz qanununu.

O, vəhşicəsinə azaddır,
güclü bir instinkt kimi.
Heç kim yaşamayan bir adanın dərinliyində
Məcnunun çadırının parçalarıyla
öz ayaqqabısını təmizləyir o,
küçənin tozundan.

Mənim sevgilim
Nepal məbədindəki bir tanrı kimi
öz varlığının başlanğıcına
biganədir sanki.
O, keçmiş qərinələrin adamıdır,
gözəlliyin əslliyini xatırladır o.

O, öz fəzasında
bir körpə ətri kimi
daima oyatmaqdadır
məsum xatirələri.
O, gözəl və bayağı bir mahnı kimi
sərtlik və çılpaqlıqla doludur.

Səmimi qəlbdən sevir o,
həyatın,
torpağın zərrələrini,
bəşəriyyətin qəmlərini,
pak qəmlərini.
Səmimi qəlbdən sevir o,
kəndin bağçalı-bağlı bir küçəsini,
bir ağacı,
bir qab dondurmanı,
bir paltar ipini.

Mənim sevgilim
sadə bir insandır.
Mən bu sadə insanı
nəhs və əcaib bir diyarda
heyrətamiz bir məzhəbin son nişanəsitək
sinəmin kolluqları arasında
gizləmişəm.

Fars dilindən tərcümə edən:
Məhəmməd NURİ



BİR DƏQİQƏM BİR SAATDIR SAATLIDA

Allahşükür Ağa misradan-misraya, fikirdən-fikrə inkişaf edən şairdir. Bu da onu göstərir ki, o, qəlbinə qəfil gələn tapıntıları deyil, zəhmət və istedadın cilalanmasından yaranan şeirləri vərəqə köçürür. Onun stixiyasında olan bu ardıcıllıq şeirin enişli-yoxuşlu yollarında şairin püxtələşməsinə yaxından kömək edir. Elə şairlər olur ki, ədəbi gündəmi eksperimentlərlə, qəfil poetik misralarla ələ alırlar. Tarix göstərir ki, belələri eksperimentlərini real həyatla bağlaya bilmədiklərindən unudulub gedirlər. Çünki şair uzun müddət eksperimentdə qala bilməz. Allahşükür – belə deyil, o xeyli sayda eksperimentlər eləsə də, onu real həyatla bağlayır, romantikanın ayaqlarını ilıq torpağın üstünə qoyur. Ənənəvi heca üzərindən ədəbiyyata gələn gənc şair yeni fikirlərini, duyğu və düşüncələrini özünəməxsus ədəbi-bədii bir biçimdə oxucuya təqdim edir. O, nədən yazırsa-yazsın, yaşadığı həyatı unutmur, tanış olduğu, duyğularından keçirdiyi hadisələri öz təfəkkürünə uyğun bir şəkildə qələmə alır. Şair bütün şeirlərində yenilik axtarışındadır. Məsələn, aşağıdakı şeirə diqqət yetirək.

Əgər
Pulları çiçəklərə çevirə
bilsəydik,
deyərdim, xanım qız,
Mənə 10 dəstə çiçəyə
bir qadın paltosu verin.
Bu qış mənim sevgi fəslimdir.
O vaxt deyərdilər ki,
müəllimlərin maaşı yüz dəstə çiçəkdir.
Çörək bir çiçək,
işıq pulu bir ləçək.
Pulları çiçəklərə çevirə bilsəydik,
sevgi azalmazdı əsla.

Bu şeir yaşadığımız həyatın çırpınan bir parçasıdır. Şair şeirdə iqtisadi vəziyyətin yaxşılaşması üçün çıxış yolu axtarır, pul islahatı aparmaq arzusundadır. Həm də pulun adındakı rüşvətxorluq damğasını silmək üçün pulları çiçəklərə çevirmək istəyir. Pulun üzərindəki kədəri çiçəklə yumaq fikrindədir. Şair elə bilir ki, pulları çiçəklərə çevirə bilsək, onda çiçəklərdəki gözəllik, saflıq, təmizlik insanların kədərli simalarına bir xoşbəxtlik gətirəcək. Çiçək olan yerdə aclıq, müharibə, ayrılıq və hicran olmur. Şairin əsas qayəsi budur. Burda başqa bir anlam da var. Kim bilir, bəlkə, elə pulun özü də bir çiçək donundandır. Onu biz insanlar iqtisadi maraq baxımından indiki formaya salmışıq. Bəs onda bizim iqtisadi maraqlarımız çiçəklərin ləçəklərini vaxtsız tökməyəcəkmi? Bir şey var ki, çiçəkləri təbiət "istehsal" edir. Onun təmizliyi əbədidir. Pulları isə biz qazanırıq, yaradırıq, bir növ

pul bizim istehsalımızdır. İnsan pula hədsiz bağlananda anamız təbiətdən uzaq düşür. Şair insanların güclü maraq dairəsində olan pulu çiçəklərə çevirməklə təbiəti onların yadına salır, pul islahatı aparmaqla insanları təbiətə qaytarır, düzlüyə, saflığa və sevgiyə səsləyir.

Allahşükürün hadisə və predmetlərə öz baxış bucağı var. Öz istedad və təcrübəsi imkanı daxilində böyük həqiqətləri sadə və aydın dillə deyə bilir.

Qar,
necə də təmizsən,
bir bakirə
qız kimi.
Qaranlıqda ağ işıqsan
göz oxşayan
ay kimi,
ulduz kimi...
Gərək yağmayaydın
bu yer üzünə.
Nə əyrisinə,
nə düzünə
nə soyuğuna,
nə istisinə.
Bıçağın nə kütünə,
nə itisinə.
Gərək yağmayaydın,
yazıq deyildinmi?
Yazığın gələydi
barı özünə.
İndi üstündə bir maralın qanı
sürünür
qırmızı
şərf kimi...

Şair bu şeirdə dünyamıza yağan qarın təmizliyindən söz açır. Bəlkə də, qar, yağış ona görə yağır ki, Allah-Təala dünyamızı təmizləyir, onu saflaşdırır. Qar safdır, təmizdir. Amma gör o, hara yağır? Adi bir təbiət hadisəsinə şair ictimai mənalar verir. Qar əyriyə də yağır, düzə də. Bıçağın iti ağzına da yağır. Bıçağın iti ağzı ictimai-sosial həyatdır. Qar bıçağın iti ağzına çırpılmaqla həyatı hiss eləyir, ulduzları parçalanır, biz görə bilmədiyimiz hissəcikləri göz yaşına dönür. Amma bıçağın küt ağzı da var, qar ora da yağır. Bıçaqla təbiət üz-üzədir. Qar bıçağın iti ağzına humanizm dərsi keçir. Bu mümkün deyil. Çünki onun dəstəyi qana susayan insanın əlindədir. Qarşı-qarşıya qoyulmuş bıçaq və qar detalı, əslində, üz-üzə dayanmış və həm də gözəl həmqafiyə olan cəmiyyət və təbiət məsələsidir. Fikir ver, qarın üzərində maralın qanı qırmızı şərf kimi sürüşür. Bu da qara və təbiətə insan və cəmiyyət tərəfindən verilən ən tutarlı cavab. Şeirdə əsas məqsəd budur ki, şair təbiət və cəmiyyəti barışdırmaq istəyir. Şair böyük sülh bəyannaməsini bıçaq və qar üzərində qurur.

Allahşükürün bütün yaradıcılığında əsas bir ideya var: Təbiət və cəmiyyət məsələsi. Təbiətin cəmiyyət üzərində qələbəsini təmin etmək şairin başlıca arzusudur. Bu arzu cəmiyyətin eroziyaya uğramış hissəsinə təbiətin kömək əlini uzatmasıdır. Fikrimizi dəqiqləşdirmək üçün aşağıdakı şeirə diqqət yetirək.

Ərəblər gəlib Muğana,
Ov ovlayır, quş quşlayır...
Açılan güllələrdən
Gülün köçü başlayır.
Hara getsin bizim quşlar,
Canında güllə gəzdirir.
Üşüyən ayaqları
İndi də güllə qızdırır.
Hara getsin bizim quşlar,
Belə güllə görməyiblər..
Yuvaların qapısını
Tikməyiblər, hörməyiblər…
Ərəblər gəlib Muğana,
Güllə dəyir quşlara.
Quşlar dəyir buludlara,
Buludlar dəyir uşaqlara…

Bu şeir adi bir xəbərdən götürülmüş mövzudur. Qəzet və internet saytlarında yazıldı ki, ərəblər Muğana gəlib ov edirlər. Bu xəbərdən şair təsirlənib çox gözəl bir şeir yazıb. Adi xəbər şairin qələmində maraqlı bir mətnə, dəyərli bir ədəbi-bədii nümunəyə çevrilib. Yenə də eyni məsələ, təbiət və cəmiyyət məsələsi ön plandadır. Yenə təbiətə güllə atırlar. Yenə soyuq qış günündə quşların ayaqlarını güllə, barıt tüstüsü qızdırır. Bütün quşlar canında güllə gəzdirir. Təbiətə atılan güllələr heç kəsin eyninə deyil. Adamlar bunu adi ov kimi başa düşür. Amma adamlar bilmirlər ki, güllələr quşlara dəyir, quşlar da buludlara, buludlar da yerdə uşaqlara dəyir. Yəni güllə dəymiş bulud yağış kimi yağanda uşaqlar islanır və güllə onların canını yandırır. Dolayısı yolla uşaqlar güllələnir. Fikir verin, uzaqdan-uzağa ərəblərin gülləsi gəlib bizim uşaqlara dəyir.

Bu, çox maraqlı, orijinal, həm də ciddi ədəbi-bədii, ictimai-siyasi, sosial bir şeirdir. Cəmiyyət və təbiətin atışmasıdır. Şair bu mesaji Azərbaycan cəmiyyətinə ünvanlayır.

Allahşükür Ağanın şeirlərində ədəbi lövhələr üstünlük təşkil edir. Bu, sadəcə təbiət lövhələri deyil, bu, cəmiyyətlə təbiətin birlikdə çəkdirdiyi şəklə bənzəyir.

Şairin başqa bir şeirinə baxaq:

Qızarmış üfüq günəşi top kimi atardı
göy üzünə.
Günəş uçardı rəqib qapısına –
günbatana...

Hamımız şeirdə təsvir olunan bu mənzərəni həyatımız boyu görmüşük, günəş doğur və batır. Kainat, sən demə, günəş adlı topu Gündoğandan Günbatana vururmuş. Top da Günbatan adlı qapıdan keçir. Əgər keçməsə, nə olar? Bu, təbiətin nizamıdır. Keçməsə, dünya dağıla bilər. Günbatan Gündoğana həmişə məğlub olur. Çünki dünya əbədidir.

Aşağıdakı şeir hər gün rast gəldiyimiz adi bir mənzərədən götürülüb. Bir saniyə müddətində çəkdirdiyimiz adi bir şəkildə şair milyon ilin əbədiliyini axtarır. Çox qəribədir. İnsan ölür, nə fərqi var, indi öldü, yoxsa milyon il əvvəl, heç nə dəyişmir. İndi çəkilən şəkil, nə fərqi var milyon il əvvəl çəkilib, yoxsa indi? Qəribə təzaddır, elə deyilmi? Amma bu təzaddan şair çox maraqlı bir şeir yaradıb.

Lap elə indi
Bir şəkil çəkdirdinmi,
Arxasına beləcə də yazmaq olur:
Milyon il əvvəl
Yaşamışlar.

Qocalar haqqında çox şeirlər yazılıb. Məsələn, Nizami Gəncəvi deyir; qocaların beli ona görə əyilir ki, onlar itən gənclik illərini axtarırlar. M.Füzuli daha orijinal bir variant tapır; qocaların beli ona görə əyilib ki, onlar dünya qapısından çıxmağa hazırlaşırlar. Bəs Allahşükür Ağa necə deyib? Bu da onun min ilin qocalıq şeirinə əlavəsi.

Sual işarəsinə oxşayır qoca,
Sualın içində yaşayır qoca,
Yol gedir, yol gedir xatirələrə.

Allahşükür Ağa gözəl gəraylılar müəllifidir. Onun gəraylıları dağa, daşa yazılmayıb. Yenə ictimai məzmun önə çıxıb. İnsanı oynadan nədir? İçindəki hava. Bu, təkcə oyun havası deyil. İnsanın ictimai-sosial ovqatı onu oynadan havadır. Şair belə deyir. Şeiri oxuyaq.

Hərənin içində hava,
Hərə bir sözə oynayır...
Yoxuşlar üzü dağlara,
Enişlər düzə oynayır...

Misralardan evcik qurub,
Gah yorulub, gah oturub,
Yuxudan təzəcə durub,
Bu adam təzə oynayır...

Şükür olsun bu xoş günə,
Vaqif ol dünya felinə,
Var-dövlət verir əlinə,
Qarşında gürzə oynayır.

Doğrudan da, yoxuşlar dağa, enişlər düzə oynayır. Burda yaşamağın, hərəkətin adı oynamaqdır. Bu oyunda köhnə olan da var, yeni olan da. Şairin haqlı bir nidası var bu bazarda. “Vaqif ol dünya felinə”, yəni heç nəyə aldanma. Bax gör, bu dünya kimin əlinə var - dövlət veribsə, qarşısında da gürzə oynadır. Gürzə taledir, sondur, ölümdür, qəbir evidir. Harda var-dövlət varsa, orda gürzə var. Ona görə də şair insanları dünya felinə vaqif olmağa çağırır.

Şair dostum bütün şeirlərində təbiət və cəmiyyəti barışdırmağa çağırır. Məncə, gözəl çağırışdır. Bu çağırışa eşq olsun!

Qəşəm NƏCƏFZADƏ

SEVİNC

* * *

Sən ayrılıb gedəndən
Olmuşam çox ağıllı,
Sən məni tərk edəndən
Saçlarım da sığallı.
Daha makiyaj etmədən
Çıxmıram çöl-bayıra.
Ağlıma da gəlməzdi,
Bir yol gəlib nə vaxtsa
Səni məndən ayıra.
İndi olmuşam vecsiz,
İnsanları sevmirəm.
Deyirəm, gecikmisiz,
Ondan sonra heç kəsi
Sevmək də istəmirəm.
İndi evə gec gedib
Səhər tezdən çıxıram,
Təəccüblənib eləmə -
Özüm deyirəm, bil ki,
Səndən heyif çıxıram.
İndi daha hər mahnı
Ağlada bilmir məni.
Atmışam hər günahı,
Ata bilmirəm səni.
Mən bütün günahlara
Sənin ilə batmışam,
Sən adlı günahımdan
Bir sevgi yaratmışam.
Gedəndə nə demişdin?!
Heç biri düşmür yada.
Guya ki, çox sevmişdin,
Çətin məni bu söztək
Bir də nəysə aldada.
Təzə iş də tapmışam,
Vaxtım sənsiz tez keçir.
Səni də unutmuşam,
Amma
bir sıxıntı var -
Bütün yollar dolanıb
Sənin küçəndən keçir.
Nə tapıb bilmirəm ki,
Ayaqlarım hər dəfə
Getmək üçün o yolu
Özü bilərək seçir…
Mən səni itirmişəm,
Gözlərimsə axtarır.
Onu güc-bəla ilə
Düz yola gətirmişəm…
Sehrli çubuq ola,
Göz yaddaşımı silə
Bəlkə də, belə-belə
Sənsizliyə alışa…
Şeirlər də misradan
Bircə-bircə tökülə…
Sən məni tərk edəndən
Xoşbəxtlik axtarıram,
O da vəfasız çıxıb,
Sənə qoşulub gedib,
Sən uzağa gedəndən
O da məni tərk edib...

* * *

Mən payız qadınam -
Bənizi solmuş
Buludlar göylərdə
Mənimçün dolmuş…
Əllərim soyuqdu
Havalar kimi,
Baxışım donuqdu
İnsanlar kimi
Mən payız qadınam.
Dilimdən çətin
Şirin söz duyasan…
Sevəsən məni
Sevgim külək olar,
Üşüdər səni…
Mən payız qadınam -
Saçlarım sarı,
Ağaclar dibində
Yarpaqlar kimi
Sevərsən payızı…
Günün birində
Kim bilir,
Bəlkə də,
Uşaqlar kimi…
Mən payız qadınam -
Girsəm ömrünə,
Soyuqluğum kəsər,
Üşüdər səni…
Mən payız qadınam -
Ovcumda ümid ,
Bəlkə, külək əsər,
Qoşaraq yelə
Aparar gələcək
Günlərə səni…
Mən payız qadınam -
Kimisi mənlə yaşar,
Kimisi məndən keçib
Başqa fəsillər sevər,
Sevgidən şeir qoşar.
Mən payız qadınam -
Sığınsan mənə,
Müdrikləşərsən,
Nə olacaq deyə
Fikirləşərsən.
Mən payız kimiyəm
Bir az hüzurlu,
Bir az cansıxıcı.
Bir az unutqan…
Mən payız qadınam -
Toxunsam bir az sənə,
Aşiq olarsan mənə
Gözlərimdə boğulub
Yenidən doğularsan.
Mən payız qadınam -
Ömrün qürub çağını
Mənimlə yaşayarsan…
Mən payız qadınam -
Gəlmək istəsən mənə,
Yollar leysan olacaq.
Getsən, onsuz, fərq etməz.
Dönüb dolaşaram mən,
Yenidən görüşərik.
Nə vaxtsa bir küçədə
Yağar yağış üstünə…
İslanarsan yağışda,
Qovuşarsan payıza,
Payız olar üst-başın
Sevgin olar sarışın,
Yoluxarsan payıza,
Bir andaca sevərsən…
Məni səndən soruşan
Hər kəsə bircə kəlmə
"O Payızdır" deyərsən…

Əli Şirin ŞÜKÜRLÜ

DÖRDLÜK

(povest)

* * *

Özünə gələndə artıq sahildə idi. Əvvəlcə nə baş verdiyini anlamadı. Yaddaşı bərpa olunduqca gəmidə baş verən qəzanı xatırlamağa başladı. Suda xeyli üzdüyünü də xatırlayırdı. Sonrası yadında deyildi. Həyatının yaddaşına yazılmayan həmən parçasında nə baş vermişdi, necə olmuşdu, sağ qalmışdı, onu sahilə ötürən dalğalar olmuşdu, yoxsa başqa bir möcüzə sayəsində bura sağ-salamat yetişmişdi, anlaya bilmirdi. Təkcə onu bilirdi ki, bir müddət üzdükdən sonra yorulub haldan düşmüş və real aləmlə əlaqəsi kəsilmişdi. Bundan sonra isə hər şey qaranlığa qərq olmuş və o, zülmətin dərinliyində parlayan hansısa işığa doğru uçduğunu ani olaraq hiss etmişdi. Vəssalam. Düşüncəsi reallıqla əlaqəni itirdikdən sonrakı zaman-məkan müstəvisində sağ qalması üçün onun dadına nə çatmışdı, məlum deyildi.

İndi sahildə uzanıb ətrafı seyr edirdi. Heç nə, heç kəs gözə dəymirdi. Zorla qalxıb oturdu və yenidən ətrafı diqqətlə nəzərdən keçirdi. Dənizdən, qumlu sahildən başqa ətrafda heç nə movcud deyildi. Yox. Bir də dayandığı nöqtədən ətrafa yayılmış hüdudsuz boşluq var idi - bəyaz boşluq. Boşluqdakı imkana bələd idi. Ağ səhifəyə bənzəyər boşluq, nə istəsən, yazmaq mümkündü o səhifəyə. Bircə yazılan ağ rəngdə olmasın. Rəng rəngə qarışar yoxsa, oxunmaz. Elə talelər də boşluq adlı ağ lövhədə fərqli - qara, qırmızı, boz və sair rənglərdə yazılır ki, oxunsun. Başdan ayağa imkandı boşluq, özü də hüdudsuzundan.

O boşluqda isə bu da tənhalıq - taleyinə yazılan. Yox, buna tənhalıq da demək olmazdı. Tənhalıq çoxluğun doğurduğu hissdir. İnsan tənhalığı çoxluğun arasında yaşaya bilər. Cəmiyyətdən təcrid olunmuş məkanda nə tənhalıq. Bu, yalnız təklik ola bilər. Narahatlıqqarışıq sevinc hissi keçirdi ani olsa da. Qalxıb gəzməyə başladı.

Hiss edirdi ki, hərəkət etdiyi yol tədricən əyilib, qovsvari şəkil alır. Yaşadığı məmləkətdə isə bütün yolları düzxətli hesab edirdi. Sanki bütün gediş-gəlişlər düz xətt boyunca baş verirdi o məmləkətdə. Nədənsə yolların əyilməsini hiss etmək mümkün deyildi oralarda. Belə düşünməsinə səbəb, bəlkə də, son illər həyatında baş verən dəyişməzlik, monotonluq idi. Burada isə hərəkət etdiyi yol çevrə şəklini alırdı yavaş-yavaş.

Bir müddət sonra dalğaların (hər halda daha çox bu versiya üzərində dayanırdı) onu sahilə təhvil verdiyi yerdə dayanmışdı. Adaya düşdüyünü anladı. Üzündə təbəssüm yarandı. Ada macəraları ilə bağlı çoxlu kitab oxumuş, filmlərə baxmışdı. Düşündü, bəlkə, tam özünə gəlməyib, hələ də zülmətdəki bir parça işığa düşdüyü o anın içindədi, lakin real həyatda olduğunu zənn edir, özünə gələndə gördüklərinin qeyri-real olduğunu anlayacaq. Amma hələ ki, imkandan istifadə edib bu vəziyyəti doyunca seyr etmək istəyi hiss edirdi özündə.

* * *

Vaxt ötürdü. Amma vəziyyət dəyişmirdi, deyəsən. Elə həmən ada, həmən tənhalıq. Daha doğrusu, təklik. Çaşqınlıq içində bir az da gözlədi. Az əvvəl sevinmişdisə də, indi bir narahatlıq bürüməyə başlamışdı varlığını. Düşüncəsi gözlənilməz dəyişikliyin gətirdiyi çaşqınlıqdan azad olduqca narahatlığı artırdı. Uzun müddət sakitlik axtarsa da, indi bu adada tək-tənha necə yaşayacağı və buradan necə qurtulacağı barədə fikirlər ona rahatlıq vermirdi. Hər şeyi yalnız təsadüf həll edə bilərdi. İndi onun taleyi ancaq təsadüfdən asılıdır. Baxmayaraq, heç vaxt təsadüfə inanmayıb, baş verən bütün hadisələri qanunauyğun hesab edib.

Çalışdığı elmi sahə təsadüfi hadisələrin və proseslərin öyrənilməsi ilə bağlı olsa da, təsadüfiliyi insan idrakının imkanları ilə, daha dəqiq, imkanlarının məhdudluğu ilə əlaqələndirir, onu bilməzliyin nəticəsi hesab edirdi. Təsadüf anlayışı hadisələr arasında əlaqəni bilmədikdə ortaya çıxır. Hər bir təsadüf zərurilikdə baş verir. Buna görə də hazırda onun taleyini xalis təsadüf yox, zərurətin doğurduğu təsadüf həll edə bilərdi.

Təsəlli olaraq söykənməyə çalışdığı bu fikirlərin əksəriyyəti, əslində, ona məxsus yeni fikirlər deyildi. Təsadüfiliyə çoxlu fəlsəfi, elmi münasibətlər var ki, o da bunların bir qismi ilə tanış idi. Yoxsa öyrəndiyi təadüfi proseslərin modelini yaratmağa nail ola bilməzdi.

Gözləməyə məcbur idi. Gözləmək üçünsə yaşamaq lazımdır. Bəlkə, hansısa zərurət elə hansısa təsadüfi qabağına qatıb qovur ona sarı.

* * *

Nəhayət! Təklik başa çatırdı, deyəsən. Fikirdən ayılarkən qarşısında qəribə nəhəng bir varlığın dayandığını gördü. Əvvəlcə diksinib, azca geri çəkildi. Qorxudan bir anlıq duruxub yerində tərpənməz dayansa da, sonra ona elə gəldi ki, bu qəribə varlıqdan ona bir xətər toxunmaz. Toxunsaydı, gərək artıq toxunaydı. Çünki o, xeyli fikrə dalmışdı və yəqin, elə bu müddət ərzində qəribə varlıq da onu müşahidə edirmiş. Bir də bu qəribə varlığın ona xətər yetirmək niyyəti olduğu təqdirdə belə əlindən heç nə gəlməzdi və bu nəhənglik qarşısında aciz idi.

Çox qəribə görkəmi var idi varlığın. Sanki müxtəlif varlıqlar bir vücudda cəm olmuşdu. Amma əsasən dörd varlığı xatırladırdı: quş, balıq, ağac, heyvan. Varlığa baxarkən müxtəlif quşları, balıqları, heyvanları, cürbəcür ağacları xatırlamaq olurdu. Ağaca da bənzəyirdi, gül koluna da. Dik də dayana bilirdi, əyilib heyvan kimi dördayaq da olurdu. Üstəlik uça da bilirdi Z. onu heyrət və təlaş içində müşahidə etdiyi vaxt arada havaya qalxıb, tez də endi. Yəqin bununla da özünü Z.-ya təqdim edirdi.

Z. özünü ələ alıb ona yaxınlaşmaq qərarına gəldi. Nəhəng varlığa sarı bir neçə addım atıb gülümsədi. Varlıq onun bu hərəkətinə cavab olaraq qəribə tərzdə təzim etdi. Bu vaxt o, daha çox gül koluna bənzəyirdi. Bu cür münasibətdən ürəklənən Z. özlüyündə ona ad da verdi: Dördlük.

* * *

Z. nə baş verdiyini anlayırdı artıq. O, indi yalnız təbiətlə baş-başa idi. Yaşadığı şəhər həyatı, gərginlik, qələbəlik son vaxtlar onu yormuş, içində təbiətə qeyri-ixtiyari güclü meyl yaratmışdı. Düşünürdü ki, cavanlıqda cəmiyyət adamı daha çox cəlb etsə də, yaş keçdikcə təbiətə maraq artır.

Bu da arzusunda olduğu təbiət. Özü də cəm olaraq bir varlıqda təzahür edib qarşısında. Dördluklə tanışlığa qədər bu tənha adada narahatlıq keçirsə də, indi tam sakit idi. Əslində, bu rahatlığı ona bəxş edən Dördluk idi. Onun sayəsində heç nədən əziyyət çəkmirdi. Demək olar, heç nədən. Aclıqdan söhbət gedə bilməzdi. Meyvəsi də var idi, südü də. Hələ uçmaq ümidi də. Özü də "nəhəngin"dən. Bu ümidi də ona bəxş edən Dördlük idi.

O qədər isnişmişdilər bir-birinə, Z.-nın əhval-ruhiyyəsindən asılı olaraq Dördlük də dəyişirdi. Dəyişiklik onun görkəmində baş verirdi. Daha doğrusu, dəyişikliyi ilk növbədə zahirdən sezmək olurdu. Amma Z.-ya məlum idi ki, heç bir dəyişmə səbəbsiz baş verə bilməz. Dördlüyün zahirində baş verən dəyişiklik onun daxili, görünməyən aləmi ilə bağlıdır. Deməli, onun döyünən həssas ürəyi, düşünə bilən beyni var. Z. sevinəndə Dördlük daha çox gül koluna bənzəyirdi rəngbərəng çiçəkləri ilə. Məyus olanda ağacı xatırladırdı yarpaqları solmuş, qol-budağı sallanmış. Z. əsəbi, gərgin olanda yırtıcı heyvan şəklini alırdı Dördlük. Qarşısında nə varsa parçalamağa hazır idi, elə bil. Qumlu sahildən yorulduğu məqamlarda iri balığa çevrilib dənizdə

səyahət sevincini bəxş edirdi Z.-ya. Darıxanda isə nəhəng quşa bənzəyirdi; sanki "hər zaman məkanını dəyişə bilərsən sayəmdə" ismarıc ünvanlayırdı insan dostuna. Dördlükdə baş verən forma dəyişmələri ilə bağlı mənzərələri tez-tez müşahidə edə bilirdi Z. Bu dəyişmələrə səbəb hadisələrin bir qismi ilə biz də tanış ola bilərik, amma bir qədər səbrli olmaq gərəkdi. Bir balaca səbrli olmaq gərəkdir ki, gəlib o məqama yetişə bilək

Beləcə, günləri yola salırdı Z. təbiətlə qol-boyun. Yaşadığı bu sakit, təbiətin bəxş etdiyi səmimiyyət dolu həyat onu qane edirdi. Anlaşılmaz bir rahatlıq və fərəh içində yaşayırdı Z. hələ ki. Dördlüklə ünsiyyət arabir keçmişə aparırdı onu xəyalən. Məkandan fərqli olaraq zamanı yalnız xəyalən səyahət edə bilirdi. Keçmiş hadisələr düşüncəsində real təsvirlərlə zəngin idi. Gələcək isə gəlməkdə idi və keçmişə çevrilməyənə qədər düşüncəsi orada movcud olan heç bir hadisəni dəqiq təsvir etmək iqtidarında deyildi. Yalnız müəyyən məqamlarda gələcək hadisələr barədə fərziyyələrlə dolub daşa bilirdi.

* * *

Bir günsə baş verən bir qədər romantik-sentimental hadisə yenə də onu xəyalən keçmişə - öz məmləkətinə qaytardı. Z.-nı birdən səbəbi özünə də məlum olmayan insana xas bədbinlik bürümüşdü. Dördlüyə qısılıb fikrə dalmışdı. Birdən yanağında ilıq nəsə hiss elədi, göz yaşına bənzər. Damcı yanağı boyu sürüşüb dodağına çatınca onun, doğrudan da, göz yaşı kimi şor olduğunu fərq etdi. Başını qaldırarkən Dördlüyün yarpaqlarından süzülən damcıları gördü.

Bu hadisə ona görüşdüyü qızla ilk sevgi səhnəsini xatırlatdı. Ehtiraslar sönəndən sonra arxası üstə uzanıb fikrə dalmışdı. Qızsa bərk-bərk ona qısılmışdı. Fikirləşirdi ki, hər şey tükəndi. Bu qədər istəyin nəticəsi elə budur?! Bir neçə dəqiqəlik sevgi səhnəsi. Bu cür sevgi, bu dərəcədə istək, ehtiras bir də yaranmaz, - hazırki vəziyyətini hər şeydən doyan adamın vəziyyəti ilə müqayisə edirdi. Elə buna görə də bəri başdan qızı həmişəlik tərk edib getsə, yaxşı olar; sevgisiz, ehtirassız münasibətin nə mənası?!

Amma hələ ağlına da gəlmirdi ki, bütün istəklərin qaynaqlandığı tələb adlı mənbə var. O tələb də daim istək adlı duyğu "istehsal edir". Nə qədər tələb movcuddur, o qədər də istək olacaq. Tələb insanı fəaliyyətə gətirən istəkdən öndədi, ilkindi. Hətta ağıldan belə əvvəldə bərqərar olub. Qalır tələbdən doğan istəkləri ağılla idarə etmək. Həm də təkcə insanın deyil, bütün kainatın mahiyyəti tələb - ağıl - istək birgəliyindən ibarətdir.

Dodağında hiss etdiyi göz yaşı tamı onu qarışıq fikirlərdən ayırıb qızın yanına qaytardı. Qızı bir də əzizləyib sevə bilməyəcəyi qorxusunu yaşayan gənc Z. çox keçməmiş yenidən qızı ağuşuna aldı. Sevginin ilk yaxın təmasını dadan qızın titrək səslə " sən məni həmişə sevəcəksən?" – müraciətinə az əvvəl fərqli düşünməsinə bax-mayaraq, "həmişə" – deyə cavab verdi. "Mən də. Həyatımı başqa cür - sənsiz təsəvvür edə bilmirəm" - qız sevdiyi adamın cavabındakı qətiyyətdən mütəəssir oldu.

Amma "həmişə" də yaranmışlar üçün məhdud zaman kəsiyidi, daimilik mənasını versə də. Tezliklə evlənməyə qərar vermişdilər. Lakin bir gün qızın qəfil yoxa çıxması vəziyyəti tamam dəyişdi. Nə qədər axtarsalar da, qızı tapa bilmədilər. Elə bil qız bir anın içində qeybə çəkilmişdi. Bütün doğmalar kimi o da uzun müddət ümidlə gözlədi. Necə olmasından asılı olmayaraq, qız barəsində hər bir xəbər təsəlli ola bilərdi doğma adamlara. Hətta xəbərlərdən ən ağırı belə. Elə o cür də oldu. Xəbər aldılar, nəhayət - xəbərin ən ağırını. Adi bir qəza qızı varlıqdan yoxluğa çevirmişdi bir anın içində. Bu hadisəni xatırlayanda sonsuz əzab çəkdiyindən hadisə ilə bağlı təfərrüatları düşüncəsindən qovmağa, müəyyən vasitələrlə sıxışdırıb kənarlaşdırmağa çalışırdı. Amma heç bir hadisənin təsvirini düşüncədə yox etmək mümkün deyil, o, qeyri-ixtiyari düşüncənin hansısa qaranlıq bir hissəsində həmişəlik məskan salır.

Neçə il keçməsinə baxmayaraq, o dəhşətli anları hər xatırlayanda özünə yer tapa bilmirdi. Hər yerdə izini axtarırdı sevdiyi qızın, yaşadığı sevginin; yəni bu qədər fanidir hər şey, belə asanlıqla heçliyə çevrilə bilər yaranan, yaşanan nə varsa. Insan, insanın yaşadığı və bəxş elədiyi sevgi belə asanlıqla necə yox ola bilər axı bir anın içində! Varlıqla yoxluq, yəni bu qədər yaxından müşayiət edər bir-birini, anla ölçülən, az qala zamansız bir məsafə movcuddur onların arasında?!

Belə anlarda yalnız xatirələr yetirdi dadına.

İnsan yalnız xatirə imiş - indi fərqli, cəmiyyətdən məhrum bu adada belə düşünürdü. Görünür, doğrudan da, insanın mahiyyəti düşüncədir. Düşüncədən məhrum olmaq yoxolmadır. Dünya elə insanın içindədir, ondan kənarda heç nə mövcud deyil. Dünya elə insanın düşünə bildiyi qədərdir. Sevdiyi qız da indi onun düşündüyü qədər movcuddur onunçun harada olmasından asılı olmayaraq. Bəlkə, heç məkanı da yoxdu onun artıq. Bədəni soyundusa, məkan da itdi, hərəkət də, zaman da. Bədənə hörülmüşük deyə bir məkanı zaman-zaman başqasına dəyişə bilirik.

* * *

Bir müddət əvvəl qələbəliklə dolu şəhəri indi səssizliyə qərq olmuş, yalnız Dördlükdən ibarət bu ada-məkan əvəz edirdi.

Z. ilə dostlaşdıqdan sonra Dördlük də fəallaşmışdı elə bil. Sanki o da bu insan dostuna qədər təklikdən əzab çəkirmiş. İndi bir məmnunluq hissi yaşayırdı daxilən. Z. bunu dərindən duya bilmirdi. Çünki Dördlüyün dəyişməsini öz əhval-ruhiyyəsi fonunda seyr edə bilirdi. Onun daxili yaşantılarının üzdə olmayan tərəflərini dərindən anlamaq iqtidarında deyildi. Baxmayaraq, elmi işləri hadisələrin fizikası ilə yanaşı onun fəlsəfəsini də anlamağı tələb edirdi. Hətta nəinki fizikasını, hətta metafizikasını da. Amma, görünür, insan idrakının məhdudluğu kainatda çox şeyi anlamağa imkan vermirdi. Lakin bir şeyə əmin idi Z. Bütün kainat yüzə-yüz insana hesablanıb. Heç nə elə-belə yaranmayıb. İnsana adi görünən yaranışlar belə kainatda harmoniyaya xidmət edir. Onlardan hansınınsa yerində olmaması bir zaman-məkan boşluğu yaradıb, kainatın nizamını poza bilər. Elə çoxlu varlığın bir vücudda cəmlənib, insanın hazırkı vəziyyətdə dadına yetməsi buna sübutdur. Sanki onun hazırda yaşamasının səbəbi də Dördlüyün mövcudluğudur.

* * *

Təkcə torpaq deyil, su da cəlb edir adamı. Elə səma kimi. Səmaya olduğu tək dənizə də baş vurmaq keçir insanın könlündən. Özü də dərinliklərinə. Dərinlik, əlçatmazlıq daim çəkər adamı özünə sarı. Bəzən təhlükəli olsa da, çıxa bilmir adam zülmətdə uyuyan əlçatmazlığın, sirr dolu dərinliyin cazibəsindən.

İdrakının aşa bilmədiyi sərhədi pozmaq keçirdi könlündən Z.-nın. Bir anlıq adadan aralanıb, dənizin sonsuzluğuna qovuşmaq istəyirdi. Həm də adadan müvəqqəti ayrılmaq ora qayıtmağa yeni istək yaradacaqdı onda. Çünki olduğu yerlərə qayıtmağı sevirdi o. Təzədən adanı sevmək üçün getmək lazım idi buralardan. Az müddətə olsa da belə. Getməyin də görünməyən, sirli məqamları var. Haradansa, kimdənsə gedirsən və sonra darıxıb qayıdırsan. Yeni istək fərqli qüvvə ilə dartır adamı geriyə.

Dördlük iri balığa çevrilib üzürdü dənizin dərinliklərinə. Dostu da belində. Yeni bir sevinc idi dənizə balıq çevikliyi ilə baş vurmaq. Sərbəst, azad, qorxusuz. Bir yandan da dənizin şəffaflığı. Sanki ruhu təzələnirdi bu çeviklik və şəffaflıqdan.

Nə qədər davam etdi bu fərəh, fərqinə var-madı Z. Elə bil bir ömür yaşamışdı dənizin qoy-nunda. Sadəcə, bu dəfə rastlaşdığı ən bənzərsiz mənzərə balığın gözləri idi. O qədər məna vardı bu gözlərdə, hələm-hələm insan gözlərində o mənaya rast gəlməzsən.

İlk dəfə balıq tutmağa gedərkən məktəbdə oxuyurdu. Deyəsən, bu, onun elə sonuncu balıq ovu oldu. Sonra balıq ovuna getməsini xatır-lamırdı keçən otuz il ərzində.

Onu balıq tutmağa aparan sinif yoldaşları bu işdə səriştəli idilər. Balıq ovu üçün hazırlanmış xüsusi tora onun yaşadığı bölgədə "moluş" deyirdilər. Bəlkə, başqa bölgələrdə də elə moluş deyirlər, onu dəqiq bilmirdi. Əsas məsələ ilk dəfə sudan diri çıxan balığı görməsi idi. Moluşa tuş gələn balıqları moluşqarışıq sevincək sudan çıxarıb, kanalın qırağındakı torbaya atırdılar. Balıqlar bir qədər atılıb-düşərək ölümlə mübarizə apardıqdan sonra təslim olub, sakitləşir, doğma məkandan əbədi ayrılırdılar.

Beləcə, o gün xeyli sevinc bəxş etdi dostlara balıq ovu. Hər sevinc də balıq ölümü sayəsində baş verirdi. Hər ölüm yeni sevinc bəxş edirdi

onlara. Balığın iriləri onun payına düşdü o gün. Necə olsa bu işdə o, "təzə" idi, dostlar da təzə balıqçının zəhmətini layiqincə qiymətləndirdilər.

Amma o gün hamıdan çox sevinən Z.-nın nənəsi oldu. Necə olsa yeganə oğul nəvəsi ilk dəfə qazanc gətirirdi evə. "Bu balıqları barmağımla bişirəcəyəm ocaqda" - bir neçə dəfə sevinə-sevinə uca səslə təkrarladı nənəsi. Elə bil istəyirdi hamı onu eşitsin, hamı eşidib onun sevincinə şərik olsun həm də.

O gündən Z.-ya xatirə qalan balıq gözləri oldu; diri balıqların ölü gözləri. Demə, diri balıqların da gözləri ifadəsiz, donuq olurmuş, elə ölü balıqlar da olduğu kimi. Bəlkə də, onların gözləri yalnız suda - doğma məkanlarında məna kəsb edir, oranı tərk edən an mənasını itirir, elə ilk ölən də gözləri olur balıqların.

Indi tamam fərqli mənzərə ilə rastlaşmışdı. Dostu Dördlüyün dipdiri balıq gözləri onu təəccübləndirmişdi.

* * *

İnsan kimi Dördlük də bəzən nəvazişə susayırdı. Axı onun da varlığında canlıya məxsus müəyyən hisslər dolaşırdı. O nəvazişi də yalnız Z.-dan ala bilərdi. Z. isə elə düşünürdü bu varlıq yalnız ona xidmət etmək üçün yaranıb. Onun varlığı bir arxayınlıq yaratmışdı Z.- da. Çox vaxt biganə yanaşırdı dostuna. Biganəlik - insanın xislətində özünə əməllibaşlı yer eləmiş bu xüsusiyyət, hətta müəyyən məqamlarda insanın karına da gələ bilir. Özünü cəmiyyətdə vacib bir şəxs kimi göstərməyə yardımçı olur. Amma həmişə də özünü doğrultmur. Bəlkə də, cəmiyyəti bu cür "oyunbazlıq"larla müəyyən məqamlarda aldatmaq olar, təbiəti isə aldatmaq mümkün deyil. Aldatmağa çalışdın - bəzən üzdə bilinməsə də - bir çat əmələ gələcək arada və o çat getdikcə uçuruma cevriləcək.

Həmişə ehtiyac hiss edərkən - darıxarkən, sevinərkən, məyus olarkən Dördlüyə sığınan Z. bu dəfə fərqli mənzərə ilə rastlaşdı. Dördlük özü ona yaxınlaşmaq, ona qısılmaq istəyirdi, sanki ünsiyyətə ehtiyacı vardı onun. Lakin Dördlüyü öz istəkləri prizmasında görən Z. bunun fərqinə varmadı o qədər də. Elə bu zaman bu vaxta kimi rastlaşmadığı bir mənzərənin şahidi oldu və bu mənzərədən üşəndi. Ilk dəfə idi Dördlüyün yırtıcıya çevrildiyinin şahidi olurdu. Özü də gözlərindən qəzəb yağan yırtıcıya. Bir qədər duruxsa da tələsik çıxış yolu barədə düşünməyə başladı. Hələ ümid var idi. Çünki dostunun gözlərində hələ ki təkcə ani qəzəb doğulmuşdu, kin özünə yer eləməmişdi. Qəzəbi isə soyutmaq mümkündü həmişə. Tez alışıb, tez də sönən alova bənzəyər. Kin isə uzunmüddətli qəzəbdir. Yandırıb kül etməsə, inadından əl çəkməz.

* * *

Nə vaxtsa sevimli heyvanın gözündə sezdiyi kinin ağır nəticəsini yaşamışdı. Bəlkə də, heç on yaşı olmazdı Z.-nın. O zaman kənddə yaşayırdılar. Bir iti var idi və bu it o qədər öyrəşmişdi ona, demək olar, hər yerdə yanında idi. Qohum evinə getsəydi, oturub həyətdə onu gözləyərdi. Dostları ilə oynadığı yerlərdə isə daima yaxınlıqda dolaşardı. Bir sözlə, hər yerdə onunla idi. Bircə məktəbə olmazdı! Bunu it də anlayırdı elə bil. Məktəbdən qayıdar-qayıtmaz dərhal qarşısında peyda olub, qabaq ayaqlarını qaldıraraq onunla oynamaq istəyərdi. Belə bir dostluğa rəğmən o vaxt da gözlənilməz bir mənzərə ilə rastlaşmışdı.

Günlərin birində yemək yeyən iti bir neçə dəfə hirsləndirməyin acısını yaşamalı oldu. İtin gözlərindəki qəzəbi əvəz edən kin ona baha başa gəldi. Sevimli iti gözləmədiyi halda nifrətlə üstünə atılıb onu ayağının şirin ətindən qapdı. Böyük bacısı özünü yetirməsəydi, bu nifrətin axırı necə olacaqdı, onu bir Allah bilir. Çünki it elə qəzəblənmişdi, bir anın içində sevimli dostdan ən qəddar düşmənə çevrilmişdi. Iti kötəkləyib qovan bacısı yarasını təmizləyib sarıdıqdan sonra onu tənbeh etməyə başladı:

- Axı sən iti niyə qəzəbləndirirsən heç nədən. Bilmirsən ona yeyərkən toxunmaq olmaz. O, zarafat bilmir. Bu, heç zarafata da oxşamırdı. Sən elə bil qəsdən onu qəzəbləndirirdin. Bu da nəticəsi.

- Mən onunla ancaq oynamaq istəyirdim, başqa məqsədim yox idi, - hələ də qorxudan özünə gələ bilməyən Z. günahkarcasına dedi.

- Heyvanla oynamağa münasib vaxt seçməmisən, bunu anlayırsan? - Bacısı narahatlıqla onu danlamaqda davam edirdi. - Yaxşı deyiblər it quduranda yiyəsini qapar - bunu az qala pıçıltıyla söylədi.

- Anlayıram. Bir də eləmərəm, - Z. söylədi.

- Amma artıq gecdi, iti incitmisən, səni bağışlayacaq, ya yox, bilmək olmaz. Bundan sonra onunla ehtiyatlı ol.

Daha ehtiyatlı olmağa lüzum yox idi. O gündən it heç yerdə gözə dəymədi. Bacılar nə qədər soraqlasa da, onu tapa bilmədilər. Amma Z. ömrü boyu itlərdən ehtiyatlanmağa başladı. Doğrusu, qorxmağa başladı. Elə bil rastına çıxan itlər də bunu hiss edirdi. Bu hadisə hər yadına düşəndə fikirləşirdi: "Heyvandı da, nə olsun isinişmişdi mənə, yəqin, kim olmasından asılı olmayaraq, payına şərik olacağından ehtiyatlanırmış. Insan - şüurlu məxluqdu, amma çox zaman payına düşəni asanlıqla əldən vermək istəmir. Bəzən payına düşməyəndən belə imtina edə bilmir. Qalmışdı şüursuz məxluq ola. Elə ona görə də məni qapmaqla itirmək təhlükəsini aradan qaldırmağa çalışıb".

* * *

Həyat isə hər an itirməkdi də elə - insan çox zaman bunun fərqinə varmasa da. Yaşanan hər an nəyin və nələrinsə keçmişin qaranlıq uçurumuna yuvarlanmasıdı, sadəcə. Heç vaxt qayıda bilmədiyi, yaşadıqlarının bir göz qırpımında çevrildiyi keçmişə.

Bir anın içində az qala Dördlüyün sevgisini itirmək təhlükəsi ilə üzləşən Z. indi onunla əvvəlki münasibəti pərpa etmək üçün yollar axtarırdı. Anlayırdı ki, Dördlük Z.-nın də onu sevdiyinə inanmalıdı. Bəlkə də, bu məqamda yalnız sevgi onu xilas edə bilər. Amma Dördlük daha qəzəbli olmasa da, məyusluğunu gizlədə bilmirdi. Bu vəziyyətdə yarpaqları solmuş ağaca çevrilmişdi. Z. isə onun tamamilə quruyacağından qorxurdu. Qorxurdu Dördlük ağac şəklində quruyub yox olar. Bu yoxolma onun vücudunda cəmlənmiş digər varlıqların da movcudluğuna son qoyar. Bununla da bütün ümidlər məhv olub gedər. Yaşamaq, uçmaq, dəyişmək və s. - bütün ümidlər. Əslində, bu, elə Z.-nın də məhv olması demək idi. Çünki onu bu kimsəsizlikdə yaşadan yeganə səbəb - Dördlük idi. Bu adada varolma bir-birinin içində idi sanki. Bir-birinə daxil çoxluqlar şəklində. Dördlük adlı çoxluğa digər varlıqların hər biri altçoxluq kimi daxil olmuşdu. Bir altçoxluğun məhvi ilə bütün çoxluq məhvə məhkum idi. Z. da bu çoxluğun altçoxluqlarından biri idi, amma o biriləri kimi çoxluğu yaşadan yox, yalnız onun sayəsində yaşayanı.

Belə olduğu təqdirdə az qala bir yerə cəm olmuş təbiətə niyə belə biganəlik göstərib, onu özündən incik salır. Özü də təbiət nə təbiət. Düşünə bilən, sevə bilən, həm də nifrət edə bilən təbiət. Onun isə sevgisini qorumağın çox sadə yolu var: adi nəvaziş. Bunu da ondan əsirgəsən, əvvəl-axır üz döndərə bilər adamdan. Hazırda Z. belə bir ərəfədə idi; məyus, peşiman. Ağaca çevrilmiş Dördlük, deyəsən, bu məyusluğa dözə bilmədi. İlk təşəbbüs yenə də ondan gəldi. Budaqlarını nəvazişlə Z.-ya toxundurub, onu koksünə sıxdı. Bu münasibətdən sevinən Z.-nı görüncə isə rəngbərəng çiçəkləri adamın üzünə gülümsəyən nəhəng gül koluna çevrildi Dördlük. "Bağışladın məni? Yenə də əsl böyüklük siz təbiətdə gizlənib" - Z. gül kolunun gövdəsinə sığınıb, onu sığallamağa başladı.

* * *

Ağaclar da küsür adamdan. Təkcə adada karına gələn bu canlı ağac deyil, adi ağaclar da. Onların məyusluğunu ata və anasından sonra kimsəsiz qalmış bağdakı ağaclarda müşahidə etmişdi. İlbəil məhsulu azalan ağacların kədərini bağa hər gedişində aydın sezə bilirdi Z. "Sahibsiz bağın ağacları meyvə gətirməz" - düşünürdü o. Vaxtı ilə sevinə-sevinə ziyarət etdiyi bağı saxlamaq indi bir əzaba çevrilmişdi onunçun. Hər dəfə fəhlə tapıb, o sahəni təmizlətdirirdisə də, az sonra yenə eyni şəkil alırdı. Bağ baxımsızlıqdan cəngəlliyi xatırladırdı. Qərara gəldi ki, evin yerləşdiyi həyətyanı sahəni saxlayıb, bağı satsın. Bu sahəni saxlamaq daha asan idi. Çünki orada ağaclar seyrək əkilmişdi. Bir də oranı satmaq heç ağlına da gəlməzdi. Oranı satmaq elə doğulduğu, böyüdüyü, sevdiyi evi, həm də xatirələri satmaq deməkdi. Bu ev isə valideynlərinin yadigarı idi. Hər kəndə gedərkən öz evinə düşür və bu zaman ona elə gəlir ki, valideynləri hələ də bu evdədir. İllər keçməsinə baxmayaraq, hər yerdə onları görür, onların nəfəsini hiss edirdi sanki.

- Bağı satıram, bacı - bir gün söhbət ərəfəsində bacısının fikrini öyrənmək istədi. Bilirdi ki, o biri bacıların da rəyi bu bacının fikri ilə eyni olacaq.

- Bilirəm, baxımsız olduğuna görə saxlamaq çətindi. Siz şəhərdə, bağ kənddə, yol da uzaq, - bacısı onun sözünə qüvvət verdi.

- Məsələ də elə bundadı. Təmizləyib gedirəm, çox keçməmiş qayıdıb görürürəm yenə "saç-saqqal" basıb onu. Bir torpağı ki qoruya bilmirsən, saxlamağa dəyməz.

Dediyi kimi də elədi. Satdı bağı məyus ağaclarla birgə: "Qoy kimsə səmərəli istifadə eləsin. Bəlkə, bu ağaclar da sevinə". Satdığı qonşuya elə bu cür də dedi: "Yaxşı baxsan, səliqəli saxlaya bilsən, mən də sevinərəm".

* * *

Beləcə, Dördlük məyusluğunu ağaca, sevincini rəngbərəng çiçəkli gül koluna, qəzəbini yırtıcı heyvana, nisgili balığa, dəyişmək ehtirasını quşa çevrilməklə ifadə edirdi. Həm də bu mənzərələr çox vaxt Z.-nın əhvalına uyğun olurdu. Amma Dördlük özü də hisslərdən məhrum deyildi. Axı o, canlı idi. Bəlkə elə canlı oduğundan Z. onunla darıxmırdı. Canlı təbiətlə dostluq onu bir çox cəhətdən xoşbəxt edirdi. O, elə yaşadığı məkanda da təbiətə həmişə canlı kimi baxmışdı. Amma indi bu xüsusiyyəti real görmək şansı qazanmışdı.

Birdən özündə uçmaq həvəsi hiss etdi. Yüksəkliyə qalxıb adanı, dənizi seyr etmək istədi. Başlıcası uçmaq, elə hey uçmaq, səmaya qarışmaq keçdi könlündən.

Xəyaldan ayrılmağa macal tapmamış özündə bir yüngüllük hiss etməyə başladı. Onda gördü ki, artıq yeri tərk edir, tədricən üzü yuxarı qalxır. Dostu nəhəng quşa çevrilib, aparır onu səmaya. Necə də sevinirdi. Içi fərəhlə dolmuşdu. Uçuşun bəxş etdiyi fərəhlə. Getdikcə ada, dəniz kiçilirdi. Bir qədər sonra onları nöqtə şəklində seyr edirdi: "Doğurdan da yüksəklik çox şeyi adamın nəzərində kiçildir, adiləşdirir. O boyda ümman gör necə heçliyə çevrilir tədricən. Görünür, yaranan hər şey getdikcə heçliyə yaxınlaşır bu şəkildə. Heçliksə yoxluq deyil, yəqin ki. Nədirsə, hər şeydir, sonsuzdur, hər şey olan sonsuzu da görmək və dərk etmək insan idrakının gücündə deyil. Hər şeyi görmək mümkün deyil axı, forması olsa da belə. Elə Allah da bütün kainatı heçdən yaradıb. Hər şeylə dolu olduğu üçün heç nə olan heçdən".

Görən, nə üçün uçuş onu bu qədər sevindirirdi. Uçuşda nə sirr var görəsən. Bəlkə onun əsas sirri elə yerdən aralanmaqdı. Yerdəki hər an ölüm qoxuyur axı. Baxın, səmada ölənlər də üzü aşağı hərəkət edir - yerə doğru. Ölən quş, saralan yarpaq, yetişən meyvə. Ölüm yer hadisəsidi - ondandı yerin cazibə qüvvəsi də üzü aşağı çəkir məhvə məhkum olanları. O mənada yalnız fiziki hadisədi ölüm. Ölçüləri olanlara məxsusdu o. En, uzunluq, hündürlüyün, həm də zamanın yoxa çıxmasıdı. Öləndən ayrılan və ölçüsü olmayan isə üzü yuxarı hərəkətdədi - səmaya, sonsuzluğa, hüdudsuzluğa, zamansızlığa. Elə ona görə də yaranan nə varsa uçmaq ehtirasından məhrum deyil. Uçmaq, sonsuzluğa qovuşmaq əbədilik qazanmaqdır.

Bunları düşünə-düşünə uçmağın sonsuz sevincini yaşayırdı. Amma hər uçuşun sonu var. Bunu da yaxşı bilirdi Z. Onu da yaxşı bilirdi ki, nə qədər məharətlə uçmağı bacarsa da belə Dördlük də tez-gec adaya qayıtmağa məhkumdu. Böyük yerin kiçik adasına, öz məkan-zaman müstəvisinə.

* * *

80-ci illərin sonu idi - aspirantura dövrü. Uçuş sona çatdıqdan az sonra hava limanından birbaşa təcrübə keçəcək elmi-tədqiqat institutunun yataqxanasına yollandı Z. Hələ uçuşun təsirindən ayrılmamışdı. Iki saatdan bir az artıq davam edən uçuşun nə vaxt başa çatdığını hiss etmədi. Elə bil, zaman donmuşdu, hərəkət də hiss olunmurdu səmada.

İndi isə torpağın üstü ilə hərəkət edirdi. Yataqxanaya çatanda saat 5-i göstərirdi. Taksidən düşüb yataqxanaya daxil oldu. Üçüncü mərtəbədə 13 saylı otaqda yerbəyer olub, bir qədər dincəldi. Sonra küçəyə çıxıb, yaxınlıqdakı kafeyə üz aldı. Yol boyu 13 ədədinin doğurduğu təəssürat düşüncəsini qucaqlamış, rəqəmlərin mistikası barədə fikirləşirdi. O, daha çox 3 rəqəmini xoşlayırdı. Görünür, bu rəqəmlə bağlı bir çox hadisələrin ona uğur gətirdiyini təcrübədən keçirmişdi. Hətta 3 rəqəmi ilə bağlı günlər, hadisələr onda qeyri-ixtiyari bir arxayınlıq yaradırdı. 1 rəqəmi qədər qüdrətli olmasa da, böyük mahiyyət kəsb etdiyini anlayırdı. 1 - vahid tamdır, hissələrə malik olmadığından başlanğıc olaraq yaradandır. Hissələrə malik omadığından məhvə məhkum deyil, əbədidir. Onda hərəkətə yer yoxdur. 2 - iki nöqtə artıq xətdir, uzunluqdur, hərəkətdir. Nəhayət, 3 - üç nöqtə; en, uzunluq və hündürlük - bütün yaranmışları məkanlı edir. Kainatda nə varsa üç ölçülü formaya salıb qavramağa çalışır insan idrakı. 4 - məkan (üç olçü) üstəgəl zaman; varlığın movcudolma müddəti. Həm də dörd ünsür - torpaq, su, od, hava - həyat mənbəyi. Düşünürdü rəqəmlər insan ağlının məhsulu olsa da, amma kainat kəmiyyət qanunauyğunluqlarından məhrum deyil. Yaradan heç nəyi elə-belə yaratmayıb, yaradılan nə varsa kainatdakı nizama xidmət edir. Ədədi münasibətlərin də arxasında bir məna, bir mahiyyət gizlənir. Kainat insan üçün yaradılıbsa, deməli, bu qanunauyğunluqların da digərləri kimi insan taleyi ilə əlaqəsi var. Hər bir qanunauyğunluq səbəb-nəticə zənciri üzərində qurulub. İnsana isə bütün səbəblər məlum deyil. Nəticə ilə üz-üzə qaldığı bir çox məqamlarda belə bu sonucun hansı mənbədən qaynaqlandığı ona sirr olaraq qalır.

Onu da hamı kimi qarşıda səbəbi ona məlum olan və məlum olmayan bir çox hadisələr gözləyirdi. Görək nə kimi hadisələr baş verəcək həyatında payına 13 saylı otaq düşən bu şəhərdə.

İlk gün belə başladı. Uçuşdan sonra bir müddət yerdəki hər şey ona qəribə görünürdü. Amma sonrakı günlər həyat normal axarı ilə getməyə başladı. Hətta rəngarəngliyi ilə uzun müddət Z.-in xatirəsində iz də buraxdı iki ay ərzində bu qərib şəhərdə baş verən hadisələr. Otaq yoldaşları Rza və Tolya adlı gənc alimlər idi. Rzanı tələbəlik illərindən tanıyırdı. Universitetdə eyni fakültədə oxumuşdular. Fərqli kurslarda. Elə o vaxtdan isti münasibət var idi aralarında. Tolya isə başqa şəhərdən gəlmişdi. Hər gün dissertasiya işi ilə bağlı elmi rəhbərləri ilə bir neçə saatlıq müzakirədən və aldıqları tapşırıqlardan sonra boş vaxtlarını birlikdə keçirirdilər. Ya şəhəri gəzir, ya da yataqxanada başqa gənc tədqiqatçılarla məclislər təşkil edirdilər. Müxtəlif xalqın nümayəndələri burada çox yaxşı dil tapa bilirdi. Bir-biri ilə dostlaşanlar da vardı. Dostluqların bəzisi sevgiyə çevrilmişdi artıq. Bütün bunlar öz yerində. Ən əsası, elmi diskusiyyalarla yanaşı istənilən digər movzularda söhbətlər polemikadan o tərəfə keçməzdi. Bütün fikir ayrılıqlarına hörmətlə yanaşılardı.

Bir gün axşama yaxın Rzanın səsinə dəhlizə çıxdı. Rza möhkəm əsəbiləşmişdi. Alma adlı qazaxlı qıza iradını bildirirdi. Alma da çox sərbəst bir qız idi. O qədər yaraşıqlı olmasa da, hərəkətləri ilə diqqət çəkə bilirdi. Bəzən o qədər içirdi ki, az qala kim gəldi, harda gəldi sevişməyə hazır idi. İndi isə söhbət o dərəcədə əndazədən çıxmışdı, hətta mübahisəyə çevrilmişdi. Az qala Rza qıza əl qaldıracaqdı bu vaxt Z. araya girib, Rzanı zorla da olsa otağa sala bildi.

- Görmürsən, özünü necə aparır, - Rza ona müraciət etdi. – Müsəlmandı, çəkir, içir, hərəkətini bilmir. Adam xəcalət çəkir. Necə olsa, eyni xalqı təmsil edirik.

- Ay Rza, sən də qəribə oğlansan, - Z. onunla razılaşmadı. - Axı sənin əxlaq normalarınla onun normaları uyğun gəlməyə bilər. O, öz həyatını yaşayır. Sənsə deyirsən o, sənin düşündüyün kimi yaşamalıdır. Çünki o müsəlmandı, sənlə eyni soykökə malikdi, nə bilim və sairə. Axı anlamıram, başqasının həyat tərzinə necə müdaxilə etmək olar.

- Deyirsən, heç nəyə əhəmiyyət verməyək, o da necə istəyir, elə davransın. Nədi, nədi onun öz həyatı var, müstəqil adamdı. Bəs başqaları nə fikirləşər bizim barədə?

- Sənin əxlaq barədə düşündüklərin burada başqaları üçün heç bir əhəmiyyət kəsb etmir, vallah. Əksinə, bilsələr söhbət nədən gedir, bizim barədə yanlış fikrə düşə bilərlər.

- Bu da bizim alimin danışdıqları, - Rza ona qəti iradını bildirdi. Hətta bir qədər incidiyi də hiss olunurdu.

Başa düşməsə də, söhbətin nəsə yaxşı məcra almadığını anlayan Tolya söhbətə qarışıb, onları sakitləşdirməyə çalışdı ki, mübahisə çox uzanmasın.

Tolya. Həlim, sadəlöhv Tolya. Xasiyyəti kimi geyimi də də o qədər sadə, dəbdən kənar idi, adama elə gəlirdi o, iyirmi il əvvəldə yaşayır hələ də. Sadəliyindən tez-tez gülüşə səbəb olurdu. Arabir onunla məzələnənlər də tapılırdı. Əsasən də özünü baməzə göstərməyə çalışanlar. Çox vaxt da bu cəhdlər uğursuz alınırdı. Çünki əksəriyyət Tolyanın xatirini istəyir, ona hörmətlə yanaşırdı. Qızlarınsa diqqətini bir kişi kimi cəlb etmirdi. Elə onlar da Tolyanı bir o qədər maraqlandırmırdı. Öz həyat yoldaşını hələ də sevir, neçə il bir yerdə yaşasalar da. Deyirdi, ondan doymayıb, deyəsən, heç doymayacaq da. Bu barədə elə iştahla danışırdı, elə bil hansısa ləziz yeməkdən danışır. Amma arvadı ondan

doymuşdu, deyəsən. Özü də çoxdan. Başqası ilə görüşürdü bir neçə ildi. Buna baxmayaraq, Tolya onu bağışlayırdı. Sevirdi, ona görə. Bunu təkcə Z.-ya sirr kimi açmışdı. Çünki ona daha çox ürək qızdırırdı.

Rza ilə bu söhbətdən bir neçə gün əvvəl Tolyanın ağladığının şahidi olmuşdu Z. Necə də ürəkdən ağlayırdı. Elə bil illərin qəm yükünü boşaldırdı. Anası telefonda arvadının başqasına qoşulub getdiyini söyləmişdi Tolyaya. Gedəndə anaya deyib ki, qoy, Tolya məni bağışlasın. Z. bir söz tapa bilmədiyindən əlini Tolyanın çiyninə qoydu.

- Mən onu necə də sevirdim, - o, Z.-nın üzünə baxdı. - Hər şıltaqlığına dözürdüm, xəyanətinə də, o isə məni atdı.

- Hə, Tolya, nə etmək olar, ürəyə hökm etmək mümkün deyil, - Z. təsəlliyə şablon ifadələrlə başladı. – Sənin səhvin də , görünür, elə hədsiz sevməyində olub. O qədər sevgi bağışlamısan qadına, o da istədiyi kimi istismar eləyib sevgini.

Əvvəl hər şey yaxşı idi, o da məni sevirdi, - səmimi münasibətdən azca toxtayan Tolya dedi. - Sonra isə soyumağa başladı məndən. Bunu hiss etsəm də, dözürdüm, onu itirmək istəmirdim.

- Özünü ələ almalısan, dost, sən bu mübarizədə uduzmusan, - Z. təsəlliyə davam etdi, - sevgi adlı mübarizədə. - Amma məğlubiyyətinlə barışmalısan. Özünü yeni mübarizəyə hazırla. Hər qələbədə məğlubiyyət olduğu kimi hər məğlubiyyətdə də qələbə yox deyil. Sevgini qazanmaqçın təkcə sevmək azdır. Fikirləş, qardaş, yaxşı fikirləş və unutma səni də sevənlər tapılacaq.

- İnanırsan, bu vəziyyətdə də ona nifrət eləyə bilmirəm, - Tolya dedi.

- Yox, nifrət eləməyi də bacarmalısan bəzən, - Z. yenidən danışmağa başladı. -İnan mənə, insan qorxduğu adamı da sevə bilər. Səni sevgin zəif eləyib, elə buna görə də uduzmusan. İndi isə bir az güclü olmağa çalış. Səni qarşıda yeni sevgilər, yeni mübarizələr gözləyir, qardaş.

Son sözləri Z. elə gümrahlıqla söylədi, onun bu gümrahlığı Tolyaya da təsirsiz ötüşmədi. Hətta Z.-nın üzünə baxıb gülümsədi də.

O gün Tolya qol-budağı qırılmış ağaca bənzəyirdi məyusluğu ilə. Bu gün Rzanın gözlərindəki qəzəb onu təəccübləndirmişdi. Mədəni, ziyalı alim dostunun birdən dəyişib, az qala qadına əl qaldıracaq dərəcədə dəyişməsi Z.-nın diqqətindən yayınmamışdı.

Təxminən iki ay sonra tərk etdi bu şəhəri. Təyyarə səmaya qalxdıqca kiçilib yox oldu ikiaylıq xatirələrlə dolu şəhər. İki ay əvvəl təyyarə enişə hazırlaşarkən böyüyən məkan indi kiçilib nöqtəyə çevrilirdi. Görünür, doğrudan da çox böyük qüdrətə malikdi ucalıq. Yüksəkliyə qalxdıqca böyük görünənlər kiçilir və bəzən o qədər kiçilir ki, nöqtəyə çevrilib gözdən itir. Kiçik görünənlərin isə əzəmətli olduğunu dərk edirsən ucalıqda.

Bir də o şəhərə qayıtmaq nəsib olmadı Z.-ya, baxmayaraq, olduğu məkanlara qayıtmağı sevirdi. Bir foto yadigar qalmışdı o şəhərdən. Fotoda zaman görünməsə də məkan donmuş halıyla nəzəri cəlb edirdi; 13 saylı otağın bir parçası. Axırıncı rəqəmi üç olan 13 saylı otaq. Görəsən, başqa otaqda yaşasaydı hadisələr eynən bu şəkildə baş verərdi, yoxsa fərqli olardı - elə o şəhəri tərk etdiyi vaxt təyyarədə ağlından keçirmişdi. Buna dəqiq əmin olmaq üçünsə gərək eyni vaxtda ayrı-ayrı məkanlarda yaşamağı bacarasan - düşünüb, qeyri-ixtiyari gülümsəmişdi. Təbəssümü təyyarədə onunla yanaşı oturan Rzanın gözündən qaçmamışdı. "Təəssüratlardan təbəssümlə ayrılırsan, əziz dost" - əlini Z.-nın çiyninə qoyub, gülə-gülə demişdi.

O fotoda Tolya da var idi, Alma da, Rza da. Tolya başını dik tutub, məğrur dayanıb. Özünü nə qədər dik tutsa da, boyu bir az da qısa görünür. Rza bir qədər əsəbidir. Alma gülümsəyir.

O zaman hələ gənc olsa da, insan mənzərələri ilə bağlı bu kimi çox hadisələrin şahidi olmuşdu Z. Əslində içində olduğu cəmiyyət başdan-başa insan mənzərələridi, sadəcə, onları daim dərindən müşahidə etmək nəsib olmur adama.

* * *

Dəyişmələr bu adadan da yan keçmirdi. Bu dəyişmələr Dördlükdə daha aydın sezilirdi. O, gülə, çiçəyə də bənzəyirdi, yırtıcı heyvana da. Ağaca da bənzəyirdi, quşa da, balığa da. Dördlük hər dəyişəndə isə Z. bu dəyişmələrə rəğmən bir çox hadisələri xatırlayırdı ki, o hadisələrin bir qismi ilə tanış olduq artıq.

İnsanın da təbiətə bənzədiyi Z.-nın nəzərindən qaçmamışdı. Adam var görürsən hansısa quşa bənzəyir, - qartala, sərçəyə, qaza, ördəyə. Adam da var hansısa heyvana. Məsələn, şirə, canavara, tülküyə və s. Adam da var balığa; ya sürüşkəndi, ya da gözləri donuq, ifadəsiz. Adam da var eynən ağaca; həm qocasına, həm də cavanına.

Özü də bu bənzəmələr təkcə fizionomiya etibari ilə deyil, xaraktercə də özünü biruzə verir.

Lakin təbiətin bir yerdə cəm olub həm də insana bənzəməsinin ilk dəfə şahidi olurdu Z. Dördlüyə baxanda əvvəlcə bu hiss olunmurdu. Amma özünəməxsus formada təzahür etdiyini sezmək olurdu. Zahirən təbiəti xatırladan bu varlıq daxilində həm də insan yaşadırdı sanki. Görünür, kainat özü tam, kamil bir varlıqdır. Insan, heyvan, balıq, quş, ağac, su, torpaq, səma, od - yaranan nə varsa, o varlığın bir əzasıdır. Onlardan hansı biri məhv olarsa Varlıq ya məhv olar, ya da şikəst yaşayar.

Elmi işləri texnika və iqtisadiyyatın müxtəlif sahələrinin stoxastik modelini öyrənməkdən ibarət idi. Gənclik illərindən beynində bir ideya dolaşırdı. Insan həyatının stoxastik modelini yaratmaq. Bir halda ki, insan həyatı təsadüfi prosesdi - onun istənilən sonrakı anda vəziyyətini dəqiq təyin etmək mümkün deyil, deməli, stoxastik modelin köməyi ilə müəyyən ehtimalla bəzi anlarda insanın vəziyyəti barədə proqnozlar vermək mümkündü. Bu vasitə ilə də insanı bir çox təhlükələrdən qorumaq olar. Amma işin ağırlığı onda idi ki, məsələnin predmeti hansısa texniki avadanlıq deyil, sosial varlıqdır. Hər dəfə müəyyən nəticələrə nail olduqdan sonra modeldəki qüsurlar onu işdən soyudur, yalnız fəlsəfi ümumiləşmələrlə kifayətlənirdi.

İndi isə Dördlüyü dərindən müşahidə etmək imkanı qazanan Z. bu işin daha ağır olduğu qənaətinə gəlirdi. Gör insan və təbiət nə dərəcədə bir-birinin içindədir. Başdan-ayağa təbiətin sintezindən ibarət varlıq həm də insan kimi düşünür, insana xas duyğulara malikdi. O modeli yaratmaq üçün təkcə cəmiyyəti deyi, təbiəti də nəzərə almalısan. O qədər parametrlər toplamalısan ki, az-çox adekvat model ala bilməsən. O parametrlər də ki sonsuz sayda. Ona görə də istər təbiətin, istər cəmiyyətin modeli əvvəlcədən mükəmməl qurulub. Insan zəkası isə onun yalnız cüzi bir hissəsini öyrənməyə nail ola bilər.

* * *

Bu vaxta qədər nə öyrənə bilmişdisə, öyrənmişdi Z. Indi isə Dördlüyün vasitəsilə yeni, yəqin, heç kimə bəlli olmayan bir çox məlumatlar da əldə etmək imkanı qazanmışdı. Arabir bu məsələ barədə düşünüb, idrakını işə salmağa cəhd edirdi. Qumluğa bəzi qeydlər edib, təsadüfi funksiyaların qrafikini cızırdı. Heç o funksiyalar haqqında düz-əməlli fikirləşməyə macal tapmamış, ya külək əsib onlara qənim kəsilir, ya da dalğalar özünü sahilə yetirib, onları yuyub aparırdı.

Insanın yaratdığı əbədi məhvə məhkumdu - bu mənzərələrə baxıb düşünürdü. Çünki onlar tam, kamil deyil. Yoxsa onları belə asanlıqla məhv etmək mümkün olmazdı. Insansa həyatdan gör necə yapışıb. Daim yaşayacaq kimi yaşayır az qala. Bir şey ki, əvvəl-axır məhvə məhkumdu, onun üçün dərindən kədərlənməyə dəyməz. Heç sevinməyə də. Yaranan nə varsa anbaan məhvə yaxınlaşır. Həyatsa ölümün yubanmasıdı. Təbiət və cəmiyyət kimi həyatla ölüm də bir-birinin içindədir.

Yarananlar hamısı bir-biri üçün yaranıb, - buna çoxdan əmin idi və Dördlüklə tanışlıqdan sonra əminliyi bir az da artmışdı. Təbiət yüzə yüz insana hesablanıb. Elə insan da təbiətə. Bütün yaranmışlar bir-birini tarazlaşdırır, kainatda balans yaradır. Heç nə elə belə yaranmayıb. Elə belə də yox olmur. Yox olanlar yenilər üçün məkan və zaman boşaldır əslində. Hər yoxolmanı bir varolma əvəz edir. Əgər bu adada həyatım sona çatarsa, görəsən, o vaxt yerimi kim tutacaq və bu, harada, yerin hansı hissəsində baş verəcək? Bəlkə də, heç yerdə yox, kainat adlı fəzanın hansısa nöqtəsində kimsə, nəsə əvəz edəcək məni. Axı insanlar təkcə yerə məxsus deyil. Bir halda ki, yer kainat adlı fəzanın bir altçoxluğudur, deməli, insan da bu altçoxluğun bir elementi olaraq həm də kainata mənsubdur.

Son vaxtlar bu kimi fikirlər tez-tez başını qatırdı Z.-nın. Ölüm barədə düşüncələr isə, deyəsən, darıxdığından xəbər verirdi. Baxmayaraq, insan hər zaman, hər yerdə darıxır. Bir çatışmazlığı dəf edən kimi başqası peyda olur. Beləcə, sıxıntıdan qurtara bilmir. O, hər an nəyisə narahatlıqla gözləyir, özü də çox vaxt fərqinə varmadan. Həqiqət də elə bundadır. O, sonu, nəticəni gözləyir həmişə. Son da ki məlumdu hamıya. Elə mahiyyət də sondadır, əslində.

* * *

Ada macərası ilə nəticələnən səyahəti də əvvəlcədən planlaşdırmamışdı Z. Sadəcə darıxdığından gəzmək qərarına gəlmişdi birdən. Özü də bir qədər fərqli səyahət barədə düşünürdü. Son vaxtlar birdən durub harasa üz alması o qədər də gözlənilməz deyildi. Çünki son illər elə hey üz alıb harasa getmək istəyirdi. Daim getmək istəyi onu müxtəlif məkanlara üz tutmağa sövq edirdi. Bəzən yaxına, bəzən uzağa. Bəzən qatarla getmək istəyirdi, bəzən avtobusla, bəzən də şəxsi avtomobili ilə. Hərdən də təyyarə ilə.

Sonuncu dəfə isə gəmi ilə səyahətə çıxmaq qərarına gəldi. Bu vaxt atası ilə neçə il əvvəl baş vermiş söhbəti xatırladı. O vaxt səyahətə hazırlaşarkən atasının narahatlığı gözündən qaçmamışdı. Ümumiyyətlə, atası təbiəti etibarı ilə narahat adam idi. Oğluna görə daim narahat olardı. Bu narahatlıq bəzən əndazədən çıxar, ata və oğul arasında inciklik yaranmasa da xırda söz-söhbətə səbəb olardı.

- Nəsə narahat dəyirsən gözümə, ata - Z. bilərəkdən atasına müraciət etmişdi ki, kişi ürəyindən keçənləri söyləyə bilsin.

- Yox, elə də narahat deyiləm, - atası narahatlığını gizlətməyə çalışmışdı, - bir yerə gedərkən elə minikdən istifadə et ayağın torpaqdan üzülməsin. Sadəcə, bunu yaddaş etmək istəyirdim. Yolun açıq olsun, Allah işini avand eləsin.

- Yaxşı, ata, necə deyirsən elə də edərəm, - atasını həmişə olduğu kimi razı salmağa çalışmışdı.

Atası "ayağın torpaqdan üzülməsin" deyəndə qatarı, avtobusu nəzərdə tuturdu. Əksəriyyət kimi o da belə hesab edirdi ki, uçan, üzən minik vasitələri ilə müqayisədə bu minik vasitələrində qəza baş verdiyi halda sağ qalma ehtimalı daha böyükdür, çünki adamın ayağı torpağa daha yaxın olur. Oxumuş, bilikli adam olsa da, qəza ilə bağlı bəzi ehtimallara biganə qala bilmir, az qala qırx yaşı haqlamış oğluna dönə-dönə ehtiyatlı olmağı tapşırırdı. Z. atasını yaxşı anlayırdı. Axı o, özü də artıq ata idi. Övlad hansı yaşda olur-olsun, valideyn üçün uşaqdı. Son sözləri də səbrli olmağı bacaran anası tez-tez təkrarlayardı. Z. bu movzuda bir hadisə oxumuşdu nə vaxtsa mətbuatda və xeyli marağına səbəb olmuşdu. Hadisənin məzmunu təxminən belə idi: hansısa ölkədə jurnalist küçədə oturub ağlayan səksən yaşlı bir qocaya rast gəlir. Nə baş verdiyi ilə maraqlanarkən məlum olur ki, qoca, atasının sözündən çıxdığı üçün babası onu evdən qovub.

Gəmi ilə səyahətə hazırlaşan Z. hər dəfə olduğu kimi yenə də bütün bunları xatırlamalı oldu. Həm də, bir növ, atasının sözündən çıxmışdı. Ayağı torpaqdan üzüləcəkdi. Onu ümman gözləyirdi. Çox sevdiyi dənizin qoynunda olacaq neçə gün. Bu boyda sevgiyə rəğmən dəniz xəyanət etməz mənə - düşünürdü.

Həmən gün gecə isə qəribə bir yuxu gördü. Yuxuda uçduğu təyyarə qəfil partlayır və o, səmada üzü yuxarı hərəkət edərək bir ulduzun üstünə düşür. Ulduz uzaqdan işıqlı görünsə də, Z. ona çatarkən zülmətə qərq olur. Az sonra zülmət müxtəlif yerlərdən azacıq işıqlanır və zülmətin parçalandığı həmən hissələrdən balacaboy qəribə varlıqlar boylanır. Özü də bu varlıqlar insana bənzəsə də, həm də cürbəcür canlıların və bitkilərin birgəliyindən ibarət idi sanki. Onlardan bir neçəsi yaxınlaşıb ona toxunmaq istəyərkən yuxudan ayılır.

Adaya düşəndən sonra bir neçə dəfə bu yuxunu xatırlamışdı. Buna da səbəb yuxuda gördükləri ilə adada baş verən bəzi hadisələrin uyğunluğu idi. Hətta adaya qədər baş verən bəzi məqamlarla da yuxu arasında müəyyən oxşarlıqlar var idi. Qəzadan sonra yuxuda olduğu kimi reallıqla əlaqənin kəsilməsi, uçması, özü də işığa doğru, sonra zülmət. Təkcə yuxuda zülmətə qərq olmuş o ulduzdan necə qurtulduğu barədə təsvirləri görmək ona nəsib olmamışdı. Yoxsa adanı tərk etməsi ilə bağlı bəzi təsəvvürlərə malik olardı, yəqin ki. Amma buna görə o qədər də narahat olmağa dəyməzdi görünür. Çünki tezliklə bu mənzərənin şahidi olacaqdı, özü də tam gerçək təsvirlərlə.

* * *

Darıxırdı Z. Bunu son günlər hiss etməyə başlamışdı. Dördlük də məsələdən hali idi. Çünki insan dostunun əhvalı dərhal ona sirayət edirdi. Necə deyərlər, olduğu kimi onda inikasını tapırdı. Bu səbəbdən də sanki bir varlığa çevrilmişdilər bu kimsəsiz adada. İndi Dördlüyə bir varlıq da əlavə olunmuşdu – insan.

Z.-nın darıxması təkcə məmləkətinə qayıtmaq istəyi ilə bağlı deyildi. Yəni təkcə ona görə narahat deyildi ki, doğma məmləkətdən, doğma, sevdiyi insanlardan uzaq düşüb neçə müddətdi. Sadəcə, onun daxilində bir dəyişmək istəyi baş qaldırmışdı. Nə olursa olsun dəyişsin, monotonluqdan azad olsun.

Uçurdu Z. Dördlüyün sayəsində yenə torpaqdan aralanmışdı. Bir müddət əvvəl dalğaların onu huşsuz halda təhvil verdiyi adadan indi uçuşla uzaqlaşırdı. Amma bu uçuş o biri uçuşlara bənzəmirdi. Nəsə ayrılıqdan, vidadan xəbər verirdi. Çevrilib diqqətlə uzaqlaşdığı, uzaqlaşdıqca nəzərində əriyən, yox olan, amma öz movcudluğunu saxlayan adaya sonuncu dəfə nəzər saldı. Məyusluq hissi keçirirdi ada gözdən itincə. Axı o, olduğu məkanlara qayıtmağı sevirdi. İndi isə ürəyinə dammışdı ki, bu məkana bir də qayıda bilməyəcək. Çünki bilirdi, elə məkanlar var ki, yolları bağlıdı. Yalnız o məkanlardan getmək mümkündü təkcə, yalnız getmək. O da indi gedirdi o məkanlardan birindən. Özü də sürətlə.

Artıq ayağı torpaqda idi - doğma şəhərin lap yaxınlığında. Ayrılığın kədəri tədricən sevinclə əvəz olunurdu. Gör neçə vaxtdı doğma məmləkətdən, sevdiyi insanlardan uzaq düşmüşdü. İndi onu yenə də qarşıda sevinc, kədər, qayğı, gərginlik, qələbəlik gözləyirdi. Bunlara rəğmən, o bütün bunlar üçün darıxdığını hiss etdi. Xəyala daldığından ani də olsa dostu Dördlüyü unutmuşdu. Onu sevdiyi bu məkana qaytaran zərif, mükəmməl, güclü varlığı.

Bu nədir! Dördlük nəhəg gövdəsi ilə yerə sərilib. Əvvəlcə Z.-ya elə gəldi dostu yorulduğundan uzanıb, dincəlmək istəyir. Axı o, geri qayıtmalı idı. Çünki onu yenə də əzəmətli uçuş gözləyirdi. Lakin diqqətlə baxdıqda onun tamam halsız olduğunu, zorla nəfəs aldığını gördü. Indi o, bu vəziyyətdə daha çox nəhəng insanı xatırladırdı. Sinəsi elə sürətlə qalxıb-enirdi, elə bil, bu nəhəng vücud nələrdənsə azad olmağa çalışır. Bu qalxıb-enmələri təsvir etsən böyük bir sinisoid əyrisi alınardı - bu mükəmməl varlığın qəlbinin şəkli.

Hər qalxıb-enmə zamanı Dördlükdən nəsə ayrılırdı. Diqqətlə baxdıqda ayrılanların təsvirini görmək mümkün idi. Hər ayrılan quş, balıq, ağac, gül-çiçək, heyvan şəklində ayrılaraq, tez də formasını itirir və üzü səmaya doğru hərəkət edib görünməz olurdu. Hər ayrılıq zamanı Dördlük daha çox insana bənzəyir və insan şəklində kiçilirdi. Və, nəhayət, Dördlük o qədər kiçildi, nöqtə şəklində torpaqda əriyib yox oldu.

Z. Dördüyün yoxluğa çevrildiyi yerdə diz çökub hönkürməyə başladı. Ağladıqca müxtəlif xatirələr oyanırdı yaddaşında. İlk sevgi macərası, balıq gözləri, sevimli iti, bağdakı küsəyən ağaclar, ağlayan Tolya... - müxtəlif hadisələr mozaika şəklində düşüncəsini zəbt eləyirdi. Yenidən Dördlük. Tez bir zamanda gözləri qarşısında heçliyə və sonsuzluğa qarışan Dördlük.

Ölüm yer hadisəsidi. Bütün ölənlər üzü aşağı ölür. Quş da, ağac da, ağacın yarpağı da, gül də, çiçək də. Ölənlər üzü aşağı torpağa qarışır, ölməzlər səmaya çəkilb, sonsuzluğa çevrilir. Dördlük də üzü aşağı öldü, üzü yuxarı əbədiyyətə qovuşdu. Bunları düşünə-düşünə Z. Dördlüyün heçliyə və əbədiyyətə qovuşduğu yerdən üzü şəhərə - sevimli məkanına doğru addımlayırdı.

20.11.2014



Leyla NAMAZOVA

ÜMİD

Dünən bir misra ümid
əlləri qoynunda
keçdi yanımdan...

Səssiz bir haray
damla-damla
boylanırdı yanaqlarından...

Səbrim adam balası kimi laldı, lal.
İçimdə
üzü qibləyə durub
bir sual: -
Görən, kimi gözləyir,
bəxtimin uçuq divarı
dibində oturub,
son ümidini
yeyən acılar?!

Bu adamların
gözü görmür,
lütfən, bu şeirimi divarlara oxuyun,
qardaşım ağaclar...

SONUNCU NƏĞMƏ

İçimdəki suallar
daşa basır yaddaşımı...
Görən, hansı bədbəxt
oxuyacaq
dünyanın sonuncu nəğməsini?!
Tanrım, Səndən savayı
eşidən olacaqmı
onun səsini?!

O nəğməni
daşmı oxuyacaq,
ağacmı, sumu?!
Görən, kim oxuyacaq
mələklərin üzündəki son təbəssümü?!

İlan qabığı kimi
soymuşam içimdəki
təmkini, dözümü...
İkinci Həvva olmağa
halım yox, Tanrım,
ver ətəyini,
örtüm üzümü.

GÖZ YAŞLARIMIN HƏNİRİ

Sənsizlik qoxulu
ahım kölgə salır buludlara.
Nə vaxtdır
həsrətinlə məhbus olan gözlərim
kirpik çəpərlərdən
qərib-qərib baxır yollara.

Xatirələrin
yaddaşıma düşən xəfif işığında
üzümü söykəmişəm
tənhalığın hənirtisinə...
Arzularımın əlləri
misra-misra üşüyür.
Ürəyimdə yetim qalan sevgimlə
isinirəm
göz yaşlarımın istisinə...

ADSIZ

Elkin KƏRİMLİ

…Onu deyirəm də, deməli, bir gün yenə iş adı ilə şəhərə çıxmışdım. İşimi itirmiş kimi, iş axtarırdım. Evdə oturmaqdan canım boğazıma yığılmışdı, bezmişdim. Özümə qapanıb, otağımdan çıxmırdım. Gözlərim otağın bir küncündən, o biri küncünə körpü salmışdı. Qaraqura düşünür, saatın pıçıltısında özümə təsəlli verirdim. Hal-qəza o yerə çatmışdı ki, daha təsəllilər də mənə təsir etmirdi. Hə, sözüm onda deyil, bir-iki yerə getdim. Bir iş çıxmadı. Əslində, iş var idi. Iş-güc adamlarının sözü olmasın, "işdən çox iş".

Bu yerdə Elkin Kərimlinin bir şeiri yadıma düşdü:

İş axtardım, tapammadım,
Axtaran tapar, dedilər.
Bəlkə, yaxşı iş çıxacaq,
Bir az da axtar, dedilər.

Elə bu minvalla bir az da axtarım, dedim. Düşdüm şəhərin göbəyinə. Necə olur-olsun, iş tapmalıydım. Ən azından iş axtarmaq da bir işdir. Özü də böyük işdir. Lap böyüyündən. Yoxsa kim üzümə baxardı? Məlum, işi olmayan insana ancaq və ancaq yuxarıdan aşağı baxırlar. O da istisna hallarda… Əlqərəz, gəzə-gəzə şəhərin canını boğazına yığdım. Özümü başqa ölkənin, hətta başqa şəhərin adamı kimi görməyə başladım. Sanki bu dünyanın, bu ölkənin, bu şəhərin adamı deyildim. Çox sıxıldım. Saraya düşmüş dilənçi kimi bir şəhərə, bir də öz üst-başıma baxmağa başladım. Elə şəhər əhli də mənim üst-başıma baxırdı. Xalaoğlunun bağışladığı şalvar-pencək, dostumdan aldığım ayaqqabılar göz oxşayırdı.

Nə qədər doğma da olsa, yaşadığım diyardan getmək istəyirdim. Özü də dabanıma tüpürüb getmək istəyirdim. Eşitdiyimə görə, dabanına tüpürüb gedənlərin əli bala batıb. Əsas da Rusiyaya gedənlərin... Nəysə...

Bulvar bir çoxlarınıza tanışdı. Gəlmişkən, bir az dolaşım, dedim. Onsuz iş də tapa bilmədim, heç olmasa, dəniz havası alaram deyə düşdüm dəniz kənarına. Mazutun qoxusu məni məst elədi. Məktəb vaxtlarından bu qoxudan xoşum gəlirdi. Ölkəmizdə neft su yerinə olduğundan məktəbimizi həmişə "solyarkayla" yuyurduq. Bu xatirələr burulğanında nə hikmətsə, babam yadıma düşdü. Evimizə qonaq gələndə babam kabab çəkərdi. Mən onda eşşək boyda uşaq idim. Elə manqalın yanındaca yeyərdim. Ancaq babam özü yeməzdi. Hər dəfəsində soruşardım ki, baba, bəs sən niyə yemirsən? - İyisi məni tutur, əsas qonaqlardı, - deyərdi. Mən də rusları, ingilisləri, fransızları, türk qardaşlarımızı xatırlayıb, həə, əsas qonaqlardı, dedim. Keçdim yuxarı başa, sahildəki qayanın üstündə oturub ayağımın altındakı daşa çırpılan zibillənmiş, mazutdu suya baxaraq bu da mənim payımdır, dedim. Başımı qaldırıb bir neçə metr kənarda birbirinin ağzının içinə girən qız-oğlana da ötəri nəzər saldım. Görünür, hər kəs öz payını almışdı. Ta axşam düşürdü, evdən çıxdığım bir xeyli vaxt olardı. Çox acmışdım. Evə qayıdırdım, atam zəng elədi:

- Pulun varsa, evə gələndə çörək alarsan, - dedi.

- Yaxşı, - dedim.

Halbuki pulum olmadığını atam da bilirdi. Yoxsa "pulun varsa" deməzdi. Əslində, atamın nə demək istədiyini başa düşmək elə də çətin deyildi. Pulun varsa…

MƏNİM YAZIÇIM...

Elçin Hüseynbəyli müasir dövrün ən məhsuldar və modern düşüncəli yazıçılarından biridir. Onun nəsri kimi uğurlu dramaturgiyası, kəsərli publisistikası da diqqəti cəlb etmişdir. Bu janr müxtəlifliyi E.Hüseynbəylinin yaradıcılıq meyilləri ilə bağlıdır. Demək olar ki, bütün əsərlərinin məzmunu onun bioqrafiyasından qaynaqlanır. E.Hüseynbəyli nəsrinə xas olan ən mühüm cəhət üslub və təhkiyə müxtəlifliyidir. Yaradıcılığının ilk illərində "Rəqs edən oğlan" adlı lirik-yumoristik hekayələr kitabı, daha sonra "Tut ağacı boyunca", "Balıq adam" romanlarını yazıb. Yazıçının bədii təfəkkürü iki istiqamətdə: bir tərəfdən milli nəsr, xüsusən 60-cı illər nəsrimiz, digər tərəfdən isə müasir dünya nəsrinin ənənələri əsasında özünü büruzə verir. Elçin Hüseynbəyli yaradıcılığında roman janrı məxsusi yer tutur. Onun qələmə aldığı "Metro vadisi" , "Yovşan qağayılar", "Don Juan" kimi romanlar oxucular tərəfindən maraqla qarşılanmış, ədəbi tənqidin diqqətini çəkmişdir. Mətbuatda adı çəkilən romanlar barədə maraqlı rəy, mülahizələr söylənilmişdir. Ayrı-ayrı, özü də müxtəlif taleli insanların faciəsini əks etdirmək baxımından hər bir roman orijinallığı ilə seçilir. Elçin Hüseynbəyli, artıq dünya ədəbi prosesində mövcud olan roman poetikasına xas sintezdən məharətlə istifadə edir. Burada roman artıq öz əvvəlki yönünü və istiqamətini dəyişə-dəyişə yeniləşməkdədir. Bu yeniləşmə E. Hüseynbəyli yaradıcılığının özəyini təşkil edir. Onun yaradıcılığından söz açan müəlliflər Prustun, Dostoyevskinin, yaxud Murakaminin təsirini qeyd etsələr də, bir cəhəti unutmayaq ki, modern düşüncəli E.Hüseynbəylinin nəsrində sırf milli kolorit də güclüdür. Elçin Hüseynbəylinin romanları içərisində «Yovşan qağayılar» özünəməxsusluğu ilə maraq doğurur. Qeyd edək ki, «Yovşan qağayılar» romanı real Azərbaycan gerçəkliyinə söykənməklə yazıçı fantaziyası əsasında yaradılmışdır. Romanda Elçin Hüseynbəyli bir neçə milli - mental əhəmiyyətli problem qaldırmışdır. Onların arasında ən başlıcası "milli yaddaş" problemidir. Eyni zamanda ondan qaynaqlanan digər problemlər də romanda az əhəmiyyətli deyildir. Kiçik vətən problemi, o taylı-bu taylı Azərbaycan problemi, torpaqların düşmən tapdağı altında qalması, qaçqınlıq, köçkünlük, milli qürurun sındırılmasına tuşlanmış humanitar yardımlar və s. kimi məsələlər romanın əsasını təşkil edir. Romanın süjet xətti milli yaddaş problemi üzərində qurulmuşdur. Çünki Azərbaycan yetmiş ildən artıq rus-sovet əsarəti altında qaldığına görə xalqın öz milli yaddaşına qayıtması vacib məsələlərdəndir. Müəllif roman boyu milli yaddaşın əhəmiyyətini vurğulayır və yaddaşlarına dönük çıxanları, keçmişlərini unutmaq istəyənləri pisləyir. Yazıçı bu məsələni qaldırmaq üçün simvolikadan istifadə edir. Keçmişi unutmamaq çağırışı milli yaddaşı oyatmaq üçün düşünülmüş vasitədir. Çünki Azərbaycanın gələcəyi onun keçmişi ilə sıx bağlıdır və xalqın öz keçmişini yaxşı bilmədən tərəqqi etməsi mümkün deyildir. Romanda maraq doğuran məqamlardan biri milli yaddaş məsələsinə fantaziya üslubu ilə yanaşmadır. Belə ki, müəllif babasının yaddaşının kodunu axtarıb taparaq o yaddaşa daxil olur və yaddaşın içində babasının mirasını axtarmağa çalışır. Qeyd etmək lazımdır ki, yazıçı romanda milli yaddaşla bağlı mühüm məsələyə toxunmuşdur ki, bu da Araz çayı vasitəsilə Azərbaycanın iki yerə bölünməsidir. Məlum olduğu kimi, həm Sovet hakimiyyəti illərində, həm də hazırkı dövrdə bu məsələ çox həssas bir problem kimi xalqı düşündürməkdədir. Bu səbəbdən yazıçı babasının yaddaşına daxil olmaqla fantaziya şəklində bu məsələyə yanaşmağı zəruri hesab etmişdir. Romanda diqqəti çəkən və xüsusi yer ayrılan məqamlardan biri Azərbaycan adət-ənənələrinin təsvirilə bağlıdır. Məsələn, Novruz bayramı, qız qaçırılması, qisas, qan düşmənçiliyi və s. məsələlər bu qəbildəndir. Romanda Novruz bayramını qeyd etmə mərasimləri təsvir olunur: "İlk Novruz tonqalını da mən həmin iki küçənin kəsişdiyi yerdə görmüşdüm... Öncə o məkanın ortasında dilimləri ərşə dirənən alovun qızartısını, sonra ocağın özünü və ətrafına toplaşmış insanları görmüşdüm. Bu şadyanalığın əzəmətini, mənasını dərk etməsəm də, onun atəşfəşanlığını içimdə əziz bir xatirə kimi gəzdirmişdim və yəqin ki, həmin gündən sonra mən Novruzun əsrarəngiz bir bayram olduğuna inanmışdım. O, təkcə şəkərburaların, paxlavaların, yumurta döyüşməyin rəmzi deyildi. Novruz insanların birliyinin təcəssümüydü və onu hamı ilə birgə yaşamaq adama ləzzət eliyirdi. Ona görə də hələ Novruza bir həftə qalmış bayramın qurtaracağına təəssüflənirdim". Elçin Hüseynbəyli romanda adət-ənənə mövzusu ilə bağlı olaraq başqa iki maraqlı məsələyə toxunmuşdur. Bunlardan birincisi qız qaçırılmasıdır ki, bu məsələ Azərbaycan xalqının mentalitetində müəyyən yer tutmaqdadır. Yazıçı romanda Fərhad kişinin öldürülmüş oğlunun qırxı çıxmadan gəlinin qaçırılmasını və bu işin həmin mühitin psixologiyasına zidd olduğunu təsvir edir. İkinci məsələ isə namus-qeyrətlə bağlı qisas alınmasıdır. Romanda yazıçının qeyd etdiyi kimi "Adam öldürsən, bağışlanarsan, namusa toxunsan, doğranarsan" prinsipi Azərbaycan xalqının mənəviyyatında namusun nə qədər önəm daşıdığını göstərir. Romanda Mahmud bəyin dul qalmış Səlminazı qaçıran şəxsdən qisas alarkən onu yatan yerdə öldürməməsi bu cür qisas almağın namərdlik olması, kişiliyə, qeyrətə sığmaması anlamını ifadə etməkdədir. "Yovşan qağayılar" romanında qürbətə, mühacirətə getmək kimi mühüm bir ictimai məsələyə də toxunulur. Məlum olduğu kimi, son dövrlərdə Azərbaycanda bir çox insan daha yaxşı şərait axtarmaq məqsədilə öz doğma vətənini tərk edib başqa ölkəyə gedir. Onlar hesab edirlər ki, vətəndən kənarda yaşamaq daha rahatdır. Yazıçı romanda həm qağayılar obrazından, həm də proyeksiya prosesindən istifadə edərək ustalıqla bu məsələni pisləyir: "Mən düşünmüşdüm ki, qağayılar insanlardan etibarlı və sədaqətlidirlər, ac olmalarına baxmayaraq, uçub başqa dənizlərə getmirlər, öz vətənlərinin zibilliyində eşələnməyi qürbət dənizdə gözəl yaşamaqdan üstün tuturlar".

Romanda diqqəti çəkən mühüm məqamlardan biri folklor motivlərindən istifadə olunmasıdır. Yazıçı romanda Azərbaycan folklorunun mühüm incilərindən olan nağıllardan yararlanır. Buna misal olaraq "Nəhlət daşı" və "Üç qardaş" nağıllarını göstərmək olar. Yazıçı "Nəhlət daşı" nağılından yaradıcı şəkildə bəhrələnmişdir: "Nəhlət daşının altında Şeytan yatır. Həmin Şeytan iki kəndi torpaq üstündə bir-birilə düşmən edib. Bir kəndin adamları o biri kəndin çobanını öldürüb. O biri kənd də bunun əvəzini çıxıb. Bu qan düşmənçiliyinin qarşısını almaq üçün hər iki kəndin ağsaqqalları bir yerə toplaşıblar, həmin yeri lənətlənmiş yer sayıblar və ora «Nəhlət daşı» qoyublar". Göründüyü kimi, nağıl da romanda qaldırılmış məsələlərdən biri olan qisas və qan düşmənçiliyi motivlərinin tənqidinə xidmət edir. Ümumiyyətlə, romanda nağıllardan yararlanma əsərin süjet xəttində mühüm yer tutur, milli yaddaşın qaytarılmasına və problemin açılışına yardım edir. Yazıçı folklordan yararlanmaqla yanaşı, alleqoriyadanda məharətlə istifadə edir. Məlum olduğu kimi, bədii yaradıcılıqda alleqoriyadan bir simvol kimi istifadə olunur. "Yovşan qağayılar" romanında isə yazıçı, digər əsərlərində olduğu kimi, əvvəldən axıra

oxucunu keçmişə aparmağa çalışır, amma bu dəfə süjetin gedişatını kəsərək alleqoriya fonunda babasının atı ilə müsahibəni təsvir edir: "Atın gözlərinin yaşı və ağzının suyu üstümü isladırdı.

- Mən babanın atıyam - o sanki qulağıma pıçıldayırdı. İndi o danışsa da, təəccüblənməzdim. Hər nəydisə mən onu eşidirdim". Roman iyirmi iki bölmə ilə əhatə olunmuşdur. Bu bölmələrin hər biri özlüyündə orijinaldır. Məsələn, "Do-re-mi", yaxud "Lənət notu", «Maralın yaddaşında nələr var», «Kisəçilər məhləsinin uşaqları, sınıq metro jetonu, dələnin ölümü…», «Dəri pul kisəsi…», «At», «Yovşan qoxulu sandıq», «Sevgisini suya danışan adam», «Qətl», «Qisas», «Fahişələrin ərə getmək ümidi», «Çəyirtkə müharibəsi», «Mahmud bəyin qaçaq düşməsi», «Yaddaş insanın kölgəsidir», «Nəhlət daşı» və «Üç qardaşın» nağılı, «Sarı müəllimin hermafrodit yaddaşı» və s. "Yovşan qağayılar"ı avtobioqrafik roman kimi də səciyyələndirmək olar. Çünki romanda yazıçının əvvəldən axıra qədər öz obrazını da aydın sezmək olur.

Babası Mahmud bəyin yaddaşına girmək üçün müəllif çoxsaylı priyomlardan istifadə edir. Və yaddaşın çözələnməsi üçün öz nənəsinə dinclik belə vermir. Nənə nəvəsinə babası haqqında hər şeyi demək istəməsə də, nəvə ondan özü üçün lazım olanları sanki kəlbətinlə çıxarır. Bütün bunları bilmək müəllifə ona görə lazım idi ki, nəinki onun özünü, həm də xalqımızı, millətimizi kabus kimi izləyən lənətin kökünü tapmaq mümkün olsun. E.Hüseynbəylinin yaratdığı əksər obrazlar koloritlidir. Lakin hamısından daha dolğunu Mahmud bəy obrazıdır. Mahmud bəyin bütün vücuduna, "mən"inə varmaqla, müəllif onun bütöv xarakterini yaradır. Həm nənənin söyləmə və söhbətlərində, həm digərlərinin mükalimələrində biz Mahmud bəyin qeyrətli, namuslu bir türk kişisi olduğunun şahidi oluruq. Müəllif göstərir ki, Mahmud bəyə namərdlik yaddır. O, düşmənini düşmən kimi qiymətləndirməyi sevir, ona arxadan zərbə endirməyi özünə sığışdırmır. Düşmənlə mərdü-mərdanə danışmağa üstünlük verir. Buna görə də E.Hüseynbəyli əsərdə "görüm səni düşmənsiz qalasan" ifadəsini işlədir. E.Hüseynbəyli babasının yaddaşına girmək üçün hər vasitəyə əl atır və bunu daha əsaslı etmək üçün atasının köməyinə ehtiyac duyur. Müraciət etdikdə görür ki, atası və ona məxsus şeylər-əşyalar da onun karına gəlmir. Müəllif atasına məxsus əşyaların onun köməyinə nəyə görə çatmadığını belə izah edir: "Qardaşım onları satmışdı. Nənəm isə atamın söyxalarını kimə gəldi bağışlamışdı. Biz elə özümüz torpaqlarımızın bir hissəsini kimlərəsə satmış, kimlərəsə bağışlamışıq. Bəlkə, elə buna görə də Qarabağdakı torpaqlarımızı ermənilərin əlindən alıb geri qaytarmaq düyünə düşmüşdür". Daha sonra müəllif belə bir epiqrafa da yer verir: "Şəxsən mən uşaq olanda böyük qardaşımın və mənimlə yaşıd uşaqların acığına evimizdə olan qədim əşyaların hamısını dəyər-dəyməzinə satmışdım. Bu mənada mən biznes sahəsinin qaranquşlarından idim… Əfsuslar ki, həmin əşyalarla birgə babamı da satdığımı düşünməmişdim. Bunun altını isə böyüyəndən sonra çəkdim. Babamın ruhu və yaddaşı ilə birlikdə torpaqlar da satıldı". Yazıçı burada varisliyi də xüsusi qiymətləndirərək yazır ki, o, atasını sağlığında sevə bilmədiyindən babasının enerjisi ilə qovuşa bilməmişdi. Bütün bunlar da yazıçının tarixi yaddaşımızı necə itirməyimiz və sonra da gecikməyimizə heyfsilənməyimiz kimi görünür. Əsərdəki bu məqamların bacarıqlı sənətkar təxəyyülü ilə verilib. Bununla yanaşı, real Azərbaycan gerçəkliklərinin bədii yaradıcılıqda özünü adekvat əks etdirməsi olduqca inandırıcıdır. Əlbəttə, yazıçı təfəkkürü heç də yalnız onda olan məlumatlar çevrəsində qapanıb qalmır, Azərbaycan reallığının daha dərin qatlarına nüfuz edir, oradakı mahiyyətə toxunur, dərinliklərə varır. Belə olduqda ictimai, mədəni, mənəvi, etik, estetik qatlar daha yaxşı görünür. "Yovşan qağayılar" real həyatımızın mühüm tərəflərinin geniş mənzərəsini əhatə edən romandır.

E.Hüseynbəyli "On üçüncü həvari - 141-ci Don Juan" romanında Dünya ədəbiyyatında dəfələrlə müraciət olunan ədəbi qəhrəmana yenidən həyat vermişdir. Belletristika keyfiyyətləri daşıyan bu əsər tarixi mövzu ilə bağlıdır. E.Hüseynbəylinin bu romanı həm qaldırdığı problematika səviyyəsində, həm də Azərbaycan roman janrının keyfiyyətlərini genişləndirmək baxımından olduqca dəyərli bir hadisədir. Müəllifin roman - ekskurs adlandırdığı "Don Juan" romanı bir gəzinti əsəridir. E.Hüseynbəyli əsərində müasir dünya ədəbiyyatında çox populyar olan metoddan istifadə etmişdir - tarixi mövzunu çağdaş mövzu ilə vəhdətdə təqdim etmək. Roman XVI əsrin sonunda Şah Abbasın səfirliyinin tərkibində Rusiyadan və Avropadan keçərək İspaniyaya gəlmiş Oruc bəyin macəralarına həsr olunub. Əsərin ən qiymətli cəhətlərindən biri də odur ki, müəllif Oruc bəyin getdiyi yolu özü də gedib və təbii ki, İspaniya kimi keçdiyi ölkələrin tarixi və bu günü haqqında geniş, əhatəli məlumat verir. Əsər həm tarixi, həm də çağdaş olmaqla bərabər, eyni zamanda bir tədqiqatdır. Elçin Hüseynbəyli əsərdə həm Oruc bəyin səyahətini, həm də öz səyahətini paralel verib. Bu paralellər təkcə xronotopla məhdudlaşmır. Yazıçının şüuraltına nüfuz etmiş xatirələr təsadüf və ya zərurətdən dolayı baş qəhrəmanın həyatı ilə səsləşir. Məsələçün, "Oruc bəy tatar qızı Anisa ilə siğə elədi", "Tələbəlik illərində məni sevən tatar qızı yadıma düşdü" , "Novqorod", "Oruc bəyin vurulduğu və daima şərab içdiyi məkan" - "Bu şəhərdə iştirak etdiyim teatr festivalı yadıma düşdü". Əsərdə ədəbi və psixoloji baxımdan düzgün düşünülmüş bir xətt də müəllif – Qayde xəttidir: Çünki Oruc bəy Bayatı duyub yazmaq üçün müəllifin də qısa da olsa bir Don Juanlıq tarixçəsi yaşaması vacib idi. Əsərdə müəllif Madrid şəhərində Qayde adlı yunan qızı ilə tanış olur. Qayde əsərdə təsadüfən uydurulmuş obraz deyil: Corc Bayronun "Don Juan" əsərinin qəhrəmanı Qayde sevgilisi olan Juan əsir aparıldıqdan sonra onun xiffətini çəkir və 12 gün ac-susuz qalaraq ölür". Əsərdə verilmiş bu fakt göstərir ki, Qayde obrazı müəllif tərəfindən məxsusi olaraq romana daxil edilmişdir. Qayde əsərdə müəllifin sadəcə yol bələdçisi, yaxud tərcüməçisi deyil, yazıçının təhtəlşüurunda Oruc bəyin sevdiyi hersoqinyalardan biridir. Əsər boyu davam edən Qayde - müəllif dialoqu Şərq-Qərb, kişi-qadın başlanğıclarını simvolizə edir. Romanda klassik Don Juan əsərlərinin süjeti az seçilən xətt kimi duyulur. Burda əsas məqsəd Oruc bəy Bayatın özünəməxsus tale yolunu izləməkdir. Müəllif tarixi qəhrəmanı (Oruc bəy Bayatı) mif səviyyəsinə qaldırır. Yazıçının ehtirası, təhkiyə temperamenti, demək olar ki, roman – ekskursun hər bir epizodunda hiss olunur. O, qəhrəmanın fitri istedadını, zəkasını onun mənşəyi ilə bilavasitə əlaqələndirir. Onun anası hələ uşaq ikən əsir alınmış xristian qızı Himena, atası türk əsilli, daha doğrusu, türklərin köklü tayfalarından, bayat elindən olan Sultanəli bəy Səfəvilər sarayında qulluq və hörmət sahibi bir zadəgan idi. Həm xristian, həm də müsəlman qanını özündə birləşdirən, amma türk ürəyinə sahib olan Oruc bəy özü də qabiliyyəti, qüvvəti, bacarığı ilə atasının və saray əhlinin etimadını doğruldub, daha da yüksəlir. Hətta o mərtəbəyə qədər yüksəlir ki, I Şah Abbas İspan Krallığına nümayəndə göndərəndə ən vacib missiyanı gizli şəkildə ancaq ona tapşırır. Elçin Hüseynbəyli real tarixi şəxs olan Oruc bəy Bayatın bütün bu hadisələrin fonunda yüksək estetik zövqlə, maraqlı bədii priyomlarla diqqətəlayiq obrazını yaradır. Dünya ədəbiyyatında əsasən mənfi tip kimi məşhurlaşan bu obraz Elçin Hüseynbəyli qələmində əsilli-nəsilli milli qəhrəman səviyyəsinə yüksəlir. Yazıçı mövqeyinin belə aydın özünü göstərməsi, yaratdığı obraza olan bu sevgi eyni zamanda müəllifin tarixi keçmişimizə verdiyi dəyərin təzahürüdür. Doğrudan da, bu günə qədər bir çox dünya yazıçıları tərəfindən ən çox müraciət olunan obrazlardan olsa da, qeyd etdiyimiz kimi, əsasən mənfi tip kimi təsvir edilən Don Juan Elçin Hüseynbəylinin təxəyyülündə, fantaziyasında aid olduğu millətə xas, türk soylarına layiq fədakar bir qəhrəman kimi bədiiləşdirilir. Ona tapşırılan ağır işin öhdəsindən gəlmək mümkünsüz kimi bir şey idi, ancaq əsrlərin qəhrəmanı çətinliyin qarşısında zəiflik göstərmir. Şah Abbas ona nəyin bahasına olur-olsun İspaniyada qalıb, vətəninin şərəfli tarixini yaymağı tapşırmışdı. Oruc bəy də öhdəsinə götürdüyü tapşırığı layiqli, düzgün yerinə yetirmək üçün çox ağır yol seçmişdi – dinini dəyişmişdi. "Öz missiyasını həyata keçirmək üçün müvəqqəti də olsa xristianlığı qəbul etmək lazımıydı. Şiəlik buna imkan verirdi. Bu məzhəbin tərəfdarı ən ali və vacib məqamlarda təqiyyə saxlaya, yəni başqa dini qəbul edə bilərdi. Amma o, "təqiyyə" sözünü dilinə gətirməməliydi". Oruc bəyin dinini dəyişməsinin əsl səbəbi, təəssüf ki, bu günə qədər aydın deyil. Ancaq fərziyyələrə əsaslanan yazıçı Oruc bəyin vətəninə, millətinə, kökünə sevgi və bağlılığını əsas götürərək onun dinini dəyişməsinə tutarlı səbəblərlə haqq qazandırmağa çalışmışdır. Lakin yazıçı bunu süni pafosla təsvir etməmişdir. Elçin Hüseynbəyli qəhrəmanının daxili aləmində yaranan boşluqları, sıxıntıları, dəyişiklikləri təsvir edərək həmin qərara dərin psixoloji tərəddüdlərin nəticəsində gəldiyini göstərmişdir. Yazıçı Oruc bəy Bayatın başına gələnlərin əsasən də səfər boyu gördüklərinin, öyrəndiklərinin onun qəlbində, beynində yaratdığı tərəddüdləri, sarsıntıları bütün incə məqamları, detalları ilə real şəkildə

bədiiləşdirmişdir. Elçin Hüseynbəyli Don Juanın dinini dəyişməsinin səbəblərini elə təbii, elə aydın izah etmişdir ki, oxucu həmin surətin xarakterinin bütün ziddiyyətlərini aydın dərk edir, həmin səbəbləri də qəbul edir. Əgər yazıçı Oruc bəyin çətin seçim qarşısında qalanda ağır, ciddi bir qərar qəbul etməsinə vətəninə olan sevgisi, millətinə olan sədaqətini əsas kimi qələmə almışsa, eyni zamanda ilk olaraq əsərin qəhrəmanının xristian həyatının, Avropa saraylarının zahiri dəbdəbəsi, sərbəstliyi qarşısında bir az zəiflik göstərməsini də əsaslı şəkildə təsvir etmişdir. Amma, təbii ki, yazıçının qəhrəmanının mənəvi mübarizəsində amalına sadiqliyi zahiri rifaha olan həsədini üstələyə bilmişdir. Onun məqsədi planlarını həyata keçirmək idi. Vətəni üçün, milləti üçün əlindən gələn nə isə etməli, bu "nə isə" çox ağır, çətin addım olsa belə atılmalıydı. Əsərin bu məqamında Elçin Hüseynbəyli Oruc bəy Bayatın timsalında türkçülüyün fəlsəfəsinə çevrilmiş vətənpərvərliyi, milli qüruru tərənnüm etmişdir, özü də çox sadə, təbii bir dillə. Oruc bəy Bayat İspaniyada dinini və adını dəyişdirib Don Juan kimi tanındıqdan sonra öz mədəniyyəti, dövlət quruluşu, millətinin döyüş ruhu və xarakteri haqqında bir kitab yazmağa başlayır. Bu kitabı yazıb başa çatdırdıqda sanki o öz həyat vəzifəsini də bitirmiş olur və öldürülür. Bu kitab Oruc bəy Bayatın həyatındakı vəzifəsinin bir nişanəsi olaraq romanda yerləşdirilmişdir. Oruc bəy Bayata həsr olunmuş bu əsər həmin obrazın mənşəyi ilə bağlı hələ də dəqiq məlumat vermir. Ancaq bu heç də bizə bu gün onun bir türk sərkərdəsi olduğunu iddia etməyə mane olmur. Bu əsərlə Elçin Hüseynbəyli təkcə yeni, növbəti Don Juan yaratmamış, eyni zamanda bir tarix araşdırmış, bir tarix yaratmışdır.

Tarixi-xronika üslubunda yazılan "Şah Abbas" romanında da, bir çox tarixi əsərlərdə rast gəldiyimiz kimi, yenə də Səfəvi dövlətinin tarixinə müraciət olunur, bu dövlətin tarixində iz qoymuş hökmdarlardan olan Şah Abbasın həyatı və tarixi xidmətləri əsas mövzu kimi istifadə edilərək tarixi roman halına salınır. Əsərdə Şah Abbasın bədii portreti yaradılır. O, uşaqlıqdan naxışlar çəkən, mütaliəyə həvəsli, qoçaq, igid biri kimi təsvir olunur. Şah olduqdan sonra ölkəsinin rifahı naminə böyük işlər görür, köklü islahatlar aparır. Əsər müstəqillik illərində qələmə alınmış tarixi romanlarda tez-tez təsadüf olunan üslubda yazılıb. Əsərdə zaman və məkan konteksti fərqli olsa da müasir və tarixi zaman bir-biri ilə sıx əlaqədədir. "Şah Abbas" romanı, doğrudan da, tarixi xronikadır və bizim bu tipli tarixi romanlar içərisində növbəti bir cəhddir ki, tarixi mənbələr və qaynaqlara istinad edib daha bir şəxsiyyətin ömür yolunu gözlərimiz qarşısında canlandırır. Burada ənənədən gələn bədii priyom və üsullarla qarşılaşsaq da, Elçin Hüseynbəylinin özünəməxsus bədii təsvir ustalığı, obrazları məhz canlı, koloritli boyalarla, həm də bütün mürəkkəbliyi ilə əks etdirmək məharəti diqqətdən yayınmır.

Elçin Hüseynbəylinin "Yolayrıcında qaçış" romanı isə onun nəsr yaradıcılığında həyat həqiqətlərini məhz realistik üslubla əks etdirən bir əsər kimi diqqəti cəlb edir. «Yolayrıcında qaçış» müasir dövrün romanıdır və burada təsvir olunan hadisələr də bizə tanışdır. Amma xüsusi bir qeydə ehtiyac var. Roman qloballaşan dünyada çaşmış insanlar barədədir. Və təsadüfi deyil ki, müəllif romanı elə bu cür də xarakterizə edir. Əsərdə yazıçı Züleyxa və Fatimənin timsalında Qərb-Şərq ziddiyyətini qələmə almışdır. Züleyxa Qərb düşüncəsinin, Fatimə isə Şərq təfəkkürünün daşıyıcısıdır və onların sevdikləri Məhəmməd də məhz bu ziddiyyətin qurbanı olur. Əsərin baş qəhrəmanı Züleyxa zahirən çox gözəldir və başına gələn bütün bəlalar da onun gözəlliyindən gəlir. "Mən Züleyxanı tanıyırdım. Məhlədə onu «Malena», evdə Zülya çağırırdılar. Ona «Malena» adını kimin qoyduğunu bilmirəm… Məhlə uşaqlarının hamısı Züleyxa-Malenanı sevirdi. O, bir şeytan idi. Kişilər bu mələksifət, dəcəl qıza vurulmuşdu. Məhlə arvadlarının onu görməyə gözü yox idi". Bu gözəl qızın-Züleyxanın faciəsinin mənbəyini müəllif ilk növbədə onun özündə axtarır. Yəni bu obraz bizim bir çox nəsr nümunələrində adət etdiyimiz gözəllər tipinə aid deyil. O gözəllər ki, onların əxlaqı zahiri gözəllikləri ilə ziddiyyət təşkil eləmirdi. Və həmin gözəllər yalnız kənar qüvvələrin təsirilə təcavüzə, zorakılığa uğrayıb bədbəxt olurdular. Züleyxa-Malena isə çox sərbəstdir və elə həddibüluğa çatan kimi öz gözəlliyini xərcləməyə başlayır.

Şərq ədəbiyyatında ənənəvi Yusif-Züleyxa macərası bu əsərə də təsirsiz qalmır, bu əsərdə də Züleyxa Yusifə aşiq olur. Amma bir qədər fərqli. Yusifin yaraşıqlı boyuna, idmançı qamətinə vurulan Züleyxa bir neçə cəhddən sonra istədiyinə nail olur. Daha eşq yolunda çəkilən əzab-əziyyətə ehtiyac qalmır. Sonra isə məlum olur ki, Züleyxa Yusifdən uşağa qalır. Atasının və bacısı Fatimənin qəzəbinə düçar olan Züleyxanın yolları Dubaydan keçir, sonra bu yollar onu Türkiyəyə aparıb çıxarır. Orada zəngin olur, şəkli qəzetləri bəzəyir. Məhlə uşaqlarından biri - artıq böyüyüb yaşa dolmuş jurnalist Züleyxanın Türkiyədə yaşadığını öyrənir və onu axtarmağa başlayır. Bu axtarış uğurlu alınsa da, az sonra həmin jurnalist Züleyxanın qətli barədə məlumatı oxuyur. Elçin Hüseynbəylinin üslubuna xas olan bir xüsusiyyət bu əsərdə də bariz şəkildə nəzərə çarpır. Elçin Hüseynbəyli romana həqiqətən macəra ünsürü qatır. Züleyxanın bacısı oğlu Məhəmməd anasının təkidilə Türkiyəyə yollanır. «Get, o qancığı öldür. Öldürməsən, südümü sənə halal etməyəcəm! - Anası onu yola salmazdan öncə bu sözləri dedi və dəsmala bükülü pulu çıxarıb verdi» - Məhəmməd də bu qətli həyata keçirmək üçün xalasını axtarmağa başlayır. Yəni Şərq - İslam təfəkkürünün daşıyıcısı olan Fatimə Qərb əxlaqına üsyan edir. Məhəmmədin axtarışının özü bir macəra xarakteri daşıyır. Məhəmmədin terrorçu bir dəstəyə qoşulması və sonra görünməz olması ("Məhəmməd ağ suların dalğasında xalasına tərəf qaçırdı…Amma qarşıda gəmi əvəzinə uçurum və qapqaranlıq dərə vardı) bu macəranın faciəli sonluğu kimi yadda qalır. Elə Züleyxanın Dubayda yaşadığı illər də macəra təsiri bağışlayır. Ancaq bütün bu macəralar romanın realist axarını zəiflətmir. Çünki müəllifin təsvir etdiyi səhnələr yaşadığımız gerçəkliyin sosial-mənəvi ab-havasını əks etdirir. Elçin Hüseynbəylinin «Yolayrıcında qaçış» romanı, zənnimizcə, çağdaş nəsrimizin uğurlu nümunələrindən biri sayılır. Qloballaşmanın beyinlərə və şüurlara hakim kəsildiyi bir vaxtda bu cür əsərin yazılması peşəkarlığa və vətəndaş mövqeyinə bir işarədir.

Elçin Hüseynbəylinin yaradıcılığı günümüzün nəsr üslubudur. Nəsrdə kiçik hekayənin xüsusi yeri var. Oxucunun özü də kiçik hekayələrə meyillidir. Bu gün sürət əsrində bu meyli daha da artıb. Ona görə də Elçin Hüseynbəyli oxunur. O, kiçik hekayələrin ustasıdır. Əlbəttə, söhbət sadəcə həcmdən getmir. Ustalıq azın içində çox söz deyə bilməkdədir. Onun təhkiyəsində bədii-estetik cazibə ilə yanaşı, həyat, mühit, cəmiyyət haqqında geniş məlumat verilir. Bu, müasir oxucu zövqünə cavab vermək deməkdir. Onun "Ağ-qara" kitabına daxil etdiyi hekayələri Qarabağ mövzusuna həsr olunmuşdur. Qara hekayələr bölməsinə aid edilən "Gözünə gün düşür" hekayəsində Azərbaycan xalqının etnik psixologiyası çox tipik şəkildə ifadə olunmuşdur.Müəllifin "Ağ-qara" kitabına daxil etdiyi «Əsirlər» povesti də Qarabağ müharibəsinə həsr olunmuşdu, ancaq burada müharibəyə fərqli bir münasibət diqqəti cəlb edirdi, o, təqdim etdiyi obrazlara süni şəkildə heç bir qəhrəmanlıq, fövqəladəlik bəxş eləmirdi. Belə bir cəhəti vurğulamaq istəyirdi ki, müharibə dövrünün öz həqiqəti var, hamı eyni tərzdə düşünmür, müharibə həqiqəti hamı üçün birmənalı qəbul oluna bilməz.Bu povestlə Elçin Hüseynbəylinin yaradıcılığında realizm dövrü başlayır. "Əsirlər" povestində yaşadığımız gerçəkliyin daha dərin qatları, həyatımıza, məişətimizə daxil olmuş keçid dövrünün təzadlı mənzərələri əks olunmuşdur . Kitabda yer alan "İlk Öpüş", "Pələş", "Kəndə gün çıxanda qayıdacağıq", "Nar", "Dədəm, Nənəm və Kommunizm", "Qaracanın qara başı" kimi hekayələr yazarın usta yazıçı müşahidəsi nəticəsində meydana gələn hekayələrdir. "Boz eşşəyin məktubları", "Sular günəşə şərqi söylərkən", "Qumru", "Blondin, həm də bəzəkli" kimi hekayələrini isə yazar "özündən kənara çıxaraq" yazıçı fantaziyası ilə qələmə almışdır. Bu hekayələrdə yazar fərqli insanların iç dünyasının psixoloji məqamlarını uğurla sərgiləyir, müxtəlif insanların "iç dünyasına" asanlıqla daxil olur.

E.Hüseynbəyli nəsrini ümumi olaraq səciyyələndirməli olsaq, bədii düşüncənin artıq bir çevrədə qalmadığını, sintezə meyil etdiyini görərik. Onun əsərlərindən söz açan əksər müəlliflər bu əsərlərdə komizmlə tragizmin, gerçəkliklə fantaziyanın, realizmlə romantikanın bir-birinə qaynayıb qarışdığını qeyd edirdilər. Onun əsərlərində sırf realist səhnələr də vardır, romantik təsvirlər, sürrealist boyalar da. Xüsusilə E.Hüseynbəyli nəsrini simvollarsız təsəvvür etmək olmaz.

Dilarə ƏLİYEVA,
AMEA Nizami adına Ədəbiyyat institutunun elmi işçisi

NƏZAKƏT

ƏRDƏBİLİM

O tayın da, bu tayın da adı Vətən,
Qanqalların arasında gül bitirən,
Bülbülləri ağı üstə dil-dil ötən,
O da Vətən, bu da Vətən –
Ərdəbilim.

Babam deyib, o taylıyam,
Doğulduğum, böyüdüyüm o yerlərdə
qalıb izim.
Bu izləri öpmək üçün
Atam gəzib xəyalında
dizin-dizin, Ərdəbilim.

Ayrılığın fəryadını
ilmə-ilmə ürəyimə toxudular.
Bu həsrətin nəğməsini
yanıqlı bir həzin səslə
yaddaşıma oxudular,
Ərdəbilim.

Dedilər ki, bu həsrətdi,
ayrılıqdı, fəlakətdi,
bu nifrətdi.

Necə oldu canı candan,
qanı qandan ayırdılar,
paralayıb, parçalayıb, dağıtdılar?
Əsir düşdü doğma elim,
yasaq oldu doğma dilim,
Ərdəbilim.

Millətimə qara günün libasını
geydirdilər,
Acını da, nifrəti də noğul kimi
yedirtdilər.
Həqiqəti gözlərinin qabağında
edam edib,
yalanları beyinlərə yeritdilər.
«Buna necə dözüm», – dedim, Ərdəbilim.

Heç durulan gördünmü sən
xan Arazı?
Əsrlərdi belə ötür qışı, yazı.
Qafillərə xəncər oldu telli sazı.
Dindi dil-dil şirin dilim, Ərdəbilim.
Gördüyünü, bildiyini söylədikcə
Xudafərin daşa dönmüş ürəyinə,
Ümidlərim bağlanıbdı
vaxtsız solmuş diləyimə.
Yaddaşımı yandırıblar,
qalıb külüm, Ərdəbilim.

Ayrılığı salanları,
Gözü yolda qalanları,
Uydurulan yalanları,
Xan Arazdan soruş, bilim,
Ərdəbilim.

Babamın həsrət yanğısı,
Yaddaşının sızıltısı,
Dodağının pıçıltısı –
Ərdəbilim, Ərdəbilim, Ərdəbilim...

ÖMRÜN QATARI

"Könlümün içindən keçir bu qatar"
Əflatun AMAŞOV

Ömrünə ömür qatar
Neçə qışın, baharın.
Könlündən keçən qatar
Sənin ömür qatarın.
Bu ömür qatarına
Kimlər, harda minəcək?
Kimi yarı yoldaca,
Kimi sonda enəcək.
Bu qatarlar könlünün
Göynəyindən keçəcək.
Dərdinin-kədərinin
Köynəyindən keçəcək.
Əlvida deyəcəksən
Əlvida deyənlərə.
Bu ömür qatarına
Talesiz minənlərə.
"Kaş ki…" həsrətlərinin
Önündə diz çökəsən,
Saralmış yarpaqların
Əllərindən öpəsən.
Ömrün günbatanına
Kaş qatar tələsməsin.
Kaş yolunun üstündə
Acı rüzgar əsməsin.
Boynubükük bənövşən
Bu yaz səndən küsməsin.
Ən sonuncu nidanı
Ümid əli qoparsın.
Qoy ömür qatarını
Ümid çəkib aparsın.

SEVDA

Sevda nədir?
Sevda – sehr, möcüzədir.
Sevda var ki, odu sönmüş can evinə
isti, ilıq nəfəs verər.
Sevdasının işığından
ətrafına nur çiləyər.
Sevda var ki, qəlb evini "uf" demədən
yıxar, sökər,
Sevda var ki, viran qalmış bir ürəyi
qurar, tikər.

Sevda var ki, illər ilə bağlı qalan
qəlb qapısın açarını
tapar, açar.
Sevda var ki, paslı, kirli ürəklərin
pasın, kirin yuyar, atar.
Sevda da var "gözün kökü saralanda"
ömrün, günün lap sonunda
gəlib çıxar.
Mən istərəm buza dönmüş
qar adam da
sevdalansın.
Sevdalansın ən çirkin də.
Sevdasının gözündə o,
gözəllərin gözü olsun.
Qəlbi daşa dönənlər də sevdalansın.
Daş ürəklər sevdalanıb,
sevdasından muma
dönsün.

ETÜD

Pəncərəm açılır qəbristanlığa,
Gördüyüm mənzərə gözümə batır.
Məəttəl qalıram uca Tanrıya –
Alimi cahillə yanaşı yatır.

Burda soruşmurlar, kimsən, nəçisən,
Möminsən, canisən, ya dilənçisən?
Cərgəylə uyuyur sakit qəbirlər,
Burda heç bilmirsən, sən neçəncisən.

Kasıbı, varlısı bilinmir burda,
Özü öz xoşuyla gələni yoxdur.
Libası eynidir hər kəsin burda,
Axsa göz yaşların, siləni yoxdur.

Ömürlük sakindir bu son mənzilə
Adı əməlində yaşayan kəslər.
Dünən bir haqq işi tərsə çəkənin
Məzarı hər kəsi düzlüyə səslər.

Cavanın tər ömrü yarımçıq qalıb,
Bu qoca nə qədər yaşayıb, Allah?!
Ömür niyə belə düz paylanmayıb?
Bağışla, İlahi, eylədim günah.

Cəmilə MƏMMƏDLİ

DƏLİ

Vəhşi heyvanları xatırladan çığırtılar, sənə tərəf uzanan əllər, quzğun kimi səni izləyən gözlər... Kabus kimi səslənir, hə? Elədir. Kəsif dərman qoxusunu da əlavə etsək ruhi xəstələr dispanseri alınır.

Boyası çoxdan tökülmüş qaranlıq dəhlizdə atdığım hər addım məni bu dəlilər cəhənnəminə itələyir. Bunlar heç susmaq bilmirlər, görəsən? Bəs bu qədər sakitləşdirici hara gedir? Biri bunların səsini kəssin! Var gücümlə bu lənətə gəlmiş binadan qaçmaq istəyirəm. Qorxuram. Onların mənə zərər verməsindən yox, onlardan biri olmaqdan. Yanaşı addımlayan qadına baxdıqca qorxum daha da artır. Əlli yaşı olar, ya olmaz. Amma gözləri... Çoxdan ölmüş, indi də məzardan xortlamış birinin gözləri kimidir. Bomboz, qara halqa ilə çevrələnmiş soyuq parıltılı gözlər. Deyəsən, baxdığımı hiss etdi. Başını qaldırıb, saralmış dişlərini göstərərək güldü. İndi daha çox qorxuram.

- Gənc olsaz da, çox cəsursuz. İlk dəfə bura gələndə qorxudan dəli olmamaq hər adamın işi deyil.

Lüğətdəki bütün sözlər tükənmişdi ki, bu komplimentində "dəli" sözünü işlətdi? Ağlımdan keçənləri deyə bilməzdim. Sadəcə gülümsəməklə kifayətləndim, yəni "təşəkkür edirəm, amma çox danışmayın".

- Hardansan?

"Marsdan" - düşünürəm, amma tamam başqa cavab verirəm:

- Bakılıyam.

- Əsl bakılı, ya sonradan gəlməsən?

Haralı olduğumu deyəndən sonra bu sualı verməyən bir adama rastlasam, sevincimdən boynuna atılacam. Bir dəqiqə, biz nə vaxt "sən"ə keçdik? Ya səbr...

- Atam Bakılı idi.

- Bəs baba...

- Elman bəyin otağına çatmadıq?

Qadın gözlərini süzdürüb, əli ilə dəhlizin sonundakı otağı göstərdi. Deyəsən, kinayəylə gülümsədi də. Bu ya kobudcasına sözünü kəsməyimə görə idi, ya da...

- Elman bəyin otağı buradı. Təhlükəli deyil, içəri tək girə bilərsiz.

Ya da...

Bu qapının arxasında uşaqlığımın idealı var. Dəfələrlə mükafat almış dahi yazıçı Elman Cabbarov. Adını eşidəndə hörmətlə ayağa qalxdığım adam. Son illərdə adını ancaq məsxərəyə qoymaq istəyənlər çəkir. İdealım, mənə özümü tanıdan kitabların müəllifi... Onun kimi olmaq əl çatmaz xəyalım idi. İndisə...

Qapının dəstəyindən yapışsam da, çevirməyə tərəddüd edirəm. Bura qədər yaxşı gəlmişdim, bəs içəridəki adamı görəndə nə edəcəkdim? İçəri girib, "Salam, uşaqlıqdan sizə heyranam. İndi də sizə baş çəkməyə gəlmişəm. Dəli olmağınız mənim üçün problem deyil" deyim? Dəstəyi çevirib, qapını özümə tərəf çəkdim. Cəld içəri təpildim ki, tərəddüd etməyim. Hər şeyə hazır idim. Amma buna yox. İki dəmir kənarlı çarpayı, barmaqlıqlı nəfəslik, kiçik masa, iki kətil. Adi idman geyimində, saçı saqqalına qarışmış bir adam şahmat oynayırdı, qarşısında pasientlərdən biri oturmuşdu. İçəri girdiyimdən xəbərləri yox idi. Yüngülcə öskürdüm. Xəstəxana paltarında olan adam üzümə baxıb gülümsədi və diqqətini yenə şahmat taxtasına yönəltdi. Atı götürüb o üzbu üzünə baxdı. Sonra da dörd dama irəli qoydu.

- At elə getmir, - özümdən asılı olmadan deyirəm. İkisi də dönüb mənə baxır. Elə bil səhv edən mənəm. Masaya yaxınlaşıb atı əslində olmalı olduğu yerə qoyuram:

- Atlar "L" formasında hərəkət edir. Top deyil ki, düz getsin.

- Sənə kim dedi, atlar elə gedə bilməz? - yazıçı-pasient soruşdu.

"Necə yəni kim", - düşündüm, - "şahmatın öz qanunları var axı, gərək kimsə deyə?"

Bu anı o qədər xəyalımda canlandırmışdım ki. Ən sevdiyim yazarla görüşəcək, əsərləri haqqında ağlımda olan bütün sualları verəcək, qaralamaları göstərəcəkdim. İndisə qarşımda atın necə getdiyini bilməyən dəli dayanıb.

Digər pasient tələsik atı qoyduğum yerdən götürdü.

- Mən... Mən gedirəm. Gedirəm. Aparıram... Aparıram bunu. At mənimdi... Mənimdi, - deyə-deyə taxta qutunu tərs çevirib, fiqurları necə gəldi içinə doldurmağa başladı.

Danışığı kimi, hərəkətləri də təkrardan ibarət idi. Fiqurları iki-üç dəfə qutudan çıxarıb təzədən yığdı. Qapağı zərblə qapayıb tam örtülmədiyinə fikir vermədən qoltuğuna vurdu. Çıxanda mənə döndü:

- Sən... Sən pis adamsan. Pis... At mənimdi, mənimdi at.

- Hə, at sənindi, - yalandan gülümsəyib üzümü çevirdim.

Həvəsdən düşmüşdüm. O qədər yol gəlmişdim, başıma gələnə bax. Havalının biri mənə pis adam damğası vururdu. Dəlini vecimə alası deyiləm ki.

- Sən pis adamsan, - səsdən diksindim.

- Nə? N-niyə?

- Burnunu oyunumuza soxmasaydın, o çıxıb getməzdi. İndi axşama kimi neyləyəcəm?

Mat-mat üzünə baxdım.

"İndi günahkar mən oldum? Düzü, özümdə günah görmürdüm. At düz getmir axı. Şahmat taxtası o zırramanındı deyə atların səhv getməsinə göz yummalıdı?" - düşündüm.

- Sizə şahmat dəsti gətirərəm, - gözlədiyimdən daha sakit tonda dilləndim.

- Üzr istəyirəm.

- Bağışlayın?

- Deyirəm, üzr istəməliydin.

Ayağa qalxıb, qarşımda dayandı. Saçları uzanıb az qala gözünə girirdi. Deyəsən, çoxdandı yuyunmurdu, kəsif tər iyindən burnumu qırışdırmaqdan özümü güclə saxladım. Nimdaş paltarından çirk axırdı. Gözlərisə eyniydi. Doqquz il əvvəl, ilk dəfə kitabını əlimə alanda görmüşdüm bu gözləri. Amma o vaxt sahibi fərqli idi. Bahalı kostyum, təraşlı üz, özündən əmin duruşu ilə qarşımdakı adamdan çox fərqlənirdi. Qəfil bura niyə gəldiyimi xatırladım. Bayaqdan ikrahla süzdüyüm adam idealım idi axı, onunla tanış olmaq üçün burada idim. Qeyri-iradi əlim kostyumun ikinci düyməsinə getdi. "Qarşında idman geyimində olan biri varsa, pencəyini düymələmək axmaqlıqdı" - deyə düşünüb əlimi aşağı saldım.

- Üzr istəyirəm. Adım Fa...

- Maraqlı deyil, - sözümü kəsdi.

Çiynimə yüngülcə toxunaraq yanımdan ötüb çarpayıya uzandı. Nə deyəcəyimi bilmirdim. Adımı deməyə də icazə verməmişdi. Özümü alçalmış hiss edirdim. Otağın ortasında dayanmışdım. Getməliydim. Bir addım geri atıb duruxdum. Bir-iki kəlmə donquldandım.

- Məndən yox, bayaqkı adamdan üzr istəməlisən.

- Ondan niyə? Bilirəm, sizə hörmətsizlik etdim, Elman bəy... - kinayəli bir gülüş məni susmağa məcbur etdi.

Üzümdə narazı ifadə ilə gülməyi kəsməsini gözləyirdim. Bunu əksinə gülüşü qəhqəhəyə çevrildi. Qarşımdakının dəli olduğunu unudurdum. Hədəqəsindən çıxan gözlər, kəsilməyən, monoton qəhqəhə... Bu halını görməməkçün üzümü çevirdim. Düzü, qorxdum, hətta çıxıb getməyi də ağlımdan keçirdim. Amma əvəzində yaylığı çıxarıb alnımdan süzülən təri sildim. Qəhqəhə birdən başladığı kimi, birdən də kəsildi.

- Mənə çoxdandı "bəy" demirlər.

Belə cavab gözləyirdim, amma bu tonda yox.

- Ola bilər. Vəziyyətinizi nəzər alsaq. Yəni xəstəliyiniz...

- Üzr istəməlisən.

Ya səbr! İlişmiş val kimi eyni şeyi təkrarlamaq nəyə lazım idi axı? Qulaqardına vurub, davam etdim.

- Madam ki, məni tanımaq istəmirsiz, heç olmasa niyə gəldiyimi deyim. Sizinlə tanış olmaq istəyirdim, çünki...

- Çünki sənin uşaqlıqdan sevdiyin yazıçıyam. Kitabxananda bütün kitablarım var, mənim heyranımsan. Dayan bir, tapım, məndən ilham alıb yazmağa da başlamısan, hə?

- Siz... Haradan... Hə, yəqin, məndən əvvəl gələnlər də olub.

- Yox, ilksən.

Açığı, bunu gözləmirdim. Onun çoxdan unudulduğunu, saya salınmadığını bilirdim. Hətta onun adını çəkəndə, yanına gedəcəyimi deyəndə gülmüşdülər. Amma...

Deyəsən, nə fikirləşdiyim üzümdən bəlli olurdu, diqqətlə mənə baxmağa başlamışdı. Baxışlarımı yayındırıb davam etdim:

- İnanmıram ki, sizin kimi bir yazıçı unudulsun. Sizdə günah yoxdu. Burda olmağınız...

- Əgər gözündən düşməyimdən çox qorxursansa, getsən yaxşıdı.

Bədənimdən gizilti keçdi. Özümə etiraf edə bilmədiyim bir şeyi necə bilir axı? Bəlkə, o...

- Özümü dəliliyə vurmuram, doğrudan, dəliyəm. Bütün psixiatrlar təsdiqləyir.

- Siz necə?

- Sənin nə düşündüyünü necə bilirəm? Çətin deyil, sadəcə empatiya qururam. Uşaqlıqdan bəri sevdiyin yazıçını böyük kitabxanasındakı dəri kresloda oturmuş yox, dəlixanada, bir dəliylə düz gedən atların olduğu şahmat oynayan görürsən. Nə düşündüyünü anlayacaq qədər ağlım var.

Həqiqətən, onun gözümdən düşəcəyindən çox qorxurdum. O, mənimçün ideal idi, həmişə onun kimi yazıçı olmaq istəmişdim. Bu adamla dürüst olmalıydım:

- Bəli, sizin gözümdən düşməyinizi istəmirdim.

- Stul çək, otur. Bəsdi əzilə-büzülə "siz"lə danışdığın. Adam kimi danış.

- Hə? Amma siz, axı...

- Əvvəllər kim və ya nə olduğumun fərqi yoxdu. İndi dəliyəm, dəliylə "siz" deyə danışdığını görsələr səni də buradakı otaqların birinə tıxarlar.

Burda yaşamaq düşüncəsindən dəhşətə gəldim. Balaca uşaq kimi sözə qulaq asıb stul çəkdim. Masanın yanında oturmaq istəyirdim ki, ötkəm səs məni dayandırdı:

- Yaxın gəl. Qorxma, dişləmərəm.

Dinməz-söyləməz stulu çarpayıya tərəf sürüdüm. Fikirlərim tamam qarışmışdı. Qarşımdakı sözsüz, dəli idi, amma dedikləri ağlının hələ də yerində olduğundan xəbər verirdi. Dürüstlük mənə yaramır ki:

- Nə vaxt burdan çıxacaqsını...san?

- Guya istəsəm, buraxarlar? Mən dəliyəm, cavan oğlan, normal adamların yanında nə işim var? Həm də bura çox da pis deyil. Yeməyim, içməyim... Əyləncəni də özün gördün.

- Amma siz yazmalısız. Sonuncu kitabınız yarıda qalmışdı. Onu mütləq tamamlayın.

Dediklərimə peşman oldum. Bayaqdan tavana zillədiyi gözlərini mənə tərəf çevirdi. Dodağı qaçdı. Gülməyini güclə saxlayırdı. Yəqin məni yenə qorxutmaq istəmirdi.

- Elə bilirdim, bura gələndə "onu elə", "bunu elə" deyənlərdən canımı qurtaracam. Sən Allah, əl çək yaxamdan. Elə vacibdi, özün tamamla.

- Axı o, sizin kitabınızdır. Əlyazmanı oxumuşam, möhtəşəmdir. Tamamlansa lap əla olar. Bestsellerə çevrilər, hələ xaricdə də satılar. Mövzusu qeyri-adidir.

- Dəlixanadakı dahinin gündəliyi, hə? Çox maraqlıdı, fəlsəfi fikirlər çoxdu, psixologiyanın anasını ağlatmışam orda.

Yenə gülməyə başladı. Amma bu dəfə qısa çəkdi. Qorxudan tarıma çəkilmiş əzələlərimi boşaldıb, nəfəsimi çölə buraxdım. Deyəsən, bunu hiss etdi. Yenə dodağı qaçdı.

- Cavan oğlan, getsən, yaxşıdı.

Yox, bu dəfə bütün fikirləşdiklərimi deyəcəkdim:

- Heç kimə deməyəcəm. Bilirəm ki, bura o hissləri anlamaq üçün gəlmisiz. Bəs deyil? Hər şeyi gördünüz, yaşadınız. İndi qayıda bilərsiz.

Dikəlib oturdu. Gözlərini mənə zilləyib boş-boş baxdı. Başqalarının gözlərində əsla görə bilmədiyim o soyuq parıltı yenə ordaydı. Eynən o kitabın arxasındakı şəkildə olan kimi. İndi dediklərimdən əmin idim. Guya az olub, yazıçılar əsərlərindəki yerləri, insanları daha yaxşı tanımaq üçün aralarında yaşayıb? Düzü, heç rast gəlməmişəm, amma olmamış olmaz.

- Ağıllı olmağın pis tərəfi sənə axmaq olmağa icazə verməməkləridir.

- Axmaqlar yığnağında bir ovuc ağllı insan var, onları da itirə bilmərik.

- Sənin ağıllılardan olduğunu kim dedi?

Cümlə sualdan çox ittiham kimi səslənmişdi. Baxışlarında əminlik vardı. Məni axmaq yerinə qoyduğu aydın idi.

Əlbəttə, ağıllılardan olduğumu kimsə deməmişdi. Amma deməlidirlər ki? Özüm bunu hiss edirəm, bəsdi. Hamı axmaq-axmaq işlər görür, bir-birlərinə quyruq bulayır, quyu qazırlar. Beş-üç manat üçün doğma qardaşını öldürməyə hazır olanlar var. Hələ mənasız şouları izləyən, onlara gülən axmaqları demirəm. Gicgicə dəbdənsə heç danışmıram. Bunları ona deyə bilmədim. Elə bil sözlər boğazımda düyünlənmişdi. Ola bilməz ki, bu dediklərim yalan olsun? Özümə şübhə edirəm?

- Fikir vermə, buranın havasındandı. Adamı ağlından şübhə etməyə məcbur edir, - bu dəfə səsindəki kinayə açıq-aşkar idi.

Alnımda puçurlanan təri əlimin tərsi ilə silib gözlərinə baxdım. Mənə gülürdü. Dodağı qaçmasa, gözlərində eyni boş baxış olsa da, mənə gülürdü. Hiss edirdim.

- Getsən, yaxşıdır.

Ayağa qalxıb sağollaşmaq üçün əlimi uzatmaq istədim. Salamlaşmaq üçün əl uzatmadığımı xatırladım. İndi əl uzatmaq axmaqlıq olardı. Qollarımı yanıma salıb, qapıya tərəf addımladım.

- Ondan üzr istəməlisən.

Səbr kasamı daşıran son damla... Əlimi dəstəkdən çəkmədən ona tərəf dönüb, bağırdım:

- Niyə üzr istəməliyəm axı?! At düz getmir! Bunu bilməyəcək qədər axmaq olmasından mənə nə?! Dəli olması heç nəyi dəyişdirmir! At düz getmir! Bilmirsə öyrənsin! Xaricdə dəlilər şahmat yarışlarına qatılır, amma bizim ağıllılarımız da dəlilərimiz kimi axmaqdı. Atlar düz gedə bilməz, başa düşürsən?! Gedə bilməz...

- Onun atını düzəltdin, amma mənim də fillərim eyni rəngli xanalarda idi. Mənim fillərimi düzəldə bilməzdin, mən sənincün dahi idim. Onun atınasa qarışa bilərdin, çünki o dəli idi, hə? Əslində, məni öyrətmək istəyirdin, düzdü?

Quruyub qalmışdım. Bu sözləri elə sakit tonda deyirdi ki, elə bil balaca uşağa səhvini başa salırdı. Doğru deyirdi. Əslində öyrətmək istədiyim o idi, amma bunu edə bilməzdim. Cəsarətim çatmazdı. Niyə onunçün maraqlı olmadığımı artıq anlayırdım. Məni tanımışdı. Adımı, yaşımı, haralı olduğumu, işimi və hətta maaşımı demədən tanımışdı.

- Ondan üzr istə. At onundur, istəyər "L" şəklində aparar, istəyər "O".

"O" şəklində getsə, başladığı yerə qayıdar axı. Ağlıma gələn bu axmaq fikrə özüm də gülümsədim. Görəsən, bunu ona deyim? "Cənab dəli, siz mənə həyat dərsi verəndə mən "O" şəklində getməyin axmaqlıq olduğunu düşünürdüm" - belə desəm, nə olar?

- Salamat qalın.

Otaqdan çıxıb dərindən nəfəs aldım. Özümə gəlməyə macal tapmamış o qadın yenə yanımda peyda oldu. Gülümsəyərək:

- Bitdi danışığınız Elman bəylə?

Bu dəfə "bəy" sözünü xüsusi vurğu ilə deməsi məni qıcıqlandırmadı. Əksinə, gülümsədim. O da bundan cəsarət alıb, bir az da yaxınlaşdı. Ağzı qulağının dibinə getmişdi. Allah eşqinə, dişləri gündə iki dəfə fırçalamaq lazımdır.

- Danışdım.

- Onda sizi çölə qədər ötürüm.

- Çox sağ olun.

- Aa, demədiz axı, babanız hardan idi?

- Zaqataladan.

- Hmm, nə yaxşı.

Qadının üzündəki "bilirdim" ifadəsinə məhəl qoymayıb addımlarımı yeyinlətdim. Buradan mümkün qədər tez çıxmaq istəyirdim. Amma xanım "Yeriyən yüz əlli kilo" mənə çatmağa çətinlik çəkdiyindən yavaşımalı oldum. Yenə bu qışqırıqlar... Artıq özümü cəsur göstərməyə ehtiyac yoxdu, barmaqlarımla qulağımı tıxayacam. Bu dəlilərin... Əllərimi qaldırmaq əvəzinə özüm də bilmədən dodaqlarım tərpəndi:

- Elman bəyin otağındakı o adamı tanıyırsız? O sözləri bir neçə dəfə təkrarlayan, arıq, uzun olanı deyirəm? Şahmat dəsti var.

Dediklərimə təəccüblənmişdi. Niyə də təəccüblənməsin axı, mən özüm də məəttəl qalmışdım. Elə bilirdim, burdan mümkün olduqca tez canımı qurtarmaq istəyirəm. Nəhayət, kimdən danışdığımı anlayıb başıyla təsdiqlədi. Çiynini çəkib, iyrənirmiş kimi üz-gözünü turşutdu:

- Qariki deyirsiz?

Qarik? Qəribə addı. Elə bil hardasa eşitmişəm. Amma xatırlamağa halım yox idi. Artıq burdakı iydən başım gicəllənməyə başlamışdı. Hələ bağırtıları demirəm. Heç halına təfavüt etməyən qadına paxıllıq edirdim. Dodaqlarımı bir-birinə sıxıb qaşlarımı çatdım. Dərindən nəfəs alıb dişlərimin arasında fısıldadım:

- Zəhmət olmasa, məni onun otağına aparın.

Aysel KƏRİM

İLAHİ

Dərd əlindən qaçıb sənə gəlmişəm,
Əllərimi açıb sənə gəlmişəm.
Bir gecəyə günəş saçıb gəlmişəm,
Qaçmışam ki, tapmasınlar, İlahi.

Nəfəs verdin, ürək verdin, ruh verdin,
Uçmaq üçün qanad bəxş etmədinmi?
Dünya boyda ümid hədiyyə edib,
Bir quruca dilək bəxş etmədinmi?

Səndə hüzurumu, qəlbimi tapdım,
Artıq anladım ki, itirmək nədir.
Qocalmış ağacın, solmuş ağacın
Yerində yenisin bitirmək nədir .

SƏRHƏDÇİ QARDAŞIMA

Salam, dan yerinə keşikçi olan,
Mənim sabahıma muğayət oğul.
Aya sirdaş olub , günlə doğulan,
Sözü baldan şirin, könlü şad oğul!

Sərhəd dirəkləri sıxır əlini,
Sənə həmdərd olur vətən torpağı.
Müqəddəs yurdumun bar-bəhərini
Sənin sədaqətin qoruyur axı .

Nə qədər doğmasan, alınmaz qalam!
Necə də mətinsən cəsur nəğmətək.
Nə qədər sən varsan,həyatda varam,
Sabahlar eşqinə sədam gələcək!



Əli HACILI

SALFETƏ YAZILMIŞ HEKAYƏ

Adi günlərdən biri. Hava qaralmağa doğru gedirdi. İsmayıl yenə təkdi. Həmişə oturduğu kafenin qabağında dayanıb "bu gün içməyəcəm" fikri ilə ordan uzaqlaşmağa çalışırdı, getməyə bir yeri də yoxdu, əslində, heç kim qalmamışdı ətrafında. Dostları, onun bütün yaxşılıqlarına, fədakarlıqlarına baxmayaraq, yanında deyildilər, uzaqlaşmışdı hamı ondan, dərdləriylə baş-başa qoyub getmişdilər. Axırıncı pullarını "dostlar"a xərclədiyini, atasından yadigar qalan saatı belə "dost" yolunda lombarda qoyduğunu acı-acı xatırladı. Sevgilisi də ki... nəysə. Bu mövzuya toxunmayaq.

O, qapını açmaqla açmamaq arasında düşünərkən qapını başqa birisi açdı, "Buyurun, keçin" deyib onu içəri dəvət etdi. Artıq qərar qətiydi, bu gün də tək içəcəkdi.

Nədənsə kafedə adam az görünürdü. Kiçik də olsa sanki dəyişiklik vardı içəridə. İsmayıl bu dəyişikliyin nədə olduğunu müəyyənləşdirməyə çalışarkən istəmədən bir qıza toxundu. Üzr istəyəndən sonra özünü günahkar saydığından qıza bir qədəh şərab təklif etdi. Qız saata baxdı, yox deməyə çalışsa da, İsmayılın yalnızlığını duyurmuş kimi təklifi qəbul etdi.

Tanışlıq o qədər də uzun çəkmədi, bir zamanlar bir-birini istəyib ayrılmış cütlüyə bənzəyirdilər. İsmayıl bu az vaxtda qıza elə isinişmişdi ki... Onun getməyini heç istəmirdi. Danışmağa mövzu da tapmışdılar. İnci haqqında az da olsa öyrənmişdi. Gedəcəyi yerə, sonuncu avtobusun saat neçədə çıxmağına qədər. Yolları da eyni idi, demək olar. İsmayıl gizlicə mobil telefonun saatına baxıb düşünürdü ki, bir qədəh də içsələr, sonuncu avtobus çıxar, evə qədər piyada gedərlər (qol saatına baxmağa ürək eləmirdi, qıza vaxtı xatırlada bilərdi).

İnci onun yaxşı oğlan olduğunu görüb ikinci qədəhə də razılıq verdi. İsmayılın siqareti də qurtarmışdı. Qızdan istəməyə çəkindiyindən fikrini başqa şeylərlə məşğul etməyə çalışırdı.

...Hər şey hələ ki onun istədiyi kimi gedirdi. Gözlənilməz görüşü taleyin hədiyyəsi sayır, bəxtindən gileyləndiyinə görə ürəyində özünü qınayırdı. Qolunu qaldırıb (bu dəfə qorxusu yoxdu) saata baxdı. Həyəcanla "Heyif, sonuncu avtobus çıxdı..." dedi. Sevincini gizlətməyə çalışdı. İnci isə gözlərini ondan çəkmədən xoş bir təbəssümlə "eybi yox, sevgilim məni götürməyə gələcək" deyib başını aşağı saldı. İsmayıl çaşqınlıq içində yenidən saata baxdı "hə, problem yoxdu onda" deyib üzünə su vurmağa getdi. Geri qayıdanda İncini görmədi... Masanın üstündəsə onun üçün qoyulmuş üç ədəd siqaret vardı...

İsmayıl masaya yaxınlaşıb salfeti əlinə aldı... və bu hekayəni yazmağa başladı...

Firuz ABDULLA

BAŞ ƏYDİYİM TƏR QOXUSU

...Anam təkcə onu saxladı. Boz, üzərində yaxından baxanda güclə sezilən qəhvəyi xətləri olan pencəyi. Təkcə onu vermədi məscidə. İndi də şifonerimizdə asılıb. Evin diri sakinlərinin paltarları ilə yanaşı. Bəlkə də dolabın qapısı hər dəfə açılanda 10 ildən çoxdu təmasını hiss eləmədiyi əlin yenidən ona toxunacağına, bu qaranlıq taxta məhbəsdən gün işığına çıxacağına ümid edir. Axı 10 ildən çoxdu görmədiyi sahibindən özünə nəsə hopdurub, özündə nəsə saxlamağı bacarıb...

Gecələr onunla eyni taleyi paylaşıb, gündüzlər, heç olmasa, havasını dəyişən bəxtəvər paltarlardan fərqli, hərdən ona doğru da bir əl uzanır. Amma asılqandan almaq üçün yox. Əl uzanır, yaxalığını özünə tərəf çəkir, başını qoltuğuna doğru uzadır. Bir neçə saniyəlik. Sonra dərindən köks ötürüb şifonerin qapısını bağlayır...

...O adam mənəm. O boz pencəyə doğru uzanan əl, qarşısında əyilən baş mənimdi...

...2002-ci ildi. İyunun 18-i. Həmin gün iki oyun vardı dünya çempionatında. Günortadan bir az keçmiş Türkiyə - Yaponiya, axşamçağı Cənubi Koreya - İtaliya. Birinci oyunun həyəcanı Azərbaycanda çoxları üçün başadüşüləndi, ikinci oyunun gərginliyi İtaliya azarkeşləri üçün. İkincilərdən bizim evdə ikisi vardı günün ikinci oyunu başlayanda. Oyundan təxminən 1 saat sonra biri qalacaqdı...

Hə, həmin gün dünya futbol tarixinin ən böyük rəzalətlərindən biri yaşandı. Hakim İtaliyanı uduzdurmaq üçün fitindən gələni elədi və nəhayət, elədiyini elədi. Koreyalıların ikinci - qaydalara görə qızıl - qolundan sonra atamla qəribə şəkildə baxışdıq. Son dəfə göz-gözə gəlirmişik. Bir az sonra məni son dəfə işə yola saldı - gecə növbəsinə. Təxminən bir saat sonra bir telefon zəngi ilə verilmiş dəhşətli xəbərin ağırlığı altında qayıtdım evə. Bu dəfə mən atamı yola salmaq üçün. Son dəfə...

...Ürəyi xəstə idi. İki infarktın ağrılı ağırlığı bir həssas ürək üçün yüngül yük deyildi. Harasa piyada gedəndə tez-tez təngnəfəs olurdu, özü demişkən, "sinəsi yanırdı", güclü tərləyirdi. O boz pencək adətən əynində olurdu. Sonuncu kostyumunun pencəyi idi. Anam bütün paltarlarını məscidə verdi. Bircə o pencəkdən savayı...

... Şəkillərin, videogörüntülərin qoxusu olmur. Baxırsan, görürsən, vəssalam. İtirdiyin kimsəni xatırladan daha artıq nəyəsə ehtiyacın olur. Təkcə səsə, görüntüyə yox...

...Hərdən hamının gözündən oğurlanıb şifonerin qapısını açıram. O boz pencəyin yaxalığını özümə tərəf çəkib başımı qoltuğuna doğru əyirəm. Oradan gələn tər qoxusunu ciyərlərimə çəkirəm. Atamın iyini alıram atamın pencəyindən. Sözün əsl mənasında. Amma çalışıram bunu görən olmasın, bu da bir dərd olmasın o itkinin ağrısını hər gün yaşayanlara.

...Bugünlərdə anam soruşdu ki, bilirsən atanın o pencəyini niyə evdə saxladım? Dinmədim, eləcə baxdım və özünün cavab verməyini gözlədim. Dedi ki, "o pencəkdən atanın iyi gəlir"...

P.S. Daha o şifonerin qapısının səsi gələndə həmin tərəfə baxmıram. O qapını məndən gizlin açanlar da var.

BİR FOTOŞƏKLƏ ÖN SÖZ

70-ci illərin ortalarında bizim nəsildən olanların çoxusu subay-salaq idi. Evlənməyə tələsmirdik. Əslində, evlənmək üçün əvvəlcə gərək evin olaydı ki, Şirməmməd Hüseynov demişkən, sonra da "lənəsən" da. Onçu da da gücümüzü yönəltmişdik oxumağa, yazmağa, dərgilərdə çap olunmağa, zülmnən, əziyyətnən olsa da əl içi boyda kitablar çıxarmağa ki, bizi də tanıyalar, irəli çəkələr, bizlər də ev, ailə, ocaq sahibi olaq. Təsəllimiz də oydu ki, bizdən yaşca xeyli böyük olan, istedadlı yazarımız Tofiq Məhərrəmoğlu dura-dura biz niyə qabağa düşək ki. Axır ki, bütün maneələrə, ən çox da məşəqqətli "kvartirantlıq" həyatına baxmayaraq, Tofiq qardaşımız şeytanın qıçın sındırdı və bizləri – beş-on yar-yoldaşını köhnə "İnturist"in 2-ci mərtəbəsindəki o qədər də geniş olmayan bir banket zalında baş tutan toy məclisinə dəvət elədi. Oxuyan da kim olsa yaxşıdı – o illərin, elə bütün zamanların istedadlı müğənnisi sandığımız Akif İslamzadə. Həm Tofiqin, həm də hamımızın dostu. Kişi toyu idi və sonacan yüksək "demokratik" şəraitdə ötüşən bir məclis alındı ki, bunu da elə səbəbkarın özünün xarakterindən gələn bədahətənliyin, azadlığın, ən yaxşı mənada demokratikliyin ayağına yazmaq olardı. Tostlar, çıxışlar sərbəst, ifa olunan mahnılar bir-birindən cazibəli, bəyin sanki özünün deyil, bir başqasının toyunda olan ahəngli davranışları... və bütün bunlar o yığcam məclisə bir ayrı hüsn, təravət, yaraşıq verirdi.

Bu şəkildəki iştirakçıların sırasında dostumuz Seyran Səxavət də olmalıydı. İntəhası məclisin şirin yerində hardansa bir fotoaparat tapıb bizə "əmr etdi" ki, sakit durun şəklinizi çəkəcəm. Hamı normal dayansa da, mən dinc oturmadım, başladım hənəynən ağzımı-gözümü əyməyə ki, çəkməsin, yaxşı deyil, qənşərimizdə araq-çaxır tarixə düşərik. Amma çəkdi Seyran və məni bu löyndə "tarixə saldı".

Orda, urus demiş, bir "insident" də yaşandı ki, qoy bunu da mən deyim, düşsün tarixə. Akif İslamzadə oxuya-oxuya Seyran dostumuz ona irad bildirənsayaq "jestlər" eləyəndə müğənni bunu tutdu, mikrafonu ağzından ayırıb məclisin o başından qopub yaxınlaşdı ki, "nə deyirsən, qədeş?!" Seyran da nə cavab verdisə, az qala əlbəyaxa olacaqdılar. Araya girib sakitləşdirdim onları, barışdılar və inanıram ki, iki istedadlı sənətkarı bu günəcən möhkəm dostluq telləri bağlayır.

Və bir də o məclisdə Azərbaycan radiosunun diktoru Qara Tağızadənin oxuduğu musiqi, oxu tərzinin incəliklərindən baş çıxaran Akif İslamzadəni belə heyran edən türk mahnısı heç yadımdan çıxmır. Qaranın oxu-

duğu həmin şərqi məhz Tofiq Məhərrəmoğlunun, bir də Akif İslamzadənin türksevərliyinə - deməli, vətənpərvərliyinə ithaf olunmuşdu.

İndi baxın, əziz oxucular, özlərini görməsəm də, tanıdığım Səməd Vurğunun, onun dostu Aleksandr Fadeyevin, dünyadan nakam getmiş Anatoli Zöhrabbəyovun, masaların arxasında gördüyüm Əkrəm Cəfərin, Ənvər Məmmədxanlının, İlyas Əfəndiyevin, İslam Səfərlinin, Rəsul Həmzətovun, məşhur futbolçu Ələkbər Məmmədovun... və nəhayət, Tofiq Məhərrəmoğlunun da isti, məhrəm nəfəslərini özüylə gedərgəlməzə aparmış o köhnə "İnturist"in banket zalında 1976-cı ilin noyabrında çəkilmiş bu fotoşəklin canında o məclisin ab-havası duyulurmu?





Və şəklə sözardı.

Soldan sağa "Ulduz"un qədim rəssamı Ədalət Həsən, mərhum şair Səyavuş Sərxanlı, şair Camal Yusifzadə, bir də bəndəniz

İntiqam MEHDİZADƏ

20 YANVAR 1990

Sərəstun GUR

* * *

Şəhidlik:
cənnətin baş tərəfində
şirin yuxularda mürgüləməkdir.
Vətən eşqi üçün can bahasına,
ən uca zirvəni fəth eləməkdir.

Şəhidlik:
bu adın içərisində,
şan-şərəf uyuyur, cəsarət yatır.
Şəhidlik:
bu adın hər bir hərfində,
tükənməz eşq yatır, məhəbbət yatır.

Şəhidlik:
torpağın hər qarışıyçün
güllələr önünə baş atmaq demək.
Ruhunu əbədi - Allah yanında,
adını dillərdə yaşatmaq demək.

Ha öldürürlər,
yenə sağ qalır şəhidlər,
Döyüşdə yorulur…
dincini cənnətdə alır şəhidlər!!

Vaqif ***BAYATLI ODƏR***

HƏR İKİ DÜNYANIN ƏN GÖZƏLİ...

Hər iki dünyanın ən gözəl dili,
ən gözəl eli, ən gözəl gülü

Təbrizli cocuqlara

Hər iki dünyanın ən gözəl dili
sən danışdığın dil,
hər iki dünyanın ən gözəl eli
sən doğulduğun el,
hər iki dünyanın ən gözəl gülü -
gecə-gündüz hər an, hər an
sənə baxan, səni qoxlayan
sənin cocuq üzündən,
tumurcuq burnundan,
türk qoxundan doymayan gül.

Xəritədə Türkiyə Avropa üzərində şahə qalxan
Türk Atının mübarək yalı,
Avropa da mübarək Türk atının yalı altda yarı
at yəhəri, yarı at nalı

İstəyirsən, qalx,
göyüzündən bütün qitəyə bax,
istəyirsən, xəritəyə bax,
ya da könlünün gözüylə
göyüzünün nur düzünə,
nur dənizinə - qalx bax,
elə qalxan kimi də görünəcək sənə:
Türk qılıncı düşmənə
daha dadlı gəlsin deyə
qılıncdan qabaq at nalı qoxladan Türkiyə,
hər zaman, hər an
dörd ayağını dörd dənizə qoyub,
Avropa göylərində şahə qalxan,
sıçrarkən əbədiyyəttək dalğalanan
Türk atının – Türk dənizinin mübarək yalıtək,
Avropa da Türk atının,
Türk dənizinin yalı altda
yarı at yəhəri,
yarı da qılınclar, qalxanlar əyən,
ancaq qılınclar, qalxanlar yeyən
mübarək Türk atının mübarək nalıtək.

O anlar duaların gözləritək
salavatçün açılıb göyə
ovuclar Allaha baxar

Son peyğəmbərini doğar
Göylər yorular yorulmaz

Dağ göy olar, düz dəniz,
Sultan qul olar, şah kəniz,
bu dünyadan daha qəliz
sirrə varılar varılmaz.

Göyüzü ulduz bitirər,
ulduz da adam gətirər,
yeni qurbanlar yetirər,
rahat olar bütün çiyinlər,
son baş vurular vurulmaz.

Duaların gözləritək
salavatçün açılıb göyə
ovuclar Allaha baxar,

Qəfil kainata düşüb
səs salmasınlar deyə
gözlər göz yaşını boğar -

Son peyğəmbərini doğar
göylər yorular yorulmaz.

Ən qəmli qələm də bilir
o, bir Tanrı qələmi

Yenə minillər öncəkitək
şairlər hər zaman ancaq
vəfasız eşqi, sevgini,
vəfalı qəmi yazacaq.

Deyən, bunu elə eşq də,
elə eşqin canındakı
əbədi qəm də bilir,
elə cana eşq gələn kimi
şeirsevən, cansevən
o qəm də qalxıb gəlir.

Hər bir söz də bilir hər an,
o, bir Tanrı sevinci, qəmi,
Alınlara zaman-zaman
“Bu, son qəmli eşqdi” - yazan
ən qəmli Qələm də bilir
o, bir Tanrı qələmi.

Şairlər olmadan olmuş

Heç nə gizlətməyin bizdən,
biz söz çəkirik sözdən,
deməsəz də, üzdən, gözdən
şairlər bilmədən bilmiş.

Ən dar gündə, ağır gündə,
hamı lal, kar, sağır gündə
uzaqvuran top gücündə
şairlər gülmədən gülmüş.

Göydə də son göyə çatıb,
qoynunda günəştək yatıb
yenə günəştək doğmaqçün
dan yerinə də tağ atıb,
şairlər ölmədən ölmüş.

Səni can oğrusu bilim,
canımı gizlədim, gülüm,
çox da lovğalanma, ölüm,
məni tapammazsan, gülüm,
şairlər olmadan olmuş.

Tanrım, əzabı qıymırsan heç bir fikrə,
heç bir sözə

Tanrım, özün duydurdun bu sirri, -
hər alın yazısı bir Tanrı şeiri,
hər alın yazısı bir Tanrı şeiri,

Həm də duydurdun,
bəndələrə yazdırdığın sevincə
bəndədən də çox sevinirsən özün,
bilirəm, İlahi sevinci belə ola bilər ancaq –
sevindirdiyi bəndədən
daha çox sevinir Tanrı özü,
Duyuram, qazandığımız əzab da yenə
bizdən çox əzab verir Sənin özünə,

Həm də sözlərə əzab verəndə duyuram,
o an sözdən çox, əzab veririk Sənin özünə,
duyuram, sən tək insanlara yox,
əzabı qıymırsan, hətta heç bir fikrə, sözə,
həm də o fikirləri, sözləri
dünyanın ən gözəl, ən dadlı əzablarıyla
əslində əzabsız yazdıra-yazdıra bizə

Xanımların ayaq səsləri çiçəklərin açması
səsləritək,
onlar eyni anda kişiləri də, dünyanı da idarə
edə-edə,
özlərinin də idarə olunmalarını istərlər həm də

Mən ancaq deyə bilərəm, kişilər heç bir zaman
qadın ayaqlarının necə çiçəkləndiyini,
nə dediyini anlaya bilməyəcəklər axıracan,
bunu heç qadınlar özləri də dəqiq bilməzlər,
ancaq o dəqiq bilmədiklərini
bütün dəqiqliklərilə kişilərdən istərlər.

Qadın ayaq səsləri nə deyər, nə istər?!
“Dünyanı kişilər idarə edər, kişiləri də qadınlar”,
bu da yarımçıq sözdü, ay incəbel Badə,
əslində qadınlar çiçəklərin açması səsləritək
eyni anda kişiləri də,dünyanı da idarə edə-edə
həm də özlərinin də idarə olunmalarını istərlər.

Qadın ayaq səsləri nə deyər, nə istər?!
Sevənlər hər şeyi sevdikləriyçün istər,
Hərdən Allahçün da maraqlı olar
sevdikləriçün daha nə istəyəcək onlar,
o anlar qadın düşüncəsi kişi düşüncəsindən
daha maraqlı, daha doğma gələr Allaha.

Qadın ayaq səsləri nə deyər, nə istər?
Bir cavab bütün cavabları üstələr:
Hər iki dünyanın ən eşqli musiqisini
Motsart, Bethoven barmaqları yox,
eşqli qadın ayaqları bəstələr.

Avropa qadınları dünyanı daha çox öz
bədənləriylə,
Şərq qadınlarısa, daha çox gözləriylə sevərlər

Avropa qadınları dünyanı
daha çox öz bədənləriylə,
Şərq qadınlarısa dünyanı
daha çox gözləriylə devirərlər,
devirib sonra sevərlər.

Hər iki dünya üçün də daha tez ayılar qadınlar,
hamını hər an sevgiyə,
gözəlliyə yönəldən Tanrını da onlar
çox anlar kişilərdən daha tez duyar, anlar,
elə ona görə də Tanrı
onu daha çox duyduqları anlarda
qat-qat, çin-çin gözəllik yaradar qadınlarda

O Tanrı gözəlliyi anları
Tanrı eşqçün daha da şahanə edər onları,
onların çiçəktək açılan gözlərini,
hətta gözlərdə bir-bir tumurcuqlayıb,
üzlərdə eşqin güllərətək açılan göz yaşlarını da
eşq ətirli edər Tanrı.

Çünki Tanrı da daha çox sevər
onu gözəlliklərilə duyan ruhları, canları,
Tanrı eşqini duyarkən hər an canlarında,
ruhlarında yeni-yeni gözəlliklər açanları.

İlk sevgim, sevgilim Bakı,
Sən ey əbədi şeytanlar,
əbədi mələklər şəhəri

Can tacı eşqlər, diləklər,
acı gerçəklər şəhəri,
qatlanmaz, sınmaz biləklər,
sınan ürəklər şəhəri.

Əsəbi, doğma küləklər,
əsəbi, doğma çiçəklər,
doğma tənhalar, təklər,
doğma yalanlar, gerçəklər,
doğma kələklər şəhəri.

Sevişmələr, həyəcanlar,
həm can verər, həm can alar,
səni ancaq sevən anlar,
sən ey əbədi şeytanlar,
əbədi mələklər şəhəri.

Sevgidən dəli olmağa bu dünyada eşq azımış

Ay ürək, ay baş, ay bədən,
əl çəkin, əl çəkin, məndən,
ancaq canım açanda,
canım uçanda bilirəm
siz varsınız,
bu göy, göyüzü deyilən
qəfəs sizdən yaxşıdı,
siz göydən də,
göyüzündən də darsınız.

Ancaq bu can açanda,
bu can uçanda bilirəm
nə qış qış, nə də yaz yazmış,
sevgidən dəli olmağa
bu dünyada
eşq də, dəlilik də azımış.

Çıxıb gedirəm, gedirəm,
Bu göyüzünün altında
Sevmədiyim bir tikan,
Bir gül qoymaya-qoymaya,
gedirəm, gedirəm,
daha eşqli bir dünyaya,
bu dünyada eşq tikanından da,
gülündən də doymaya-doymaya.

Sözlər də şairi seçəndə

Adam nə zaman Şair olur?
O vaxt artıq şair sözləri yox,
sözlər şairi sevir, seçir,
şairlə bir nəfəs alır,
şair Söz olur, Söz şair,
həm də, həm də o anlar
hər sevinən sözlə bir-bir,
təkcə Allah şairi yox,
şair də Allahı sevindirir.

Min illərin şəhidləri –
min illərin igidləri

Qəhrəmanlıq insandan yox,
hər zamanTanrıdan gəlir,
Qəhrəmanlıq – Tanrının bir anlıq qəlbi,
Tanrının hökmüylə
bir anlıq Tanrılıq kimi!

Bu dünyada son anında qəhrəman
ancaq ona görünən görünməz göyüzündə -
əbədi ruh okeanında, ruh dənizində
heç bir cana, heç bir ruha
qorxu toxumu qalmasın deyə,
canındakı son qorxunu da son düşməntək
məhv edər, çəkilər, gedər göyə,

Gedər, yadigar qoyub gedər
dünyamıza qəhrəmanlığı,
həm də son anında gördüyü Allaha
üzündəki əbədi heyranlığı.

Gedər, gedər qəhrəman
ruhunun əbədi nur çağı,
gedər onu göyüzünün
ən ulduzlu düzündə qarşılayan
min illərin igidləri,
min illərin şəhidləri solu, sağı.

Adama qoyun deyib güldürməyin düşməni, yadı,
qoyunun ağı da, qarası da dövlətlərimizin adı

Doğma qoyun üzlərə, qoyun gözlərə

Min illərdi düz demirlər:
yaxşılar gedir, pislər qalır,
pis həmişə çox görükür,
nə qədər yaxşı getsə də,
yenə minlər, yüzlər qalır.

Yenə, yenə min illərlə
eşq gözləyən dağlar, düzlər,
üzlər, gözlər, nazlar qalır,
öpülməmiş dodaqlarda
öpülməmiş səslər, sözlər,
öpülməmiş közlər qalır.

Hər nə gəldi diləyirik,
hər cür qələt eləyirik,
adama qoyun deyirik,
deyirik, son anda amma,
yenə bizə hamıdan doğma
qoyun üzlər, gözlər qalır.

Ən qatı cani də uşaq

Hərə qocalır bir cürə,
birinin üzünə nuru,
birinin zoru çıxır,
yola salan çox olsa da,
hamını qarşılamağa
ancaq qəbri, goru çıxır.
Allahın dərgahına bax,
Nə yaşayıb bunlar, Allah?
Hamı körpə, hamı uşaq,
Bir yol "Can!" de ağlayacaq, -
ən qatı cani də üzü ağ,
dimdiyi sapsarı çıxır.

Allah baxır, baxır ona,
bunu göndərsin hayana,
ha vurub, bölsə də yenə,
cənnətə, cəhənnəmə də
yenə yarı-yarı çıxır.

"Dünyanın ən təhlükəli anlarında dünyanı
ağıllandıran dəli gerçəkləri, - ancaq təhlükələrdən
açılan uçurum çiçəkləri" silsiləsindən

Çox adam çaxırdan, araqdan, hətta ən son anda boş şüşədən, mənsə şeirdən, elə ilk andan boş varaqdan sərxoş oluram

Kimlərsə bir coşğun çayı keçəntək
bir şüşə şərabdan keçməkdən,
o coşqun çayı
hər iki dünyanı birdən içirmiştək içməkdən,
bədənləri, ruhları, canları
boşaltdıqları sərxoş badələrtək şərabdan çox,
hər iki dünyayla dolmaqdan,
hətta üçüncü dünya həsrətində qalmaqdan sərxoş
olurlar.

Ən şairanələrsə,
dünya gözəli gözlərinə baxantək
eşqlə dolu badənin gözlərinə
elə bircəcə an baxmaqdan,
baxcaq da, o gözlərlə dolmaqdan,
elə o andan da,
o gözlərin olmaqdan sərxoş olurlar.

Mən də badə eşqlə dolantək sözlə dolub,
önündə ən dəli badənin də diz çökdüyü
eşqdən də sərxoş, dəli söztək ağlamaqdan,
gülməkdən,
eyni anda ağlaya-ağlaya, gülə-gülə
ən ağıllı sözdən də çox, ən dəli söz eşqindən
ölməkdən,
elə ilk andan da ən gözəl, ən dəli kefə,
ən dəli kəfənə-ağ vərəqə bükülməkdən sərxoş
oluram.

Köhnə həyatım altından təzə həyatlarım çıxır

Deyirlər hər şey dəyişir,
hər bir adamın canında
təzələr köhnəni yıxır,
kimin buynuzu, quyruğu,
kimin qanadları çıxır

Mən də adamam, sözüm var,
qəmdən də eşqli gözüm var,
soymağa dərim, üzüm var,
bax, bax, dərim soyulduqca
daha gözəl qatlarım çıxır.

Nə gözəl çözələnirəm,
soyulub təzələnirəm,
ölümlə məzələnirəm,
köhnə həyatım altından
təzə həyatlarım çıxır.

Bu dünyanın yaşı, heç deməynən, ancaq bircəcə anmış,
o, başqa dünyadan qalmış bir Ruhi dağ yanında yaranmış

Ancaq ruhunla bax,
onda görərsən, duyarsan ancaq:
əbədiyyətdən əbədiyyətə axır o dağ,
hərdən də ona əbədiyyət sahillərində
bir damlatək ya bir dəniz,
ya bütöv bir dünya, bir okean ilişib qalır,
hərdən də indi yaşadığımız yox, hərdən
duyduğumuz,
min illik, milyon illik ruhi ömürlərimiz,

Hərdən də ora əbədiyyətdən
Əbədiyyət dahisi,
Əbədiyyət Tənhası bir səs uzanır:
"Göyüzü, bu ruha bir yüz il də,
bir min il də, bir milyon il də süz,
o ruhasa süzmə, o ruh ölümsüz".

Anlaşılmaz bir şey yox,
bu dünya o dağın yanında körpəcə uşaq,
bu dünyanın yaşı da
əslində bircəcə anmış,
bu dünya başqa bir dünyadan qalmış
görünməz bir ruhi dağ yanında yaranmış.

Günəş göyüzünə qalxantək adamlara günəş kitablar, səslər, sözlər qalxır

İllərdi məni axtarıb tapan,
elə tapan kimi də qucaqlayıb,
gözlərimdən öpən kitablar,
mən də hamınızın hər an,
hər zaman əbədiyyətdən
balaca, körpə günəşlərtək qalxan,
hər an Allaha baxan
alnınızdan öpürəm,

Baxın, baxın, əbədiyyətin gündoğanından
günəş gültək açılıb qalxan kimi göyüzünə
adamlara günəştək açılan kitablar,
günəş açan alınlar, gözlər,
günəş açan eşqlər, səslər, sözlər qalxır.

Salavat çevirirkən - göyə, Tanrı ətəyinə qovuşan an
Tanrı güllərtək açılan əllərə, üzlərə, gözlərə "Quran"

"Quran-i Kərim", "Quran" –
hər an bir an öncəkindən,
daha gözəl göy açan
daha qönçə ulduz, ay açan
sonsuz əbədiyyət göyü,
sonsuz göyün sonsuz sayda
üzü salavata ulduzu, ayı

Hər salavat çevirən an,
göyüzüylə qovuşurkan,
Tanrı gülllərtək açılan,
əllərə, üzlərə, gözlərə,
bütün göyüzünə "Quran" –
Tanrınur payı Tanrıdan.